# XOCALI FACİƏSİNDƏN 34 İL KEÇDİ

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 08 (6150) 27 fevral 2026-cı il | Qiyməti 40 qəpik

## XOCALIDA SOYQIRIMI ABİDƏSİNİN AÇILIŞI OLDU



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.**

**Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev Memorialın önünə əklil qoydu.**

**Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Memorialla tanış oldular və Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.**

## İlham Əliyev Ermənistanda keçiriləcək sammitə qatılacaq?



**"Avropa Siyasi Birliyinin tədbirlərində müxtəlif səviyyəli təmsilçilik nəzərdə tutulmur".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı "Ana harayı" abidəsini ziyarət edərkən jurnalistlərə deyib. "Məndə olan məlumata görə, may ayında Ermənistanda keçiriləcək Avropa Siyasi Birliyinin Sammitində Azərbaycan Prezidentinin iştirakı nəzərdə tutulmur. Burada təmsilçilik yalnız dövlət başçıları səviyyəsində olur, yeni bu format belə təsis edilib. Məndə olan məlumata əsasən, Prezident İlham Əliyevin may ayında Ermənistana səfəri nəzərdə tutulmayıb".

## Amnistiya aktı neçə nəfərə şamil edilib?

**Amnistiya aktı indiyədək 18355 şəxsə şamil edilib. Adalet.az xəbər verir ki, bunu Binəqədi Rayon Prokurorluğunun yeni inzibati binasınında "Açıq qapı günü" tədbirində Baş Prokurorluğun Cinayət Təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Namiq Eliyev deyib.**

Məlumata görə, həmin şəxslərdən 5638 nəfəri azadlıqdan məhrumetmə cəzasından azad edilib. Amnistiya tətbiq olunan şəxslərdən 572 nəfəri Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edənlər, qadınlar, əlillər, 18 yaşına çatmayanlar şəxslərdir.

*Aqil ABBAS*

## İNGİLİSLƏR "QARABAĞ"I ALQIŞLADILAR



**"Qarabağ"ın "Nyukasl"la səfər oyunu çox möhtəşəm keçdi. Uduzsaq da Qurbanovun ayğır atları sonadək ingilislərə master klass göstərdi.**

**Qəm eləməyə dəyməz. Uduza-uduza böyüyürük. Bir gürcü filmi var, təəssüf ki, adı yadımda deyil. İki nəfər bir qızı sevir, biri pəhləvan cüssəlidi, o biri isə mənim kimi cılız. Pəhləvan cüssəli mənim kimi cılızı harda tutursa döyür. Axırda cılız o qədər məşq edir ki, pəhləvan cüssəlini eşşək sudan gəlincə döyür. Pəhləvan cüssəli qaçıb canını qurtarmaq istəyir.**



**İndi "Qarabağ" da gün gələcək dəyəri milyard dollarlıq olan klubları o gürcü filmindəki mənim kimi cılız oğlan kimi çırpacaq.**

**Və "Nyukasl"la oyunda 3:2 məğlub olsa da Avropaya, eləcə də dünyaya göstərdi ki, Azərbaycanda da futbol var və "Qarabağ" kimi bir komanda var.**

**Uğurlar, "Qarabağ"!**

## *Azərbaycanlı şagird 82 min dollarlıq təqaüd qazandı*

**Pirəkəşkül kənd tam orta məktəbinin şagirdi Nilufər Hüseynli dünyanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan NYU Şanxay universitetinə tam təqaüdlə qəbul alan ilk azərbaycanlı şagird olub.**

Adalet.az xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat yayılıb.



Məlumata görə, N.Hüseynli güclü intellektual bacarıqları və qlobal akademik mühitə töhfə vermək potensialı ilə seçilib. Universitet tələbələrinin yarısı Çindən, digər yarısı isə dünyanın müxtəlif ölkələrindən seçilir.

**Onun təqaüdü 82 000 ABŞ dolları məbləğindədir.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## TƏƏSSÜF, BÖYÜYÜB ERMƏNİ OLACAQ



***Youtubedə təsadüfən qarşıma bir video çıxdı. Təxminən 3 yaşlı bir uşaq musiqinin ritmini tutaraq elə gözəl rəqs edirdi ki, çox xoşuma gəldi. Uşaq da çox yaraşıqlı idi. Amma sonra gördüm ki, videonu paylaşan ermənidi. Hərçənd ki musiqi həmişəki kimi bizimkiydi. Və çox təəssüf etdim. Niyə təəssüf etdim?***

***Yadıma Doğan Avçıoğlunun "Milli kurtuluş tarixrimiz" 21 cildlik kitabının 3-cü, ya 4-cü cildində, cild belə adlanırdı "Dünya savaşımız acısında erməni və rum sorumu"nda bir məhkəmə stenoqramı düşdü. 1923-25-ci illərdə Türkiyədə ermənilərə qarşı törətdiyi cinayətlərə görə adamları həbs edirdilər, hətta güllələnmə də verirdilər.***

***Belə şəxslərdən biri də Diyarbəkir valisi Rəşid Paşa olmuşdu. Hakim sual verir:***

***- Sən doktorsan, öz cibinin parasına şəfaxanalar tikdirmisən, minlərlə insanı müalicə etdirmisən. Necə oldu ki, sürü-sürü ermənin kırımına yol verdin?***

**Bax:səh-2**

*Əbülfət Mədətoğlu*

## ANDIMIZ: TORPAQ HAQQI!

**Bax:səh-9**

# Prezident İlham Əliyev Küveyt Əmirinə məktub ünvanlayıb



**Prezident İlham Əliyev Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-Sabaha məktub ünvanlayıb.**

Məktubda qeyd olunub:

"Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən Azərbaycan-Küveyt dövlətlərarası münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün əlverişli şərait yaradır. Əminəm ki, Azərbaycan ilə Küveyt arasında ənənəvi dostluq əlaqələri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və daha da dərinləşəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizi və dost xalqınızı mübarək Ramazan ayının başlaması münasibətilə də ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Küveyt Dövlətinə daim əmin-amanlıq və rifah diləyirəm".

# Prezident İlham Əliyev Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

**Fevralın 25-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən Publik Hüquqi Şəxs kimi fəaliyyət göstərir. Müasir infrastrukturla təmin olunan mərkəzdə tədris, idman, yataqxana, kulinariya təlim korpusları, təlim-qonaq evi, əkinçilik və emalatxana laboratoriyaları, istixana, həmçinin avtotəmir və CNC (dəzgahların kompüterləşdirilmiş idarəetmə sistemi) emalatxanaları yaradılıb. Burada, eyni zamanda, informatika kabinetləri, müasir sinif otaqları, hərbi hazırlıq kabineti, kitabxana, 300 nəfərlik akt zalı və yeməkxana fəaliyyət göstərir. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib və yenidənqurmadan sonra korpusların sayı 7-yə çatdırılıb. 2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Onların 385-i qadındır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, İT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir. Mərkəzdə yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, günəş panellərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur. Burada tələbələrə ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili pillələri üzrə biliklər verilir. Hazırda mərkəzdə 138 nəfər çalışır.

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi kadr hazırlığı istiqamətində dövlət və özəl sektoru təmsil edən 30-a yaxın müəssisə ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığa özəl sektorla birgə kadr hazırlığı, mütəxəssislərin tədrisə cəlb olunması, istehsalat təlimləri, ustad dərsləri, həmçinin sosial və innovativ layihələrin icrası daxildir.

# Sahibə Qafarova: "Qarabağ torpaqları qarabağlılara verilir"

**"Tez-tez qanunsuz tikililərin özəlləşdirilməsi məsələsi qaldırılır. Bunu ona görə özəlləşdirirlər ki, torpağın kateqoriyasına uyğun şəkildə qurulmayıb. Məsələn, kənd təsərrüfatı təyinatlı torpaqda yaşayış evi tikilib və ya kimsə biznes obyekti inşa edib, sonra da onu özəlləşdirmək istəyir. Təbii ki, əvvəlcə torpağın kateqoriyası dəyişdirilməlidir, daha sonra özəlləşdirilməlidir".**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı deputat Siyavuş Novruzov deyib.

O bildirib ki, işğaldan azad olunmuş ərazilərdə üç hava limanı tikilib: "Yenilərinin tikilməsi Azərbaycanın digər ərazilərində nəzərdə tutulur. Xüsusilə nəqliyyat dəhlizlərinin açılması fonunda yeni dəniz limanlarının salınmasına ehtiyac var. Belə olan halda yenə hansısa mülkiyyətçi öz mülkiyyətini olmazın qiymətinə dövlətə təklif etməsin. Əgər bu dövlətin zərurətidirsə, ehtiyacı varsa, dövlət burada Azərbaycanın gələcəyi üçün işlər görürsə, bu, dövlətin müəyyən etdiyi qiymət vasitəsilə dövlət ehtiyacları üçün istifadə oluna bilər. Məsələnin mahiyyəti bundan ibarətdir".

"İşğaldan azad olunmuş ərazilərlə bağlı onu da qeyd etmək istərdim ki, bu gün orada özəl sektor fəal iştirak edir. Sahibkarlar fəaliyyət göstərir, müəssisələr açılır. Cənab Prezident hər dəfə işğaldan azad olunmuş ərazilərə səfər etdikdə yeni iş yerlərinin açılması üçün müəssisələrin lentlərini kəsir, yeni müəssisələr açılır. Bu müəssisələrin böyük hissəsi özəl sektorun payına düşür, özəl sektor bu işləri həm dövlətdən kredit, həm öz vəsaitini qoymaqla həyata keçirir. Hazırda genişmiqyaslı şəhərsalma prosesi gedir. Müasir standartlara, dünya təcrübəsinə və infrastruktur tələblərinə uyğun yaşayış məntəqələri salınır. Vətəndaşlara yeni evlər təqdim olunur. Bu, dövlətin sosial siyasətinin tərkib hissəsidir", - deyə deputat vurğulayıb.

Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, Qarabağ torpaqları qarabağlılara verilir və Qarabağa köçən hər bir ailə işlə təmin olunur.

# "Xocalı faciəsi bəşər tarixində az-az görünən soyqırımlardan biridir"



**"Xocalı faciəsi bizim 20-ci əsr, müstəqillik tariximizin Qarabağ müharibəsinin ən qanlı, ən faciəli, ən dəhşətli epizodlarından biridir. Əvvəla hadisənin miqyası, insanların milli etnik əlamətlərə görə öldürülməsi, onlara divan tutulması, qadınların, qocaların, uşaqların qətlə yetirilməsi, kütləvi şəkildə insanların məhv edilməsi bu, bəşər tarixində az-az görünən soyqırımlardan biridir".**

Bunu Adalet.az-a açıqlamasında professor Qulu Məhərrəmli Xocalı faciəsi haqda danışarkən deyib. O, bildirib ki, ona görə də biz bu faciəni heç vaxt unutmalı deyilik:

"Onun haqqında danışmalıyıq, onun milli, qan yaddaşın mühüm bir səhifəsi kimi nəsildən-nəslə ötürməliyik. Bununla bağlı həm ölkə içində, həm ölkədən kənarda, Avropa ölkələrində müəyyən kampaniya aparılır. Hesab edirəm ki, Xocalıya ədalət kampaniyası bütövlükdə götürüləndə çox düşünülmüş, ciddi təbliğat formalarından biridir və bunu daim davam etdirmək lazımdır. Eləcə də ölkə içində yeni nəslə aşılanmalı ideyalar var ki, Azərbaycan öz torpaq bütövlüyünü, suverenliyini qorumaq üçün hansı faciələrdən keçib. Bu bizim üçün bir tarix kitabıdır.

Həmçinin sizin qələmə aldığınız "25-dən 26-na keçməyən gecə" kitabınız Xocalı haqqında çap olunan ən maraqlı və publisistik əsərlərdən biridir. Bunun ən üstün cəhəti odur ki, soyqırımla bağlı ayrı-ayrı epizodlar, insan taleləri, müxtəlif adamların düşüncəsi, yanaşması bu kitabda çox parlaq şəkildə əks olunub.

Müəllif bu kitabı çox böyük sarsıntılardan keçərək yazıb. Orda təsvir olunan əhvalatlar, qoyulan məsələlər, insan taleləri sanki hər birimizin yaşadığı epizoddur. Ona görə sizin bu kitabınızı yüksək qiymətləndirirəm və orda mənim də mövqeyim var və buna görə də sizə təşəkkür edirəm".

**Vasif ƏLİHÜSEYN**

Aqil ABBAS

# TƏƏSSÜF, BÖYÜYÜB ERMƏNİ OLACAQ

*Youtubedə təsadüfən qarşıma bir video çıxdı. Təxminən 3 yaşlı bir uşaq musiqinin ritmini tutaraq elə gözəl rəqs edirdi ki, çox xoşuma gəldi. Uşaq da çox yaraşıqlı idi. Amma sonra gördüm ki, videonu paylaşan ermənidi. Hərçənd ki musiqi həmişəki kimi bizimkiydi. Və çox təəssüf etdim. Niyə təəssüf etdim?*

*Yadıma Doğan Avçıoğlunun "Milli kurtuluş tarixi̇miz" 21 cildlik kitabının 3-cü, ya 4-cü cildində, cild belə adlanırdı "Dünya savaşımız acısında erməni və rum sorumu"nda bir məhkəmə stenoqramı düşdü. 1923-25-ci illərdə Türkiyədə ermənilərə qarşı törətdiyi cinayətlərə görə adamları həbs edirdilər, hətta güllələnmə də verirdilər.*

*Belə şəxslərdən biri də Diyarbəkir valisi Rəşid Paşa olmuşdu. Hakim sual verir:*

*- Sən doktorsan, öz cibinin parasına şəfaxanalar tikdirmisən, minlərlə insanı müalicə etdirmisən. Necə oldu ki, sürü-sürü ermənininin kırımına yol verdin?*

*Rəşid Paşa:*

*- Siz bilirmisiniz ki, Şuşada ermənilər bizim analarımızın, bacılarımızın kürəyində samovar qaynadıblar?!*

*Hakim:*

*- Siz əvvəl əmr eləmisiniz ki, cocuqlara və ixtiyarlara toxunmayın. Sonra bir gün bu əmri də dəyşmisiniz ki, onları da kırın. Niyə?*

*Rəşid Paşa:*

*- Bir gecə yuxudan hövlnak qalxdım, fikirləşdim ki, bu cocuqlar da böyüyüb ataları kimi erməni olacaqlar.*

*Qısası, Rəşid Paşaya güllələnmə hökmü çıxarırlar. Həmin gecə Rəşid Paşa həbsxanadan qaçır. Gedir evinə, bir balaca məktub yazır, sonra da başına bir güllə vuraraq özünü öldürür.*

*Məktubda belə yazmışdı: "Mənim ölümüm Türkiyə dövləti üçün lazımdırsa, mən özümü öldürdüm. İstəmədim məni siz güllələyəsiniz. Ona görə ki, sizin gələcək nəsilləri töhmətdən qurtarım. Onları sokakda görənlər üzlərinə tüpürməsinlər ki, bunların ataları Rəşid Paşanı güllələyiblər".*

*Bu mövzunu torpaqlarımız işğal altında olanda cocuqlarımız, ana-bacılarımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetiriləndə dəfələrlə yazmışam.*

*İndi torpaqlarımız azad olunandan altı il sonra yenidən bu mövzunu yada salmaq istəməzdim, amma məndən asılı olmadı.*

*Çox gözəl rəqs edən o yaraşıqlı cocuq nədənsə bunu mənim yadıma saldı. Və fikirləşdim ki, belə gözəl rəqsi ilə ürəyimi oxşayan bu cocuq böyüyüb atası kimi erməni olacaq. İstər-istəməz arzuladım ki, Zori Balayan olmasın, Vardanyan olmasın, Araik Aratunyan olmasın, Köçəryan olmasın, heç olmazsa, yazıçı Qrant Matevosyan olsun. O Qrant ki hadisələr başlayanda Ermənistanın tərəfini tutmamışdı və Qarabağ məsələsinə qarışmadığı üçün bütün Ermənistan ona söyürdü.*

*P.S. Hadisələrin şıdırğı vaxtı qatarla Ağdama gedirdim. Yevlaxı keçəndən sonra gördüm qonşu kupedə bir ağlaşma səsi gəlir. İstər-istəməz maraqlandım. Keçdim həmin kupeyə, gördüm səkkiz-doqquz nəfər bir kupeyə yığışıb - qadınlardı, qocalardı, bir də uşaqlar. Məlum oldu ki, Bakıdan Xankəndinə gedirlər. Öyrəndim ki, qatar Yevlaxdan keçəndən sonra bir qrup gənc vaqonları gəzib erməni axtarırlar və tapdıqlarını da möhkəm döyürlər, ermənilər də ona görə ağlayır. Oturdum bunların yanında, uşağın birinin də başını sığalladım. Ermənilərə nifrət eləsəm də içimdəki yazıçı ürəyi buna dözmədi. Dedim ki, narahat olmayın, mən bu vaqondayam, sizə heç kim heç nə deyə bilməz, rahat olun.*

*Sonra kupedən çıxıb bələdçi vasitəsilə qatarın sahə müvəkkilini tapdırtdım. Dedim ki, sən nədən ötərisən, niyə qoyursan belə hərəkətlər olur? Dedi ki, mən bir nəfərəm, onlar altı-yeddi nəfər, neyləyim?*

*Həqiqətən bir azdan altı-yeddi gənc bağıra-bağıra bizim vaqona girdilər. Qarşılarını kəsdim, müharibə dövrü tez-tez cəbhə xəttində olduğuma görə mən də silahla gəzirdim. Üzümü bu gələn oğlanlara tutub dedim:*

*- Qatarda əlsiz-ayaqsız ermənini döymək kişilik deyil. Ermənilə döyüşmək və ya vuruşmaq istəyirsinizsə Ağdamda düşərsiz, sizi apararam Fred Asifin hərbi hissəsinə, silah götürüb girərsiz səngərə, nə qədər istəsəniz ermənilərlə vuruşarsız.*

*Əlimi cibimə elə saldım ki, silah da görünsün. Nə isə, məndən ağılları bir şey kəsmədi, qayıdıb getdilər.*

*Qatar Ağdama çatanda erməni qadınlar məni qucaqlamaq istədilər və qarabağlılar kimi dua elədilər:*

*- Ay bala, Həzrət Abbas köməyin olsun.*

*Mən də qayıtdım:*

*- Məni yandıran bilirsiniz nədi? Siz Xankəndində deməyəcəksiniz ki, bir cavan oğlan çıxdı qoymadı ki, kimlərsə bizi döysün. Deyəcəksiniz ki, qatarda bizi döydülər. Siz belə bir murdar millətsiniz.*

# AQİL ABBAS GÖRÜŞDƏ XOCALIDAN DANIŞDI

**Xocalı Soyqırımı ilə əlaqədar Azərbaycan Dövlət İqtisad Universitetində tədbir keçirilmişdir. Bu görüşə yazıçı, millət vəkili Aqil Abbas da dəvət edilmişdir.**



Görüşün iştirakçıları qarşısında çıxış edən A.Abbas özünün Qarabağla, Xocalı hadisələri ilə bağlı xatirələrini danışmış, əsərlərindən nümunələrə istinad edərək həmin illərin ağrı-acısını auditoriyaya çatdırmışdır. Millət vəkili öz çıxışında Xocalı sakinlərinin erməni əsirliyindən azad edilməsində, dəyişdirilməsində Milli Qəhrəmanlar Allahverdi Bağırov və telejurnalist Çingiz Mustafayevin xüsusi xidmətlərini faktlarla qeyd etmişdir.

Görüş sual-cavab müstəvisində davam etdirilmiş və bu da iştirakçıların, müəllim və tələbələrin böyük marağına səbəb olmuşdur. Tədbirin sonunda millət vəkili, yazıçı Aqil Abbas görüşün təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirmişdir.

# Politoloq: "Gürcüstan və Rusiya Ermənistana təzyiqləri artırır"

**”Rusiya Ermənistana təzyiqlərini artırır. Gürcüstan hökuməti isə 100-ə yaxın Ermənistan yük maşınının Rusiyaya keçidinə icazə vermir. Bu addım təkcə texniki gömrük məsələsi deyil, həm də siyasi mesaj xarakteri daşıyır. Rəsmi Tiflis Azərbaycan-Ermənistan normallaşma prosesinin sürətlənməsi fonunda regiondakı tranzit rolunun zəifləməsindən narahatdır”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, əgər Bakı və İrəvan arasında yekun sülh sazişi imzalanarsa, alternativ nəqliyyat marşrutlarının açılması Gürcüstanın strateji tranzit üstünlüyünü azalda bilər:

”Bu baxımdan, həm Rusiya, həm də Gürcüstan müəyyən məqamlarda Ermənistana təzyiq mexanizmlərində ortaq maraq nümayiş etdirə bilər. Seçkilər yaxınlaşdıqca Gürcüstan hakimiyyətinin Ermənistanda daxili narazılığı artıracaq addımlara üstünlük verməsi istisna deyil. Çünki Nikol Paşinyanın hakimiyyətdə qalması Tiflisdəki mövcud siyasi kursla tam uzlaşmır. Bidzina İvanaşvilinin təsiri altında olan ”Gürcü Arzusu” hökuməti Rusiya ilə münasibətləri normallaşdırmağa çalışarkən Qərblə müəyyən konfrontasiya xəttinə daxil olub.

Eyni zamanda, Qərbin Tiflisdəki bəzi təsisatlarını Ermənistana yönəltməsi və buradan Gürcüstan vətəndaş cəmiyyəti ilə işləməsi də rəsmi Tiflisi narahat edən amillər sırasındadır.



Gürcüstanın Rusiya ilə paralel şəkildə Ermənistana təzyiq etməsi regionda dəyişən geosiyasi reallıqlara uyğunlaşma çətinliyindən qaynaqlanır.

Gürcüstan gömrük rəsmiləri Ermənistan daşıyıcılarına Azərbaycan ərazisi üzərindən Rusiyaya çıxışı tövsiyə edirlər. Bunu rişxəndlə desələr də, regionda logistika və siyasi balansın yenidən formalaşdığını göstərir”.

**Vasif ƏLİHÜSEYN**

# "Bu mexanizm qiymətləndirmə prosesidir..."

**”Minimum əməkhaqqı ilə bağlı yeni yanaşma artıq təsdiqini tapdı və bu qərarın arxasında konkret səbəblər dayanır. Son illər beynəlxalq təşkilatların və komissiyaların qiymətləndirmələrində ölkələrin əmək bazarının çevikliyi, sosial müdafiə mexanizmlərinin adekvatlığı və gəlir siyasətinin institusional əsasları xüsusi indikator kimi ölçülür”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.O, bildirib ki, Azərbaycan üzrə reytinq göstəriciləri də məhz bu istiqamətdə siyasətin daha çevik və dövri qiymətləndirmə modelinə keçməsini zəruri edirdi:

”Qanunvericiliyə edilən dəyişiklik minimum əməkhaqqının hər il avtomatik artırılması deyil, ildə azı bir dəfə yenidən qiymətləndirilməsi mexanizmini təsbit edir. Bu



isə o deməkdir ki, qərarlar iqtisadi dinamika, inflyasiya, əmək bazarındakı dəyişikliklər və fiskal imkanlar nəzərə alınmaqla qəbul olunacaq.

Əlqərəz, bu mexanizm qiymətləndirmə prosesidir. Yəni minimum əməkhaqqı artada bilər, artmaya da bilər, lakin mütləq şəkildə yenidən baxılacaq, təhlil olunacaq və qiymətləndiriləcək. Konkret təkliflər təqdim ediləcək, göstəricilər əsasında qərar qəbul olunacaq və yekun məbləğ müəyyən ediləcək. Amma hazırkı şəraitdə böyük ehtimalla ildə ən azı bir dəfə artımın mümkün və real ssenari olduğunu demək olar”.

**Vasif**

# "Əgər danışıqlarla həll məsələsinə ehtimal olsa idi..."

**”Faktiki olaraq prezident Pezeşkiyan tədricən proseslərdən uzaqlaşdırılır, təcrid edilir. İranın siyasi-dini liderinin fars Laricaniyə əsas səlahiyyətləri dövr etməsi rejimin daha etibarlı əldə müdafiə olunmasını hədəfləsə də əslində hakimiyyətdaxili parçalanmanı sürətləndirə bilər. Ölkəyə hərbi müdaxilə zamanı siyasi-dini lider həyatını qorumaq üçün ”qeyb”ə çəkilə bilər ki, həmin ”qeyb” dövründə də dövləti de-fakto**



**Laricani idarə edəcək". Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.**

O, bildirib ki, mövcud ideologiyaya görə bu mümkündür:

”Ola bilsin siyasi - dini lideri gizlədərək ”şəhadətini” elan edib İraq, Livan, Yəmən kimi bölgələrdəki təəssübkeşlərinə psixoloji təsir göstərərək fədai qrupların yaradılmasına da cəhd olunacaq.Hazırda İraqın İran əsilli siyasi - dini liderlərindən olan Sistaninin cihad fətvası verməsi barədə bəyanatı da məhz buna işarədir. Fətva anaonsu müsəlmanların həyatının və ya maraqlarının qorunması ilə bağlı yox, məhz rejimin, həmçinin liderin müdafiəsi naminədir. Türk əsilli prezidentin səlahiyyətlərini məhdudlaşdırıb dövləti farsa dövr etmək əslində bir çox gizlədilən həqiqətləri ortaya çıxaracaq. Demək, artıq İran inanıb ki, müharibə qaçılmazdır. Əgər danışıqlarla həll məsələsinə ehtimal olsa idi Prezidentin bəzi səlahiyyətləri artırıla bilərdi”.

**Ömər**

*Səxavət Məmməd*



# Trampın taktikası: təzyiq və şantaj modeli

***ABŞ ilə İran arasında Cenevrədə baş tutan danışıqlar fonunda hərbi gərginlik səngimək əvəzinə, daha da artmaqdadır. Bu gərginliyin yüksəlməsində İsrailin oynadığı strateji rolu gözardı etmək olmaz. Vaşinqton hər nə qədər prioritetinin Qərb yarımkürəsi olduğunu bəyan etsə də, Yaxın Şərqə əlavə qüvvələr cəmləyir və xüsusilə İranı ram etmək niyyətini gizlətmir. Faktiki olaraq, regionda ABŞ və İsrailin apardığı siyasətə müqavimət göstərən tək güc mərkəzi İran qalmışdı. Bu səbəbdən İrana qarşı kəskin addımların atılması qaçılmaz idi. Hesab edirəm ki, real yanaşma İranın Yaxın Şərqdəki "ayağını kəsmək" və İsrailin qarşısındakı yeganə ciddi maneəni aradan qaldırmaqdan ibarətdir.***

### Trampın taktikası: təzyiq və şantaj modeli

***Donald Tramp həm biznes karyerasında, həm də prezidentlik dövründə eyni davranış modelini nümayiş etdirib: təhdid, təzyiq və şantajlarla "500 faizlik" tələblər qoyur, sonda isə "200 faizlik" nəticə ilə razılaşır. İran istiqamətinə göndərilən ilkin qüvvələr də məhz bu psixoloji təzyiq strategiyasına xidmət edirdi.***

***2026-cı ilin əvvəlindən etibarən ABŞ-ın regiondakı hərbi mövcudluğu ciddi şəkildə artıb. İlk olaraq USS Abraham Lincoln (CVN-72) aviadaşıyıcı zərbə qrupu yanvarın sonundan etibarən Ərəb dənizi və Hörmüz boğazı yaxınlığında fəaliyyətə başladı. O zaman ABŞ-ın İrana dərhal zərbə endirəcəyi ilə bağlı çoxsaylı iddialar səslənsə də, bu qüvvə ilə genişmiqyaslı hücumun qeyri-mümkün olduğunu düşünürdüm. Çünki belə bir addımın fəsadları ABŞ üçün kifayət qədər ağır ola bilərdi.***

### 12 günlük müharibənin dərsləri və İranın gücü

***Bəlkə də 12 günlük İran-İsrail toqquşması olmasaydı, ABŞ elə USS Abraham Lincoln aviadaşıyıcısı ilə zərbələr endirməyə cəhd edərdi. Ona görə cümləni "bəlkə" ilə başladım ki, o da inandırıcı deyil, çünki ABŞ kəşfiyyatının o qədər naşı olduğunu düşünmürəm. Lakin bu toqquşma göstərdi ki, İran ciddiyə alınacaq bir hərbi potensiala sahibdir. 20 ildən artıqdır ki, sırf ballistik raket istehsalı ilə məşğul olan İranın gücü bir çox məsələlərə aydınlıq gətirdi.***

***Kollektiv müdafiə zərurəti: İsrail kimi HHM sistemlərinə güvənən bir ölkə, İranın zərbələrini dəf etmək üçün İordaniya, ABŞ, Böyük Britaniya və Fransanın köməyinə ehtiyac duydu. Bu, İranın raket və dron gücünün bir ölkənin imkanlarını aşdığını sübut etdi.***

***İranın zəif nöqtələri: Digər tərəfdən, toqquşma İranın daxili təhlükəsizliyindəki boşluqları - Mossad və MKİ-nin ölkə daxilindəki fabriklərə qədər uzanan şəbəkəsini üzə çıxardı.***

***Hava boşluğu: İranın müasir döyüş təyyarələrinin və effektiv HHM sistemlərinin çatışmazlığı aşkar oldu; 12 gün ərzində səmada bir dəfə də olsun "it dalaşı" (dogfight) müşahidə edilmədi.***

***Maraqlı fakt: Toqquşmanın ən ağır nəticələrindən biri arsenalın boşalması oldu. ABŞ-ın istifadə etdiyi THAAD anti-ballistik raketlərinin yerini yalnız 2027-ci ildə doldura biləcəyi bildirilir.***

### Yeni qüvvələr və dəyişən balans

***Abraham Lincolnun regiona gəlişindən sonra ABŞ şərtlərini açıqladı. Bu şərtlər arasında uranın zənginləşdirilməsinin, ballistik raketlərin istehsalının dayandırılması, orta və uzaq mənzilli raketlərin silahlandırmadan çıxarılması və İranın tamamilə Yaxın Şərqdən əlini çəkməsi var. İran hazırkı ABŞ-nin qüvvələrini nəzərə alaraq müqavimət göstərə biləcəyinin fərqindədir. Ona görə də, İran da şərtlərə qarşı şərtlər irəli sürür. İran sanksiyaların aradan qaldırılacağı təqdirdə uranın zənginləşdirlməsi məsələsinin müzakirəyə açıq oldğunu bildirir. Ballistik raketlərin müzakirə mövzusu olmayacağını bəyan edir. Düşünürəm ki, İran Yaxın Şərqlə bağlı müəyyən güzəştlərə gedə bilər, hətta deyərdim, buna məcburdur. İranın ballistik raketlərlə bağlı mövqeyi məntiqlidir, realığı özündə ehtiva edir. Əslində bu tələb özü gülməlidir. Necə yəni, sənin raketin olmasın, mənim olsun, istədiyim vaxt gəlib, səni təpə-qapaz edim?***

***Donald Trampın gözləmədiyi bu qətiyyət ABŞ-i daha böyük qüvvələri regiona cəlb etməyə vadar etdi:***

***USS Gerald R. Ford (CVN-78): Dünyanın ən böyük aviadaşıyıcısı bir həftə ərzində regiona çatacaq.***

***USS George H.W. Bush (CVN-77): Bu gəminin də göndərilməsi hazırda gündəmdədir.***

### Nəticə: Müharibə, yoxsa şərtlərin qəbulu?

***ABŞ bu gəmiləri regiona göndərəndən sonra güc balansı xeyli dəyişəcək. Sual yaranır, bu gücdən sonra toqquşma riski artır? Əgər təkcə Abraham Lincolnla ABŞ-nin hücum etməyəcəyini düşünürdümsə, bu gücdən sonra müdaxilə imkanı daha real görünür, toqquşma riskini xeyli artırır. Ancaq İranın ərazisinin böyüklüyü, Rusiyadan alınan S-300, Miq-29, Su-35 və Çindən sifariş edilən J-10 qırıcıları, həmçinin radioelektron mübarizə vasitələri müharibənin qısa sürməyəcəyindən xəbər verir. Uzunmüddətli müharibə isə asanlıqla nəzarətdən çıxa bilər. Bu ssenaridə Rusiyanın "pusquda duraraq" gərginliyi daha da alovlandırmaq üçün əlindən gələni edəcəyi şübhəsizdir.***

***ABŞ-ın İran ətrafındakı manevrləri Azərbaycanın antiterror əməliyyatından əvvəlki və ya Rusiyanın Ukrayna müharibəsindən öncəki qüvvə yığımına bənzəyir: Ya şərtlər qəbul ediləcək, ya da hərbi maşın işə düşəcək.***



Məzahir ƏHMƏDOĞLU

# PREZİDENTLİK İNSTİTUTU İDARƏÇİLİYİNDƏ YENİDƏN QURULAN QARABAĞ İSTİSNASI

**Vaxtilə havadarlarının dəstəyinə söykənən Ermənistanın və artıq tarixin qaranlıq bir zirzəmisinə atılan Dağlıq Qarabağ separatçılarının heç faşistlərin də törətmədiyi ağlagəlməz cinayətləri, əlbəttə, unudulmayacaq. İşğal etdikləri torpaqlarda, şəhərli-kəndli hər yerdə sanki Xirosima bənzəri xarabalıqlar yaratdıqları bəs deyilmiş kimi, mümkün olan bütün ərazilərdə dağıdıcı minalar basdırarkən nə düşünmüşdülər? Əlbəttə, bura onların öz vətənləri, öz torpaqları deyildi axı!**

**Və əfsanəvi Ali Baş Komandanın igid oğullarımızla birlikdə dünya hərbində görülməmiş döyüş taktikası ilə onillərin fəlakətli acısını 44 günlük müharibədə Böyük Qələbə sevincinə daşıyan vaxtdan, doğma Qarabağımız dövlətimizin və xalqımızın qüdrəti ilə yenidən qurulmaqdadır. Sözsüz ki, olduqca çətin və şərəfli bir mərhələdəyik. Uzun müddət sanki iş yerini-administrasiyanı Qarabağa köçürən cənab Prezident burada görülən bütün işləri gündəlik nəzarətdə saxlamaqla yanaşı, bütün dünyaya və düşmənçilik edən qonşu Ermənistana da nə qədər haqlı olduğumuzu sübut etməkdədir.**

**... Böyük bir ərazidə yeni şəhərlər, kəndlər, qəsəbələr salmaq, məktəblər, xəstəxana və digər zəruri sosial şəbəkələr qurmaqla həm də torpaqları təmizləyib kənd təsərrüfatını dirçəltmək, beləliklə 30 ildən çox yurd-yuvalarından didərgin düşmüş insanların həsrətinə son qoymaq dahiyanə bir münasibət tələb edir.**

**Görülən işlər çoxalıb artdıqca yeni idarəetmə metodları da yaranmağa başladı. Əlbəttə, tam hazır şəkilə düşməyən, əhalisi tam yerləşdirilməyən Qarabağ rayonlarının indiki halda yeni idarəetmə sisteminin qurulmasını zəruriləşdirdi. Cənab Prezidentin yerlərdə xüsusi nümayəndəsi vəzifələrinin təsis və təyin edilməsi məhz bu zərurətlərdən irəli gəldi. Yuxarıdakı fikrimi təkrar edirəm: Belə bir idarəçilik metodu hələlik yenidən qurulan Qarabağımız üçün olduqca vacib məsələdir.**

**Təəssüf ki,bəzi ekspertlər, alimlər, həvəskar siyasətçilər, hətta bəzi deputatlar belə mənşəyi bilinməyən səbəblər üzərindən hərdən belə məsləhətlər verirlər ki, qoy elə hər yerdə 2-3 və ya 3-4 rayonu birləşdirib xüsusi nümayəndəliklər yaradılsın. Yəni rayon icra hakimiyyətləri ləğv edilsin. Veteran bir jurnalist olaraq mənim də təmsil etdiyim media vasitələri həmin absurd fikirləri şərh verməkdən dərc edir, çaşqınlıq yaradırlar. Ona görə absurd adlandırıram ki, Azərbaycan Respublikasının Prezident institutu qanunlarına uyğun idarəolunmasını həmin alimlər yaxşı bilirlər. Bu idarəçiliyin müəyyən bir Qarabağ istisnası yaranıb. Özü də müəyyən bir dövr üçün. Bəs onda mövcud rayon icra hakimiyyətlərinin də ləğv edilib xüsusi nümayəndəliklər yaradılması "həvəsi" hansı zərurətdəndir. Bunu şərh edən, göstərən yoxdur. Təbii ki, illərlə düşmənlə üz-üzə qalan, bu düşmənə havadarlıq edən bir sıra beynəlxalq qurumlar və ölkələrlə həqiqət və reallıq mübarizəsi aparan müstəqil respublikanın möhkəmlənib formalaşması yollarında nöqsan və çatışmazlıqlar da olub, hətta cinayətlər də. Yoxsa bəzi rayon icra hakimiyyətləri başçılarının, nazir və komitə sədrlərinin, və digər məmurların həbs edilməsi, vəzifədən götürülməsi, ciddi cəzalar verilməsi yaradır bizdəki bu qeyri-müəyyən yanaşmaları? Bəs onda Vətəninə, xalqına,ali rəhbərliyə sədaqətlə xidmət göstərən məmurlar hansı məntiqlə üz-üzə qalsınlar. Əgər söhbət rayon icra hakimiyyəti başçılarının bəzi yanlış hərəkətləri üzərində qurulursa, yuxarıda da qeyd etdiyim kimi cənab Prezident onların heç birinə güzəşt etmir, cəzalandırır. Hamı da bilir ki, belələri az olub və artıq hər bir məmurun fəaliyyəti mümkün şəffaflıqla izlənilir. Söhbət bu yerə çatınca bir məsələni də xüsusi vurğulamaq lazım gəlir. Ölkədə nə qədər qabaqcıl, camaatın rəğbətini qazanmış icra başçıları var. Düzgün olmayan yanaşmalarla biz onların da heysiyyatına toxunmuruqmu? Ucdantutma hamını eyni rakursda fokuslandırmaq özünü daha savadlı və təcrübəli göstərmək kimi deyilmi? Fəaliyyətlərini diqqətlə izlədiyim nümunəvi icra başçılarından bəzilərinin adlarını da göstərə bilərəm. Elxan Usubov (Şəki), Mübariz Əhmədzadə (Zaqatala), Taleh Qaraşov (Lənkəran), Rafil Hüseynov (Ağcabədi), Niyazi Bayramov (Gəncə), Natiq Ağayev (Balakən), Adil Məmmədov (Qobustan), Novruz Nəcəfov (Siyəzən), Tahir Budaqov (Nəsimi - təkrar), Abdin Fərzəliyev (Abşeron), gənclərdən Orxan Mürsəlov (Göyçay) və başqaları fəaliyyətlərini ali rəhbərliyin tələb və istəkləri səviyyəsində qurmaqla uğurlar qazanmağa davam edirlər. İnzibati əraziyə rəhbərlik etmək, idarə etmək, onu bütün istiqamətlər üzrə irəliyə aparmaq heç də nə sovet, nə də qərb üsulu deyildir. Bu, müxtəlif forma və metodlarla xalqa, Vətənə, ümumilikdə bəşəriyyətə xidmətin sistemləşdirilmiş qaydasıdır.**

**Ayrıca olaraq respublikamızı düşünürüksə əgər, burada mütləq olaraq yeni və müstəqil Azərbaycanın bəzi özəlliklərinə də xüsusi diqqətlə yanaşmaq lazımdır. İndiki halda, fikrimcə nəinki icra hakimiyyətlərinin fəaliyyət, nəzarət arealını daraltmaq, əksində daha da genişləndirmək lazımdır. Necə olur ki rayonda nə baş verirsə ilk olaraq məhz başçı cavab verməli olur, respublika rəhbərliyi tərəfindən bütün məsələlər başçıdan soruşulur. Yoxsa ki, hansısa rayon rəhbəri ona göstərilən etimadı doğrultmayıb cəzalandırılırsa, biz digərlərinə də, nümunəvi rəhbərlərə də eyni baxışdanmı yanaşmalıyıq? Hansı haqla? İdarəetmədə mühüm məsələlərdən biri də müxtəlif sahələrin regionallaşdırılmasıdır. Əgər bu yer inzibati ərazidirsə, respublika tabeçiliyində yaşayan, fəaliyyət göstərən rayondursa, onun rəhbərliyi, öz hüquq mühafizə və digər vacib strukturları kimi, öz təhsil şöbəsi, mədəniyyət mərkəzi, səhiyyə sistemi, ekologiya və digər qurumları da yerində olmalıdır. Bütün bunları eləcə anatomik şəkildə, tutarlı misallarla sübut da etmək mümkündür. Ancaq konkret məqsəd bu deyil. Məqsəd odur ki, icra hakimiyyətlərinin fəaliyyət genişliyini daha da daraltmağı təklif edənlər , bütün bunların idarəetmədə nə qədər zərərli təmayül olduğunu da bir düşünsünlər. Nəinsə ləğvi müsbət mənada da ola bilər. Ancaq sonrakı nəticələr də nəzərə alınmalıdır.**

**...Bir də gördün kimsə durub əsaslandırır ki, ölkədə sürücülər daha yol hərəkəti qaydalarına bütünlüklə düzgün əməl edir, pozuntular minumuma enərək sıfıra yaxınlaşır. Belədə Dövlət Yol Polisi qurumunu ləğv etməliyikmi? Bu adi bir misal müəyyən tərəddüdlər yaratsa da oxşar düşüncələrə görə xatırlandı.**

**Nəticəni təsəvvür edirsinizmi? Həm də məlumdur ki, hər cür müqayisənin qüsuru da olur.**

**Prezident institutu idarəçiliyində cavabdehliyin yayğınlığı deyil, bütün məsələlərin düzgün həlli və konkret cavabdehliyi nəzərdə tutulur. Gəlin ölkə rəhbərliyinə aid olan xüsusi məsələlərə diletant səviyyəsində yanaşmayaq.**

# "Travma, iqtisadi çöküş, mədəni qopma nəsil kapitalını zəiflədə bilər"

**"Bəzən elə ailələr var ki, tarixləri 150-200 ili keçir. Məni onların şəcərəsi yox, davranışı maraqlandırır. Müşahidə edirəm ki, belə nəsillərdə qəribə bir "nəsillərarası hesabatlılıq" hissi var. Sanki insan tək özünü yox, arxasında dayanan bütün bir soy yaddaşını təmsil etdiyini bilir. Bu isə davranışda görünür, kübarlıq, səbr, ölçülülük, başqasına hörmət, özünə dəyər, emosional sabitlik. Hətta üz cizgilərində sanki bu bir möhür kimi yazılır".**



Adalet.az xəbər verir ki, bunu "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib.

Onun sözlərinə görə, bu, təsadüfi deyil:

"Sosioloq Pierre Bourdieu bunu "habitus" adlandırırdı - ailə daxilində formalaşan və şüuraltı şəkildə ötürülən davranış kodları. Yəni insan etiketi öyrənmir, onu yaşayır. Oturuşu, danışığı, məsafə qoruması, reaksiya vermə tempi, hamısı nəsillər boyu cilalanmış mədəni kapitalın nəticəsidir. Belə ailələrdə "ad qoruma" anlayışı var. Bu qorxu yox, daxili etik məsuliyyətdir. İnsan özünü sübut etməyə çalışmır, çünki daxili təhlükəsizlik hissi sabitdir. Bu da ətrafdakılara "aura" kimi ötürülür. Sovet dövründə bir çox köklü ailələr statuslarını gizlədirdi, amma davranış kodlarını yox. Peşə dəyişə bilərdi, amma hörmət dili, münasibət mədəniyyəti, ailədaxili nizam qorunurdu. Ona görə bəzən eyni sosial səviyyədə olan, lakin tərəflərin biri fərqli sosial daşıyıcı olan iki ailə arasında görünməz bir fərq hiss edilirdi. Əlbəttə, sapmalar olur. Travma, iqtisadi çöküş, mədəni qopma nəsil kapitalını zəiflədə bilər. Amma qorunan ailələrdə bir şey dəyişmir, daxili şərəf kodeksi. Bəlkə də məsələ genetik deyil. Məsələ, nəsillərarası ötürülən mədəni yaddaşdır. Bu yaddaş insanın davranışında səssiz, amma güclü şəkildə danışır".

**Vasif ƏLİHÜSEYN**

# İlahiyyatçı: "İslamda şər, böhtan, yalan, iftira orucu kökündən batil edir..."

**"Qeybət etmək Quranda ölmüş qardaşının ətini yemək kimi qeyd olunur: "Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir." Hucurat surəsi, 12 - ci ayə".**



Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

"Oman ölkəsində rəsmi məzhəb olan İbadiyyə fiqhinin ən fərqli cəhətlərindən biri budur ki, yalan danışmaq, qeybət etmək və söyüş söymək kimi böyük günahlar da orucu batil edən amillər hesab olunur. Onların fikrincə, oruc yalnız mədəni deyil, həm də dili və əxlaqı qorumaqdır. Yuxarıda qeyd edilən ayəyə görə qeybət edən şəxs ölmüş qardaşının ətini yemiş sayılır. Ölü əti yeyənin orucu qalarmı? Təəssüf ki, oruc tutanlar arasında dilini qoruyan adam çox az görürük.İmam Əli ona görə buyurur: çox namaz qılanlar var ki, onlara yalnız əziyyətləri, çox oruc tutanlar da var ki, onlara yalnız aclıqları qalar. Odur ki, çalışmaq lazımdır, mədə ilə yanaşı dili, qəlbi, gözü, ruhu da qoruyasan.Əvvəlki peyğəmbərlərin dövründə oruc tutarkən yemək - içməklə yanaşı danışmaq da orucu pozan əməllərdən sayılırdı. Quranda Həzrət Zəkəriyyənin orucundan bəhs olunarkən bu fakt zikr edilir. İslamda isə danışmaq orucu pozmasa da şər, böhtan, yalan, iftira danışmaq, qiybət etmək, söyüş söymək heç şübhəsiz ki, orucu kökündən batil edir. Amma təəssüf ki, indiyəcən orucu pozan əməllərdən bəhs edərkən yalnız maddi məsələlər qeyd olunub, mənəvi, əxlaqi tərəfləri gizlədilib", - deyə o bildirib.

**Eldar**

# Avropa İttifaqı sayca 20-ci sanksiyalar paketini qəbul edə bilmir



**Avropa İttifaqı Rusitaya qarşı tətbiq ediləcək qadağalarla bağlı, fevralın 24-nə planlaşdırdığı 20-ci paketi qəbul edə bilmir. Yunanıstan, İspaniya, İtaliya və Malta siyahıda nəzərdə tutulan bəzi bəndlərin dəyişdirilməsini tələb edirlər. Macarıstan isə ümumiyyətlə sanksiyalar paketinin qəbul edilməsinin əleyhinə səs verib.**

Ekspertlərin fikirincə, paketin əleyhinə olanlar bəzi maddələrin özlərinin xeyrinə uyğun dəyişdirilməsinə ümid edirlər. Bütün problemlərə baxmayaraq güman edilir ki, antirusiya sanksiyalar paketi qəbul ediləcək.

Aİ-nin xarici siyasət üzrə komissarı Kallas bəyan ddib ki, Rusiyanın diplomatik missiyalarında işçilərin sayı 40 nəfərdən artıq olmamalıdır. Bundan başqa, Ukraynaya qarşı döyüşən hərbiçilərin Avropaya girişinə qadağa qoyulmasıda planlaşdırılır.

Sanksiyalar paketində bir sıra bəndlərin çıxarılması da gözlənilir.

**Rüstəm HACIYEV**

# "Rusiya Ermənistanda seçkilər günü hərbi müdaxilə edə bilər"

**"Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca Rusiya Gümrüdəki 102-ci bazasında aktivliyi artırır. Xüsusilə, bu hərbi hissə bir növ Ermənistan müxalifətinin "Seçki Qərargahı" funksiyasını həyata keçirir. Təbii ki, erməni müxalif siyasətçilər hərbi hissəyə getməsə də, Rusiya erməni müxalifətini buradan idarə edir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun fikrincə Ermənistanda seçkilərə az qalmış Gümrüdə 102-ci baza təlim adı ilə sahəyə çıxması istisna deyil:

"Nikol Paşinyanın da daha çox çəkindiyi məhz Rusiyanın 102-ci bazasının silahlı təxribatlara getməsidir. Rusiya seçkilər günü silahlı instdentlər törədir və 102-ci baza Yerevanda "rus vətəndaşlarını" qorumaq üçün hərəkətə keçir.

Nəticədə N.Paşinyanı devirib, Samvel Karapetyanın partiyasını iqtidara gətirmək planı mümkün ssenaridədir. Ermənistan müxalifəti Rusiyanın dəstəyi ilə silahlı insidentlər həyata keçirməsi gözlənilir. Rusiya Ermənistanda baş verən siyasi prosesləri öz geosiyasi mövqelərinə təhdid hesab edir".

**Vasif**

## Politoloq: "Bu nəqliyyat layihəsi yenidən müzakirə predmetidir"




**"İran ətrafında vəziyyət gərgin olaraq qalarkən, ABŞ və İsrail öz aralarında məsləhətləşmələri davam etdirirlər. Bu arada, Hindistanın baş naziri Narendra Modinin İsrailə səfərə gedəcəyi xəbəri yayılıb. Hindistanın İranla əməkdaşlıq münasibətləri var. 2024-cü ildə Hindistan ilə İran arasında Çabahar limanının icarəyə verilməsi haqqında sənəd imzalanıb. Çabahar limanı İranın Hind Okeanına çıxışı olan yeganə böyük limanıdır. Hindistan limanı idarəçiliyə götürməklə Orta Asiya və Əfqanıstan ilə ticarət əlaqələri qurmaq istəyirdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, bu liman Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizində də aparıcı rol oynamalıydı:

"Rusiyadan göndərilən yüklərin Azərbaycan və İran ərazisindən tranzit olaraq Çabahar limanına oradan isə Hindistanın Mumbai limanına çatdırılması planlaşdırılırdı. Əks istiqamətə də yüklər İran və Azərbaycan ərazisindən keçərək Rusiyaya çatdıracaqdı. Ancaq İrandakı gərgin vəziyyət və bölgədə müharibə ehtimalı qonşu ölkənin bir sıra layihələrini reallaşmasını sual altında qoyub.Hindistanın İranla yanaşı İsraillə də sıx tərəfdaşlıq münasibətləri mövcuddur. Narendra Modinin İsrailə səfərə hazırlaşması bunun sübutudur.

Bu Modinin İsrailə ikinci səfəri olacaq. Modi birinci səfərində İsraillə yanaşı Fələstin muxtariyyətinin lideri Mahmud Abbasla da görüşmüşdü. İsraillə Hindistan arasında hərbi və hərbi-texniki əməkdaşlıq üst səviyyədədir. İsrailin Hindistandakı səfiri Reuven Azar bildirib ki, Hindistanla İsrail azad ticarət sazişinə doğru irəliləyirlər və sənəd bu ilin sonuna qədər hazır olacaq. İsrail diplomatı bildirib ki, Narendra Modinin səfəri zamanı Hindistan və İsrail təhlükəsizlik sazişlərini yeniləməklə müdafiə tərəfdaşlıqlarını dərinləşdirəcəklər".

Politoloqun sözlərinə görə, Hindistan Qəzzayla bağlı sülh planını dəstəkləsə də, ABŞ Prezidenti Donald Trampın irəli sürdüyü Sülh Şurasına qoşulmayıb:

"Narendra Modi Sülh Şurasının Vaşinqtondakı iclasında iştirak etməyib. İsrailin baş naziri Benyamin Netanyahu Narendra Modinin ölkəsinə səfərinə xüsusi əhəmiyyəti verir. Netanyahu ABŞ-ın yəhudi təşkilatlarının liderlərinin konfransında çıxış edərkən deyib ki, İsrail əhalisinin sayına görə dünyanın birinci ölkəsi olan Hindistanla ittifaq formalaşdırıb. Modi Netahyahu ilə görüşdən sonra İsrail parlamentində çıxış edəcək.

Narendra Modi İsrailin Həmas qruplaşmasına qarşı mübarizəsini dəstəkləsə də, problemlərin həllinin bölgədə iki dövlətin varlığından keçdiyi qənaətindədir.Nadenda Modinin İsrailə səfər zamanı bölgədə gərginlik səbəbindən dondurulan Hindistan - Yaxın Şərq - Avropa nəqliyyat dəhlizinin müzakirə ediləcəyi proqnozlaşdırılır. İsrail bu dəhlizin tərkib hissisəsi olmaq istəyir.

Layihəni dəstəkləyən əsas dövlətlərdən biri məhz ABŞ olub. Vaşinqtonun dəstəklədiyi Cənub dəhlizi layihəsi Qəzzada baş verən hadisələrdən sonra arxa plana keçmişdi. Sözügedən layihə Hind-Sakit okean regionunu Yaxın Şərqdən Avropaya birləşdirəcəkdi.

Hazırda Qəzzada sabitlik bərpa olunduğuna görə, Hindistan-Yaxın Şərq-Avropa dəhlizi ideyası yenidən aktuallaşa bilər və Modinin İsrailə səfərinə bu aspektdən də yanaşmaq olar".

**Vasif**

## "Telegram"ın təsisçisi terrorizmə kömək etməkdə şübhəli bilinir

**"Telegram" messencerinin qurucusu Pavel Durovun fəaliyyəti terrorizmə mümkün yardımla bağlı cinayət istintaqının mövzusuna çevrilib.**

Adalet.az xəbər Bu barədə "Rossiyskaya qazeta" Rusiya Federal Təhlükəsizlik Xidmətinin materiallarına istinadən məlumat yayıb .

Nəşrin məlumatına görə, 2022-ci ildən bəri ölkədə "Telegram" ilə bağlı 153 mindən çox cinayət qeydə alınıb. Bunlardan təxminən 33 min hadisə təxribat, terrorizm və ekstremizmlə bağlı olub.

Söhbət partlayışların təşkilindən, hərbi komissarlıqların yandırılmasından və qətllərdən gedir.

FTX iddia edir ki, 2024-cü ilin mart ayında Krokus Şəhər Zalında baş verən terror aktı ilə bağlı hərəkətlər messencer vasitəsilə əlaqələndirilib.

# Natiq Məmmədli: "WUF13-lə bağlı informasiya vakuumunun yaranmasının qarşısını almalıyıq"

**"Ölkəmizdə keçirilən beynəlxalq səviyyəli tədbirlərin yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasında medianın rolu əvəzsizdir. COP29 Azərbaycan üçün böyük sınaq idi. Ölkəmiz həmin sınaqdan çox böyük nailiyyətlər əldə edərək çıxdı. Azərbaycan mediası COP29 ərəfəsində elə bir zəngin təcrübə əldə etdi ki, buna istinad edərək bütün beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsində mətbuatımızın mühüm rol oynayacağını əminliklə deyə bilərik".**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Kommunikasiya komandası tərəfindən media nümayəndələri üçün keçirilən ilk təlim sessiyasında səsləndirib.

Azərbaycan mediasının növbəti xoşniyyətli sınaq ərəfəsində olduğunu qeyd edən Natiq Məmmədli fikirlərinə belə davam edib:

"Burada əsas məqam iki missiyanın peşəkar yerinə yetirilməsidir.

Bunlardan birincisi, doğru-düzgün, balanslı, jurnalistika standartlarına uyğun xəbərlərin kontentinin hazırlanmasıdır. Bu, yalnız Azərbaycanın daxili auditoriyası üçün deyil, beynəlxalq auditoriya üçün də vacib və gərəkli amildir. Materialları hazırlayarkən jurnalistikanın peşəkar standartlarına istinad etməliyik. Ola bilər, həmin standartlar hansı maraqlarla üst-üstə düşməsin. Lakin biz jurnalistikanın peşəkarlıq prinsiplərini güzəştə getsək, bu, artıq medianın nüfuzunu zədələyəcək, ona inamı azaldacaq. Mediaya inamın olması çox vacibdir. Bu baxımdan peşə standartlarına uyğun materiallar təqdim edilməsi önəmlidir. Söhbət xəbər və rəy bölümlərinin birbirindən fərqləndirilməsindən gedir. İstənilən şəxs materialla tanış olduqda bilməlidir ki, fakt haradadır, onun sərhədləri şərh nə zamandan başlayır. Buna şəhərsalma mövzusunda hazırlanan materiallarda da diqqət yetirilsin. Digər lazımi məqam isə tədbirlərin jurnalistlərin peşəkar səviyyədə işıqlandırması ilə bağlıdır ki, bu da ekspertlərdən asılıdır. Biz istərdik, cəmiyyətimiz bilsin ki, şəhərsalma fenomeni ilə bağlı danışmaq yalnız medianın intellektual səviyyəsindən asılı deyil. Bu, bizim birgə kommunikativ fəallığımızdan asılı olacaq".



Natiq Məmmədli onu da bildirib ki, dezinformasiya hücumlarına, Azərbaycanın informasiya mühitinin çirkləndirilməsi cəhdlərinin artmasına hazır olmalıyıq.

"Biz iki təhlükəyə hazır olmalıyıq. Bu, Azərbaycanın mütəmadi olaraq dezinformasiya hədəfinə çevrilməsidir. Sistemli şəkildə ölkəmizin informasiya mühitini çirkləndirmək üçün müxtəlif vasitələrdən istifadə olunur. Etik prinsiplərə demək olar ki, əməl edilmir.

Mediadan və sosial şəbəkələrdən informasiya mühitinin çirkləndirilməsi vasitəsi kimi istifadə edilməsi insanlarda ikrah hissi yaradır. Bu vaxtadək keçirilən bütün beynəlxalq tədbirlərdə Azərbaycan haqsız formada dezinformasiya hücumlarına məruz qalıb. Bütün bunlara qarşı Azərbaycan mediası həmrəyliyini göstərib, peşəkar funksiyasını yerinə yetirərək cavab verib.

Çox güman ki, şəhərsalma kimi qlobal məsələnin Azərbaycanda müzakirə olunması ölkəmizə marağı artıracaq.

Həmin maraq heç də hər zaman müsbət kontekstdə olmur. Biz dezinformasiya təhdidlərinə cavab vermək üçün peşəkar sayıqlımığızı artırmalıyıq.

Digər tərəfdən informasiya vakuumunun yaranmasının qarşısını almalıyıq. Dünya Şəhərsalma Forumunun 13-cü sessiyası ilə bağlı nə informasiya lazımdırsa, onu Azərbaycan mediası peşəkar səviyyədə təqdim etməlidir. Əgər informasiya vakuumu yaranarsa, onun yerini ilk növbədə dezinformasiya və qeyri peşəkar yanaşmalar tutacaq", - deyə icraçı direktorun müavini vurğulayıb.

# İqtisadçı: «Daşlaşmış vərdişlərdən xilas modeli, bunu belə adlandırmaq olar»

**"Hesablama Palatasının Azərbaycanda dövlət sektorunda yuxarıdan aşağı planlaşdırma modelinə keçidin zəruri olduğunu açıqladığı bildirilir.Suallar var ki, bu model nədir?".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, nəzərdə tutulan model ənənəvi sifariş əsaslı büdcə yanaşmasından fərqli olaraq xərclərin sadəcə bölgüsünə deyil, strateji məqsədlərə və nəticə göstəricilərinə əsaslanır:

"Bu yanaşma dövlət qurumlarından sadəcə xərclərin icrasını tələb etmir, o həm də nəticələrin planlaşdırılmasını və ölçülməsini tələb edir.

Ənənəvi modeldə isə dövlət qurumları adətən əvvəlki ilin xərclərini əsas götürərək növbəti il üçün büdcə təkliflərini formalaşdırırlar. Yeni yanaşmada isə prioritetlər əvvəlcədən müəyyən edilir və resurs bölgüsü həmin məqsədlərə uyğun aparılır".

İqtisadçının sözlərinə görə, nəzəri cəhətdən də yeni modelin mahiyyəti fərqlidir:

"Burada məsələ ondan ibarətdir ki, dövlətin prioritetləri və strateji məqsədləri əvvəlcə mərkəzi qaydada müəyyən olunmalıdır. Sonra isə bu prioritet və məqsədlərə çatmaq üçün lazım olan büdcə müzakirə olunur. Nə qədər vəsaitin ayrılması hesabına bu məqsədlərə çatmaq olar? Bu suallara cavab tapandan sonra artıq resurs bölgüsü aparılır.



Amma bir məsələ var ki, bu yeni modelə keçid o qədər də asan deyil. Burada ən böyük problemlərdən biri illərlə formalaşmış və daşlaşmış idarəetmə vərdişləridir. Çünki, uzunmüddətli oxşar davranışlar sərgiləyəndə bu artıq vərdişə çevrilir. Buna görə də bu tip xərclərin icrasına fokuslananda artıq effektiv idarəetmə prosesi ilə bağlı müəyyən suallar yaranır, risklər artır.

Eyni zamanda ənənəvi modelin dəyişməsi zamanı daşlaşmış vərdişlərdən sonra strateji planlaşdırma bacarıqlarının məhdudluğu da çətinlikləri yaradır. Çünki nəticə əsaslı modeldə bacarıq indikatorları doğru müəyyən edilməlidir. Bir çox qurumda isə bilavasitə nəticə indikatorlarının qurulma metodologiyası zəif inkişaf etdiyindən bu bir qədər çətin görünür. Yeni modelin tətbiqini çətinləşdirən əsas amillərdə biri də keyfiyyətli məlumat bazasının yetərsizliyidir. Adətən, belə modelin formalaşması üçün məlumat bazası keyfiyyətli, analitik alətlər və ümumi informasiya sistemi mükəmməl olmalıdır ki, bu uğurla tətbiq olunsun".

E.Əmirov deyib ki, digər bir riskli məqam isə koordinasiya çətinlikləri ilə bağlı ola bilər: "Ona görə ki, məsələn, bir qurum bu modelə uyğun öz strateji hədəfini məqsədlərə uyğun formalaşdıra bilirsə də, onun digər qurumlarla qarşılıqlı fəaliyyəti mütləqdir. Deməli, bu zaman digər qurumlar da adekvat olaraq buna peşəkar məlumatlar təqdim etməlidir. Yəni proses institusional səviyyədə koordinasiya şəraitində keçməlidir. İnstitusional koordinasiya zəif olduqda bu modelin effektivliyi azala bilir.

Amma bütün hallarda yeni yanaşmanın tətbiqi və uğurlu icrası asan olmasa da, bu dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə ciddi təsir göstərə bilər. Beynəlxalq təsisatlarının, o cümlədən Dünya Bankının araşdırmalarında bununla bağlı real təsdiqlər var. İlk növbədə bu zaman resursların prioritet istiqamətlərə yönəldilməsi ilə bu səmərəlilik öz təsirini göstərər. Bundan başqa, effekt verməyən proqramlar var ki, onların identifikasiyası mümkün olar. Həm də düşünürəm ki, yeni model hesabatlılığı və şəffaflığı da ciddi artırar. Əlqərəz, sözügedən model düzgün və koordinasiyalı şəkildə tətbiq olunarsa, bu büdcə idarəçiliyinin və ümumilikdə dövlət sektorunda real nəticələrin əldə edilməsinə mühüm töhfə verə bilər".

**Vasif ƏLİHÜSEYN**



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# Xalqı çörəklə sınağa çəkənlər...

**Heç bir qida olmasa, ancaq çörək olsa, insanlar acından ölməz! 1941-1945-ci il Böyük Vətən müharibəsində milyonlarla insan acından ölüb. Bunu kim bilməsə də yaşı 80-dən yuxarı olan insanlar çox yaxşı bilirlər.**

**Rəhmətlik Telli nənəm deyərdi ki, müharibə dövründə Bəhmənlidə bir kisə unu onluq qızıla satırdılar. Un ala bilməyənlər jımıx (heyvana verilən yem) yeyirdi. Həmin dövrdə də kəndimizdə nə qədər adam rəhmətə gedib. Və bu gün də müharibə gedən ölkələrdə - Ukraynada, Fələstində, Afirkada bir çox insanlar acından dünyalarını dəyişiblər. Bəzən yarım çörək bir neçə insanı ölümdən xilas edib. Ölkəmizdə də çörək və çörək məmulatları bahalaşmaqda davam edir. Bunun da obyektiv və subyektiv səbəbləri var. Bunlar başadüşüləndir. Amma onu başa düşmək olmur ki, bir çox çörək istehsalçıları mövcud vəziyyətdən sui-istifadə edirlər. Yəni heç bir səbəb olmadan qiyməti artırırlar.**

**Bir müddət əvvəl mediada bir yazı oxuduq. Çörək istehsalçılarından biri bildirirdi ki, pensiyalar artırılıb. Biz də çörəyin qiymətini qaldıracağıq. Məgər, hamı pensiya alır? Pensiya da əksəriyyət insanda 30-40 manat arasında artıb. Onsuz da bir neçə ay bundan əvvəl əksər məhsulların qiyməti qalxıb və o cümlədən çörəyin. Sumqayıt şəhərində istehsal olunan 700 qramlıq kömbə çörəyin qiyməti bir neçə ay bundan əvvəl 1 manat 5 qəpikdən 1 manat 10 qəpiyə qaldırılıb. Və biz də qara çovdar çörəyindən hər gün ikisini alırıq! Bu gün - yəni fevralın 21-də ”Ballı” marketdən həmin çörəkdən aldıq.**

**Məlum oldu ki, bu çörəyin qiyməti nə az, nə çox, düz 15 qəpik bahalaşıb. Başqa sözlə demiş olsaq, bu çörəyin biri indi 1 manat 25 qəpiyə satılır!. Xeyir ola? Birdən-birə 15 qəpik də artım olar! Hər şey bahalaşa, insanlar buna bir qədər də narazı olmazlar. Amma çörək bahalaşanda əhali çox narahat olur. Ən azından elə ailə var ki, gündə 4-5 və daha artıq çorək alır. Bu, həmin kasıb ailələrin büdcəsinə pis təsir edir. Artıq bir manata çörək düşmür.**

**Amma bəyənmədiyimiz sovet hökumətinin vaxtında bir manata üç çörək düşürdü. O günü dilənçiyə 50 qəpik verdim götürmədi. Dedi ki, 50 qəpiyə çörək düşmür. Heç olmasa, bir manat çörəkpulu ver. Və mən də onun qəlbin sındırmayıb bir manat verdim. İndi, hörmətli çörək istehsalçıları, bu xalqı çörəklə sınağa çəkməyin və insanların qəlbini sındırmayın. Camaatın qarğışı yox, alqışın qazanın. Bu, kömbə çörək istehsal edən Sumqayıt Çörək Zavoduna da aiddir. Və insanları çörəklə sınağa çəkmək olmaz. Ona görə ki, belə hərəkət Allaha da xoş getmir!!!**

## *Obyektlərə yoxlamaya gələnlər kimlərdir?*

**Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin adından qanunsuz yoxlamalarla bağlı əhaliyə müraciət edib.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, son dövrlərdə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin adından qanunsuz istifadə olunması halları qeydə alınır: ”Belə ki, Mərkəzin adından çıxış edən bəzi şəxslər Bakı şəhərinin müxtəlif rayonlarında, eləcə də respublikanın digər bölgələrində fəaliyyət göstərən obyektlərə yaxınlaşaraq sanitar-epidemioloji vəziyyətin guya qənaətbəxş olmadığı barədə əsassız iddialar irəli sürür, dezinfeksiya, dezinseksiya, deratizasiya və digər xidmətlərin həyata keçirilməsinin zəruri olduğunu bildirir, əks təqdirdə inzibati məsuliyyət tədbirlərinin görüləcəyi ilə bağlı xəbərdarlıq edirlər. Bununla əlaqədar olaraq bildiririk ki, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən dövlət sanitariya-epidemioloji nəzarəti çərçivəsində yoxlamalar yalnız qanunla müəyyən edilmiş qaydada həyata keçirilir. Bu zaman vəzifəli şəxslər mütləq qaydada öz xidməti vəsiqələrini təqdim etməli, həmçinin sahibkarlıq subyektlərinə münasibətdə yoxlamanın aparılması barədə qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması haqqında çıxarışı təqdim etməlidirlər. Rəsmi yoxlamalar yalnız Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin səlahiyyətli əməkdaşları tərəfindən və müvafiq hüquqi əsaslar mövcud olduqda aparılır. Mərkəzin adından istifadə etməklə hər hansı kommersiya xidmətlərinin təklif edilməsi və ya hədə-qorxu yolu ilə ödəniş tələb olunması qanunsuzdur. Vətəndaşlardan və sahibkarlıq subyektlərindən belə hallarla qarşılaşdıqda dərhal aidiyyəti üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin 9103 qaynar xətti, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (012) 421-13-93 nömrəsi və ya Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin 102 xidməti vasitəsilə məlumat vermələri xahiş olunur. Səhiyyə Nazirliyi bir daha vətəndaşları diqqətli olmağa, bu kimi hallara qarşı həssas yanaşmağa və yalnız rəsmi dövlət qurumlarının təqdim etdiyi məlumatlara etibar etməyə çağırır”.

## *Kadr dəyişikliyi islahat deyil, cənablar!*



**Hər hansı bir nazir , hər hansı bir komitə sədri, hər hansı bir icra başçısı vəzifəyə təyin olunanda kadrları dəyişdirir.Yəni köhnə əməkdaşı çıxarıb yenisi ilə əvəzləyir.**

Bunalar hamısı normaldır. Normal olmayan odur ki, kadr dəyişikliyinə islahat deyilir.Hələ çoxları bilmir ki, islahat nə deməkdir! Kadr dəyişikliyi islahat deyil, cənablar! İslahat odur ki, sistemi , idarəetməni dəyişirsə, mövcud rüşvət mənbələrini, bürokratiyanı, süründürməçimiyi aradan qaldırırsan və haqq- ədaləti bərpa edirsən. Vəzifəyə də elə adamlar təyin edirsən ki, insanlar ondan razı qalır. Amma bizdə biri gedib, bir biri gəlir və öz yaxın adamlarını vəzifəyə təyin edir, heç nə dəyişmir.

Riyazi dildə demiş olsaq, toplananların yerinə dəyişəndə cəm dəyişmir.Eyni zamanda təzə gələn vəzifəli şəxs camaata bir divan tutur ki, dədəsinin toyu yadına düşür.Daha doğrusu, yeni vəzifəyə təyin olunan köhnənin ölənlərinə rəhmət oxutdurur! Bəlkə, yalan deyirik, belə deyil? Bu qədər vəzifəyə yeni kadrlar təyin edilib. Nə dəyişib? Yenə köhnə hamam , köhnə tasdır!!!

## *Suyun qiyməti bahalaşacaq?*



**Bizdə bir qayda olaraq işığın, suyun , qazın və istiliyin qiymətləri tez - tez bahalaşır. Heç uzağa getməyək.İstiyin qiyməti 15 qəpikdən 45 qəpiyə qaldırlıldı.**

Yəni qiymətlər üç dəfə bahalaşdı, amma xidmətin keyfiyyəti yaxşılaşmadı.50 gündən sonra istilik verilməsi mövsümü başa çatır,hələ də Bakıda istilik almayan binalar var. Ancaq abonentlərə istiliyin ödənilməsi ilə bağlı bildirişlər, qəbzlər gəlir.

Vallah,gülməlidir ey,istilik verilməyə səndən pul istəyənlər. İndi də suyun qiymətinin qaldırılıması ilə aidiyyəti qurumun Tarif Şurasına müraciət etdiyi bildirilir.Artıq bu barədə kütləvi informasiya vasitələrində məlumatlar da gedir. Məlum qurumdan da bildirilir ki, onlar suyun qiymət artımı ilə əlaqədar Tarif Şurasına müraciət edilməyib.

Hər halda, belə xəbərləri biz çox eşitmişik. Əlaqədar qurumları belə məlumatları təkzib edib. Lakin bir də gecə saatlarında görmüşük ki, işığın, qazın, suyun, yanacağın , istiliyin qiyməti artıb. İndi camaat bilmir ki, kimə inansın; yayılan xəbərləri, yoxsa aidiyyəti qorumların sözünə? Hər halda , bir neçə gündən sonra əsl həqiqət üzə çıxacaq!!!

## *Yağış yağanda...*



**Bakıya küclü leysan yağışlar yağanda bir çox problemlər yaranır. Əsas çətinliklər ondan ibarət olur ki, bir çox körpülərin altı yağış suları ilə dolur, ora keçilməz olur, hətta neçə- neçə avtomobil suyun altında qalır.**

Bir dəfə də körpünün altını su basması nəticəsində iki nəfər orada boğularaq ölüb.Çünki ora yığılan sular vaxtında təmizlənmir və körpünü inşa edərkən müyyən tikinti qaydalarına əməl edilməyib.Hələ heç kim təminat verməyib ki, bir də belə bir faciə olmayacaq.Yağıs sularının yığılıb qalmasına əsas səbəb dirinaj xəttinin və kanalizasiya sisteminin normal işləməməsidir.Bütün bunlara görə insanlar əziyyət çəkirlər!

Eyni zamanda leysan yağışlarda Bakının Zabrat, Maştağa, Mərdəkan qəsəbəsinin sakinləri olmazın əzab- əziyyətin çəkirlər! Belə ki, onların heyətlərini, evlərini su basır, insanlar günlərlə, həftələrlə bu problemin içində boğulurlar.Adicə nasos tapılmır ki, sakinlər evlərindəki suyu təmizləsinlər. Ona görə də, bu insanların problemləri həmişə adiyyatı qurum tərəfindən diqqət mərkəzində saxlanılmalıdır!!!

## *Hər kəs öz yaşadığı yeri təmiz saxlamalıdır...*

**İnsan tək öz evini, öz mənzilini deyil, həm də yaşadığı kücəni, həyəti təmiz sağlamalıdır.Və təmizlik olan yerdə həmişə sağlamlıq olar.Heç şübhəsiz ki, buna çoxları əməl eləsə də, bəziləri səhlənkar yanaşır, sanitar - gigiyenik qaydaları pozur, adicə məişət tullantılarını zibil qutalarına deyil, yerə atırlar.**



Bu isə birmənalı olaraq müxtəlif infeksion xəstəliklərin yayılmasına münbit şərait yaradır.Biz nəinki küçəmizi, yaşadığımız mənzili, hətta doğma Bakımızı təmiz sağlamağa borcluyuq! Amma təmiz saxlayırıqmı? Əlbəttə, yox! Bu günlər Bakı Şəhəri İcra Hakimiyyətində keçirilən yığıncaqda şəhərin təmiz saxlanılması bir daha gündəmə gətirilib.

Yığıncaqda aydın olub ki, Bakının bir neçə rayonunda bu məsələlər heç də yetərincə həll olunmayıb, təmizliyə bir o qədər də önəm verilməyib. Ona görə də, bu qaydalara yetərincə əməl edilmədiyinə görə paytaxtın bir neçə rayon icra hakimiyyətinin başçısına xəbərdarlıq edilib, bəzisinə isə töhmət verilib. Onlara mövcud nöqsanları aradan qaldırılması üçün müəyyən müddət nəzərdə tutulub.Əlbəttə, mövcud nöqsanları aradan qaldırmaq tək icra hakimiyyəti başçısının vəzifəsi deyil.

Bu ilk növbədə Mənzil Kommunal Təsərrüfatı Birliyinin,onun sahələrinin, yeni ” JEK”lərin əsas vəzifə borcudur.Eyni zamanda , hər bir vətəndaş, hər sakin də təmizlik qaydalarına əməl etməlidir!!!

## *Yaz gəlir...*



**Artıq hər yerdə yazın nəfəsi, səsi hiss olunur. Hətta bəzi quşlar sevincindən bahar nəğməsi oxuyur, amma hələ kiçik çillə çıxmayıb və boz ay gəlməyib.**

Bir də görürsən ki, kiçik çillənin son günündə və eləcə də boz ayda hava necə çöndüsə, dəyişdisə,qar yağdasa aləm bir-birinə dəydi.Şaxta düşdü və möhkəm qar yağdı. Yeni açılmış ağacların çiçəklərin şaxta vurdu və sevincindən oxuyan quşların səsləri də kəsildi! Amma bu, nadir hallarda baş verir və artıqı Bakıda ” Xalqlar dostluğu” metrostansiyaların yaxınlığında bir albalı ağacı var çiçəkləyib. Hər il fikir verirəm bu ağac fevralın 10- dan sonra çiçək açıb!

Elə ağaclar var ki, buudaqların darayırlar. Amma o budaqları indi daramaq olmaz.Ona görə ki, ağaclarda yazın gəlişi ilə əlaqədar olaraq oyanma gedir.Yaxşı olar ki, bu ağaclar soyuq günlərdə - fevral ayının əvvəllərində budansın. Yəni qurumuş budaqlar dediyimiz vaxtlarda daranmalıdır və onda həmin ağaclar daha yaxşı inkişaf edər!!!

## *Səhər saat 5-də...*



**Bu gün əksər Bakı bazarlarında bir özbaşınalıq və dərəbəylik hökm sürür! Ən azından ona görə ki, bazarlar ayrı-ayrı adamların nəzarət altındadır. Bəlkə belə deyil, cənablar? Əlbəttə , belə də olanda istər- istəməz bir dərəbəylik yaranır.**

Bir dəfə gedən səhər saat 5- də Bakıda hər hansı bir bazara baxın və görün orada nələr baş verir! Görəcəksəniz ki, rayonlardan gələn kənd adamlarının məhsulları bazarlara biraxılmır. Ya onlar gətirdikləri kənd təsərrüfatı məhsullarını dəyər- dəyməz qiymətə ” bazar kötük” kötüklərinə satmalıdır, ya da məhsulların götürüb , kəndə qayıtmalıdır.

Kəndlinin əlindən qəpik- quruşa aldıqları göy-göyərtiləri, mer- meyvəni alverçilər od qiymətə satırlar. Daha doğrusu, onlar bu ucu məhsullara qiymətindən iki- üç dəfə artıq satırlar.

Ona görə də bazarlarda bütün məhsulların qiyməti kəlləçarxa qalxır. Təbii ki, bu mövcud nöqsanları heç bir əlaqədar qurum hələ indiyə kimi aradan qaldırmayıb, çünki bu qiymət artımında onlarında payı var! Bu baxımdan da indən sonra da bazarlarda dərəbəylik və hərc-mərclik hökm sürəcək!!!

**Emil FAİQOĞLU**



# Hörmətsiz davranış sərgiləyən ər-arvad məsuliyyət daşıyacaq

**Ali Məhkəmə ilk dəfə ailə-hüquq münasibətlərindən irəli gələn şəxsiyyət hüquqlarının pozulması və bu pozuntudan yaranan mənəvi zərərin ödənilməsi ilə bağlı hallara dair izah verib.**

Adalet.az xəbər verir ki, "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" 24 dekabr 2025-ci il tarixli Plenum Qərarında ailə-hüquq münasibətlərindən irəli gələn şəxsiyyət hüquqlarının xüsusi növü kimi ər-arvadın şəxsiyyət hüquqlarının mahiyyəti və bu hüquqlara müdaxiləni qadağan edən hallar aydınlaşdırılıb.

Ər-arvadın şəxsiyyət hüquqlarına nikaha daxil olmaq hüququ, boşanmaq hüququ, ər-arvadın hüquq bərabərliyi, ailə daxilində qarşılıqlı yardım və hörmət gözləmək hüququ, sərbəst surətdə soyad, məşğuliyyət, sənət seçmək hüququ və ailə qanunvericiliyi ilə təsbit edilmiş digər qeyri-əmlak hüquqları aiddir.

Məişət zorakılığına məruz qoyma, psixi və fiziki şiddət, habelə təzyiq altında saxlama, ərin (arvadın) xəstəliyi, cərrahi əməliyyatı, müalicəsi ilə, arvadın hamiləliyi ilə maraqlanmamaqla onu köməksiz vəziyyətdə qoyma, ailə sirrini və ya ərin (arvadın) şəxsi sirrini yayma, şərəf və ləyaqətini alçaltma, uşağın biloji atası olmamasının müəyyən edilməsi, atalığa dair mübahisə açmaq hüququndan sui-istifadə ediməsi, hörmətsiz davranış sərgiləmə (iqtisadi, fiziki, sosial, emosional cəhətdən bəyənilmədiyini mütəmadi və ya kobud formada özünə və ya kənar şəxslərə bildirmə), saxta nikah baglama (etibarsız nikah), yaşadığı evdən qanuni əsaslar olmadan çıxarılma və ailə qanunvericiliyinə zidd olan digər davranışlar ər-arvadın şəxsiyyət hüququnlarını pozur və mənəvi zərərin vurulma əsasını təşkil edir.

Ər-arvaddan birinin heç bir qanuni əsas, o cümlədən digərinin razılığı olmadan şəxsi və ya ailə sirri təşkil edən məlumatları yayması qadağandır. Məsələn, şəxsi yazışmalar, keçmişi ilə bağlı məlumatlar, ər-arvad arasındakı şəxsi münasibətlər (emosional, cinsi və s.), ailədaxili davranışlar, uşaqların mənşəyi, övladlığa götürmə ilə bağlı məlumatlar, həmçinin ailə üçün məxfi və həssas xarakter daşıyan digər məlumatlar.

Atalığı mübahisələndirən şəxsin öz övladı kimi qəbul etdiyi, qayğı göstərdiyi, böyüməsində, təhsilində və tərbiyəsində iştirak etdiyi uşağın bioloji atası olmaması faktının müəyyən edilməsi, həmin şəxsin valideynik hüquqlarını pozmaqla yanaşı, işin hallarından asılı olaraq atanın şərəf və ləyaqətinin alçaldılmasına da səbəb



ola bilər. Atalığa dair mübahisə açmaq hüququndan sui-istifadə, bu tələbin qərəzli olaraq qaldırılması, habelə vicdansızcasına açıq-aşkar əsassız iddianın verilməsi isə işin hallarından asılı olaraq arvadın şərəf və ləyaqətinin alçaldılmasına, habelə digər şəxsiyyət hüquqlarının pozulmasına səbəb ola bilər.

Hörmətsiz davranış sərgiləmə - ər-arvaddan birinin digərini bəyənməməsini ləyaqətini alçaldacaq tərzdə özünə və ya kənar şəxslərə bildirməsində ifadə oluna bilər. Məsələn, ər-arvaddan birinin digərinin xarici görünüşünə lağ etməsi, lazımsız, dəyərsiz olduğunu bildirməsi və bu kimi ləyaqətin alçaldılmasına səbəb olan digər kobud ifadələr işlətməsi

Etibarsız nikah nəticəsində mənəvi zərərin ödənilməsi zamanı saxta nikahın bağlanmasında cavabdehin təqsiri, nikahın etibarsızlığını aradan qaldıran halların mövcudluğu, iddiaçının özünün nikah bağlanarkən etibarsızlıq şərtləri barədə məlumatlı olub-olmaması nəzərə alınır. Ər-arvaddan birinin ayrılmaq və ya boşanmaq istəməsi, qanunla nəzərdə tutulmuş digər imkanlardan istifadə etməsi pozuntu hesab edilmir. Məsələn, nikah dövründə birgə əmlakın bölgüsü barədə iddianın qaldırılması və ya buna dair nikah müqaviləsinin bağlanmasının təklif edilməsi və digər bu kimi hüquqi imkanlardan istifadə qanunidir.

Bundan başqa, nikah münasibətlərinin faktiki pozulmasından sonra edilən bir sıra hərəkətlər də ər-arvadın şəxsiyyət hüquqlarının pozulması hesab edilmir və mənəvi zərərin vurulması əsasını təşkil edə bilməz. Məsələn, arvada (ərə) maddi yardım və qayğı göstərməmə, xəstəliyi ilə maraqlanmama və ər-arvad münasibətlərindən irəli gələn digər öhdəlikləri icra etməmə və s.

Mənəvi zərərin həcmi müəyyən edilərkən ümumi meyarlarla yanaşı xüsusi olaraq evliliyin müddəti, ər-arvadın yaşı, yenidən evlənmə imkanları, sağlamlıq vəziyyəti digər xüsusi hallar nəzərə alınır. Xüsusi olaraq qeyd edilməlidir ki, şəxsin yalnız şəxsiyyət, yəni qeyri-əmlak hüquqlarının pozulması ona mənəvi zərərin vurulmasına səbəb ola bilər. Şəxsin əmlak hüquqlarının pozulması birbaşa mənəvi zərərin yaranmasına səbəb olmasa da, bəzi hallarda mənəvi zərər vurulmasına gətirib çıxara bilər.

**Ərin-arvadın bir-birindən aliment və əlavə xərclər almaq hüququ da əmlak hüquqlarıdır, bu hüquqların pozulması yalnız o halda mənəvi zərərə səbəb olacaq ki, şəxsiyyət hüquqlarının pozulmasına gətirib çıxarsın. Məsələn, arvadına (ərinə) aliment ödəmək öhdəliyi olan ərin (arvadın) bu vəzifəsini yerinə yetirməməsi nəticəsində maddi zərər yaranır, lakin alimentin ödənilməməsi nəticəsində əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan qarşı tərəfin müalicə ala bilməməsi səbəbindən səhhəti pisləşərsə, artıq mənəvi zərər əsası yarana bilər.**

# «Donald Tramp Sülh Şurasının Qəzzayla kifayətlənməsini istəmir...»

**"Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın təsis etdiyi Sülh Şurasının ilk iclası keçirildi. Sülh Şurası bu il yanvar ayında Davosda keçirilən iqtisadi forum çərçivəsində təsis olunub. Toplantıya dəvət olunanlar arasında Azərbaycan Prezidenti İlham Əliyev də var idi. Azərbaycanın Sülh Şurasında iştirakının bir neçə səbəbi var".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Azərbaycan ABŞ-ilə strateji tərəfdaşlıq münasibətləri qurub. Ötən ilin avqustunda Ağ Evdə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iki ölkə arasında sülh sazişini parafladılar:

"Bu ilin fevral ayında isə ABŞ vitse-prezidenti Ceyms Vensin Bakıya səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlıq xartiyası imzalanıb. Belə olan halda Azərbaycan Donald Trampın təsis etdiyi Sülh Şurasından kənarda qala bilməzdi. Digər tərəfdən Azərbaycanın strateji tərəfdaşları olan Türkiyə, Qazaxıstan, Özbəkistan, Pakistan




və Səudiyyə Ərəbistanının Sülh Şurasına üzvlükləri də rəsmi Bakının qərarına təsir edən amillərdən biridir".

O, bildirib ki, başqa bir səbəb Sülh Şurasında Ermənistanın iştirakıdır:

"Ermənistan Trampın Sülh Şurasına üzvlük təklifinə müsbət cavab veribsə, Azərbaycanın Vaşinqtona mənfi cavab vermək kimi seçimi yox idi. İkincisi, Donald Tramp ötən ilin oktyabr ayında Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitinə Azərbaycan Prezidenti İlham Əliyevi də dəvət etmişdi. Bununla Tramp Azərbaycanın da Yaxın Şərq sülh prosesində iştirakını arzulayıb. İlham Əliyev Azərbaycan hərbçilərinin Qəzzaya göndərilməyəcəyini söyləsə də, ölkəmiz Qəzzanın yenidənqurulması prosesində iştirakdan imtina etməyib. Qəzzanın yenidənqurulmasında iştirak etmək üçün isə Sülh Şurasının üzvü olmaq lazım idi. Çünki, yenidənqurma prosesinə ABŞ nəzarət edəcək. Tramp onun dəvətini qəbul etməyərək Sülh Şurasında yer almayan ölkələrin Qəzzanın yenidənqurulması prosesində iştirak etməyəcəyini bildirib. Azərbaycanın İsraillə yanaşı Fələstinlə də diplomatik münasibətləri mövcuddur və rəsmi Bakı Yaxın Şərq siyasətində bu balansı qorumaq üçün Qəzzanın yenidənqurulması prosesində iştirakı labüd hesab edib. Azərbaycanın Qəzzanın yenidənqurulması prosesinə bəlli həcmdə maliyyə ayırması da istisna deyil. Üçüncüsü, Donald Tramp Sülh Şurasının Qəzzayla kifayətlənməsini istəmir. O və onun administrasiyası Sülh Şurasını gələcəkdə güclü təşkilata çevirmək istəyir. Azərbaycan super dövlət statusuna malik olan ABŞ-ın dünyanın yeni təhlükəsizlik arxitekturasını formalaşdırmaq prosesindən kənarda qalmamalıdır".

**Sübhan**

**Vüqar Abbasov,**
**Avropa Xəbər Agentliyinin (European News Agency) əməkdaşı**

# Niderlandda yeni kabinet



**Niderland 23 fevral 2026-cı ildən etibarən yeni hökumətlə idarə olunur. Yettenin (Rob Jetten) kabineti Kralın iştirakı (Paleis Huis ten Bosch) ilə rəsmi and içərək fəaliyyətə başlayıb. Koalisiya D66, VVD və CDA partiyalarından ibarətdir və ümumilikdə 18 nazir və 10 dövlət katibindən təşkil olunub. D66 partiyası 7 nazir və 3 dövlət katibi ilə təmsil olunur. VVD 6 nazir və 3 dövlət katibi postu əldə edib. CDA isə 5 nazir və 3 dövlət katibi ilə hökumətdə yer alıb. Dövlət katibi Palmen isə hər hansı siyasi partiyaya mənsub deyil.**

**Rob Yettenin baş nazir kimi and içməsi ilə Niderland siyasi tarixində yeni səhifə açılıb. O, 38 yaşında ölkə tarixinin ən gənc baş naziri olmaqla yanaşı, eyni zamanda açıq şəkildə homoseksual olduğunu bəyan edən ilk baş nazirdir. LHBTİ təşkilatları bu hadisəni müsbət qarşılayaraq bərabərlik istiqamətində mühüm addım kimi qiymətləndiriblər. Bununla yanaşı, onlar bu sahədə görüləsi işlərin hələ də davam etdiyini vurğulayıblar.**

**Sabiq baş nazir Dik Sxof (Dick Schoof) səlahiyyətlərini Rob Yettenə təhvil verib və videomüraciətində Niderland xalqına təşəkkür edib. O bildirib ki, baş nazirlik fəaliyyəti karyerasındakı ən asan iş olmasa da, ən maraqlı və ən zövqlü vəzifə olub.**

**Yeni kabinet geniş və iddialı proqram təqdim edib. Siqaret və elektron siqaretlərin satışı üçün minimum yaş həddi 21-ə qaldırılır. Aşağı gəlirli ailələr üçün əlavə kirayə mənzillər tikiləcək və tələbələr üçün staj dövründə məcburi ödəniş tətbiq olunacaq. Müdafiə sahəsinə əlavə vəsait ayrılacaq. Təhsil üçün 1,5 milyard avro, azot emissiyalarının azaldılması tədbirləri üçün isə 20 milyard avro vəsait nəzərdə tutulub.**

**Bununla yanaşı, hökumət qənaət tədbirlərini də elan edib. İşsiz qalan şəxslərə verilən müavinətin müddəti bir illə məhdudlaşdırılacaq. Səhiyyə sahəsində şəxsi ödəniş məbləği 385 avrodan 460 avroya qaldırılacaq.**

**Yetten kabineti azlıq hökumətidir və parlamentdə sabit çoxluğa malik deyil. Bu isə o deməkdir ki, hər bir qanun layihəsi üçün digər partiyaların dəstəyi tələb olunacaq. Hökumətin bu dəstəyi davamlı şəkildə təmin edib-edə bilməyəcəyi isə qarşıdakı zamanda bəlli olacaq.**

**vugarabbasov@hotmail.com**

## *Evdə internet sürətinin ölçülməsi zamanı provayder adlarının fərqli görünməsi nə ilə bağlıdır?*

**Son dövrlərdə İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinə (İKTA) evdə internet sürətinin ölçülməsi zamanı istifadə edilən platformalarda, o cümlədən "speedtest" xidmətlərində ekranda müqavilə bağladıqları internet xidmət təchizatçısının (İSP) adı əvəzinə, sürət göstəriciləri aşağı olan provayderlərin adlarının görünməsi ilə bağlı vətəndaşların müraciətləri daxil olur.**

Bu barədə Adalet.az-a İKTA-dan məlumat verilib.

Agentlik bildirir ki, sürət ölçmə platformalarında göstərilən provayder adı əsasən istifadəçinin internetə qoşulduğu "IP" ünvanının beynəlxalq qeydiyyat məlumatları və şəbəkənin "AS" (Autonomous System) identifikasiyası əsasında avtomatik müəyyən edilir. Buna görə də bəzi hallarda müqavilə bağlanmış brend adı ilə texniki identifikasiya məlumatları arasında uyğunsuzluq müşahidə oluna bilər. Bununla yanaşı, Agentlik reytinq nəticələrinin dərcindən sonra bəzi provayderlər üzrə brend təqdimatı ilə faktiki şəbəkə identifikasiyası arasındakı fərqlərin sistematik xarakter daşıması ehtimalını araşdırır. Xüsusilə şəbəkə strukturlarının və "IP" resurslarının məqsədli şəkildə bölüşdürülməsi nəticəsində ölçmə nəticələrinin fərqli brendlər altında cəmlənməsi və bunun bazarda reytinq göstəricilərinə təsir göstərməsi halları ciddi narahatlıq doğurur. İKTA bəyan edir ki, qeyd olunan hallar təsdiqini tapacağı təqdirdə bu cür praktika həm istehlakçıların düzgün və şəffaf məlumatlandırılması prinsipinə, həm də sağlam və ədalətli rəqabət mühitinə zidd davranış kimi qiymətləndiriləcək. Hazırda məsələ ilə bağlı geniş texniki və hüquqi təhlil aparılır. Araşdırmaların nəticələrindən asılı olaraq, zərurət yaranacağı halda ictimaiyyətə əlavə məlumat veriləcək və qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görüləcək. İnternet xidmət təchizatçılarına bir daha xatırladılır ki, brend təqdimatı ilə faktiki şəbəkə identifikasiyası arasında uyğunsuzluq yaratmaq, eləcə də reytinq və ölçmə platformalarının nəticələrini manipulyasiya etməyə yönəlmiş hər hansı cəhdlər bazar etimadına ciddi zərbə vurur və qəbuledilməzdir. İKTA şəffaflıq, düzgün məlumatlandırma və ədalətli rəqabət prinsiplərinə ciddi şəkildə əməl olunmasını təmin etmək məqsədilə bu sahədə nəzarət tədbirlərini davam etdirəcək və hər hansı qeyri-şəffaf praktikanın qarşısının alınması üçün zəruri addımlar atacaq.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# YADDAŞIMDAKI "MƏLƏKLƏR MƏZARLIĞI"

Yəqin ki, yazının adını oxuyanda təəccübləxəcəksiniz və yaxud da dodağınıza ironik bir təbəssüm gələcək. Düşünəcəksiniz ki, yayın bu cırhacırı ağlımı çaşdırıb. Axı, mələklər ölmürlər. Bir halda ki, ölmürlərsə, deməli, mələklərin məzarlığı da ola bilməz. Amma siz necə düşünürsünüz düşünün, mən bu yazını mələklər məzarlığı haqqında yazacam... mələklərin məzarından yazacam... ölümüylə yaşayan mələklərdən yazacam. Və sonda sizin söylədiyiniz həqiqəti mən də etiraf edəcəm. Deyəcəm ki, bəli, mələklər ölmür!..

Həyatın insana bir dəfə verildiyi sübuta ehtiyacı olmayan bir gerçəklikdi. Həqiqətən də insan, yəni Allahın yaratdığı biz bəndələr cismani olaraq bir dəfə doğuluruq və bir dəfə də ölürük. Böyük şəxsiyyətlər, dahilər, dühalar, müqəddəslər ruhən yaşayırlar. Hər zaman aid olduqları millətin və bütünlükdə bəşəriyyətin yaddaşında öz əməlləriylə, öz xidmətləriylə var olurlar. Və insanlar da bu ruhən yaşayanların xatirəsini ehtiramla anır, onlardan yararlandıqları üçün onlara minnətdarlıqlarını duaları ilə dilə gətirirlər, rəhmətləriIə qeyd edirlər. Bu da bir gerçək...

Bir gerçək də var. O da mələklərin ölümüdü... Bu mələklər dünyaya gəlişləriylə dünyadan gedişləri arasında zaman məsafəsini o qədər qısaldırlar ki, qaşla göz arsında olur, olumla ölüm arası qədər olur, varla yox arası qədər olur. Deməli, çəkilən "ah"la bitir hər şey. Dodaqdakı, qəlbdəki, ruhdakı açılan təbəssümlə açılan çiçək əllərini başına, dizinə çırpmaqla solur və donub qalırsan yerində. İstəyir yay olsun, istəyir qış, fərqi yoxdu, donursan. İçin üşüyür, əllərin, dodaqların titrəyir, dilin sözünə baxmır. Sadəcə kirpiklərindən aşağı yaş süzülür. Bu yaş da başqa göz yaşlarına bənzəmir. Bu da digər göz yaşlarından o qədər duru olur ki, onu barmağının ucuyla yanağından götürəndə, ya kirpiyindən siləndə o göz yaşında öz şəklini də görə bilirsən. Axı sən mələklər üçün ağlayırsan. Ölən, öldürülən mələklər üçün...

Nə qədər istəyirəm ki, yazımın kədər notu az olsun, amma bacarmıram. Qəmli, ağrılı sözlər fırlanır içimdə. Ürəyimdən ağlıma, ağlımdan da ruhuma tərəf qaçır o sözlər. Çünki gözümün önündə öldü bir mələk. Daha doğrusu, öldürdülər o mələyi - savadsızlıqları ilə, laqeydlikləri ilə, insanlığa yaraşmayan əxlaqlarıyla, mənəviyyatsızlıqlarıyla. Mən onu bircə dəfə gördüm. Və bircə dəfə gördüyüm o mələyin çöhrəsi nə gözlərim önündən gedir, nə yuxumdan çəkilir, nə də ruhuma rahatlıq verir. Onu qoruya bilmədiyim üçün, onun yanında ola bilmədiyim üçün vicdan əzabı çəkirəm. İndinin özündə də içimdəki sıxıntı ürəyimi ox kimi dəlib keçir. Doğrudur, mən təbib deyiləm, loğman deyiləm, həkim deyiləm, adicə bir söz adamıyam. Adidən adi. Gücüm sözə çatır, rica etməyə, təvəqqe etməyə, hətta o mələyin xatirinə yalvarmağa da. Amma bu ricalar, bu yalvarmalar maddiyyat deyil, heç nəyə yaramır. Üstəlik, hardansa, kimdənsə pul da tapmaq mümkündür. Amma savadsız, biganə, insan taleyinə qarşı acımasız olan saxta həkimin, loğmanın, təbibin qapısını döymək, ondan ümid ummaq, ondan uzadılan ələ ümid əli almaq mümkün deyil. Mən bunun şahidi oldum və bu dünyada yeddi gün yaşayan bir körpənin özünün də, anasının da nələr çəkdiyini ömrümə yazdım, daha doğrusu, yazdılar. Özü də qələmlə yox, xəncərlə... oxla... iynə-sancaqla... bizlə... ucu zəhərli neştərlə...

Gözümün önündən getməyən mələk Azərbaycan tibbinin yerində olmayan həkiminin günahından bu dünyada yeddicə gün yaşadı. Özü də süni nəfəslə... özü də dava-dərmanla. Valideynlərin cani dildən od qiymətinə tapıb gətirdiyi dərmanlarla. Hansı ki, o dərmanların bu mələyə heç bir faydası olmadı və ola da bilməzdi. Həkim isə özünü sığortalamaq üçün dərmanlar yazırdı. Mən indinin özündə də başa düşə bilmirəm ki, bir mələyin və bütövlükdə mələklərin qatilləri öz günahlarını və onları nələr gözlədiyini niyə anlamırlar? Niyə bilmirlər ki, hər gecənin səhəri olduğu kimi, hər işin də, lap elə hər bir ömrün də sonu var. Son isə hesabat deməkdir, suallara cavab verməK deməkdir. Bəs onda nə olacaq? Onların əvəzinə kim cavab verəcək? Ünvanlanan suallar dünyanın, yerin, göyün, ərşi-aləmin ən pak məxluqları ilə bağlıdır, mələklərdən gedir söhbət...

Bəli, cəmi yeddi gün yaşadı. Elə yeddinci günün axşamında da, daha doğrusu, səkkizinci günə bir neçə saat yol gedib "əlvida" dedi bəyənmədiyi bu dünyaya. Gördü ki, insanları xilas etməli olanlar özləri qatildilər... gördü ki, insanların sağlamlığı keşiyində durmaq üçün seçilən kəs insanların cibiylə nəfəs alır... gözü xəstədə yox, əllərdədi... gördü ki, bu dünya rüşvətə, harınlığa, biganəliyə, arsızlığa, bir sözlə, o qədər çirkablara batıb ki, dünyada qalmaq olmaz. Ona görə də heç nə demədən uçub getdi...

Və onda onun arxasınca baxa-baxa donub qaldığım anın misraları göyərdi ürəyimdə. Yazdım ki:

*Sən bir günlük kəpənək*
*İşıq kimi doğuldun...*
*Səni sevmədi fələk -*
*Qara əllə boğuldun-*
*mələk...*

*Doqquz ayın hər anı*
*Oxunulmayan kitab...*
*Uzanan əllərimiz -*
*Toxunulmayan kitab*
*mələk...*

*Ana hıçqırtısını*
*Kirpiyinə köçürən...*
*Ata pıçıltısını*
*Sükutuyla keçirən*
*mələk...*

*Sən möcüzə, sən bir sirr*
*Ən müqəddəs bir dilək...*
*Sənin ovuc boyda yer -*
*Yuvanı cənnət bilək*
*mələk!*

***

O, köçdü! Əvvəlcə mən elə bildim ki, harasa gedib qayıdacaq. O, keçdi... elə bildim ki, işıqdı, sönüb təzədən yanacaq. Amma bunların heç biri olmadı. O, sadəcə getdi - ruh kimi, mələk kimi. Biz onun cismini mələklər məzarlığında dəfn etdik. İlk dəfə gördüm bu məzarlığı. Bakıda, daha doğrusu, Bakı ətrafında bir məzarlıq var. Orda uşaqları, dünyanın ən pak bəndələrini torpağa tapşırırlar. Bu dünyaya erkən "əlvida" deyən həmin o körpə mələklərin məzarlıqları mənə dünyanın hələ də anlaya bilmədiyim bir yerini xatırladır. Orda təmtəraqlı başdaşları da yoxdu, sinə daşları da yoxdu. Ordakı uşaqlar o qədər məsumdular ki, sanki onlar həmin o ərazidə yığışıb eyni cür düşündüklərindən, eyni cür danışıb güldüklərindən eyni oyunu oynayırlar, eyni musiqini eşidirlər. Hamısı bir-birindən gözəl, hamısı bir-birindən yaraşıqlı və hamısı da ürək parçaları. Bu yerdə ən çox məni düşündürən fələyin amansızlığı, nə boyda iyrənclikləri oldu. Necə qıyır bu məsumlara, bu mələklərə? Çox ağrılı, çox çətin bir sualdı. Sadəcə, özümə təsəlli üçün cavab uydururam ki, onlar cənnətdədir. Onlar hamıdan öncə cənnətlə mükafatlandırılanlardı, cənnətə layiq görülənlərdi. Onlar valideynlərinin, ata-analarının Tanrı yanında günahlarının bağışlanması üçün getmiş elçilərdi. Bu məsumlar, bu mələklər Tanrı dərgahında bizlərin bağışlanmasını istəyənlərdi... Eh, nə qədər fikirləşsəm də, nə qədər təsəlliverici sözlər axtarsam da heç nə tapa bilmirəm. Çünki aldığım zərbə, tuş gəldiyim məqam və nəhayət, bu dünyanın özünün ayaq-baş oyunları mənə yaxşı heç nə vəd etmir. Ona görə də öz-özümə pıçıldayıram:

*Ruhum yatır sinəndə*
*Əlini günlük elə...*
*Ruhunu da ona qoş -*
*Yanını güllük elə...*

*Nə yuxumdan çıxıb get*
*Nə fikrimi sən tərk et...*
*Harayıma hər an yet -*
*Ömrümü tünlük elə!..*

*Qəlbim boşdu ev kimi*
*Demirəm dön, sev kimi?!*
*Ona dəli sevgimi -*
*Allah, min illik elə...*

***

Adətən deyirlər ki, dərd dağa-daşa yox, insana alın yazısıdı. Yəni Tanrı dərdlərini insanlar üçün yaradıb. Ona görə də dağın, daşın, otun, ağacın, bir sözlə, bəndədən başqa gözə görünən nə varsa, guya heç nəyin dərdi yoxdu, ağrıyan yeri yoxdu. Mən bu fikirlə razılaşmıram. Barışmıram bu deyilənlə. Çünki qanadı qırılan ağacın necə sızıldadığını hiss etmişəm. O qırılan yerdən daman ağacın şirəsi deyil, ağacın göz yaşıdı. Külünglə sındırdığımız qayanın qopan qəlpəsi daş parçası deyil, o, həmin qayanın bir əzasıdı, bir hissəsidi. Tapdaladığımız otun torpağa yapışan hissəsi onun bədəninin ayaqlar altında qalmasıdı. Bax, bu məntiqlə yanaşanda onda aydın olur ki, dərd sadəcə olaraq çəkənlərə verilir. Çəkməyənlər üçün dünyanın od tutub yanması da heç nədi. Necə deyərlər, heç tükləri də tərpənməyəcək. Ona görə də dərdin boyunu sevmək və verilən dərdi son nəfəsə kimi çəkmək istəyinə qərarlıyam. Bilirəm ki, mənə dərddən doğma, dərddən yaxın bu dünyada heç nə yoxdu. İnansanız da, inanmasanız da dərd təkcə mənim yox, elə hamımızın can köynəyidi. Və:

*Çıxıb getmək istəyirəm*
*Sıxıb getmək istəyirəm...*
*Yığıb getmək istəyirəm -*
*Dərdləri -*
*Dərd, sizdən...*

*Çıxıb gedə bilmirəm*
*Sıxıb gedə bilmirəm...*
*Yığıb gedə bilmirəm*
*Dərdləri -*
*Tərslikdən....*

*Çıxıb gedə bilməyən*
*Sıxıb gedə bilməyən...*
*Yığıb gedə bilməyən*
*Dərdlə qalır -*
*Fərsizlikdən!..*

Bəli, bu dünyadan çıxıb getmək bir hava kimi, bir su kimi gəlib keçir içimdən.

Elə istəyirəm ki, qopam, ayrılam dayandığım nöqtədən. Amma gözümün önündəki o mələk öz təbəssümüylə, öz çöhrəsiylə sanki məni fikrimdən daşındırmaq istəyir.

Onun bu istəyinə qarşı çıxa bilmirəm, heç çıxmağa gücüm də yoxdu. Axı bu dünyanın ən məsumları, ən gözəlləri, ən göyçəkləri, yəni mələkləri hər şeyə qadirdilər. Onlar istəklərini istədikləri an gerçəkləşdirə bilirlər. Həm də onların özəl dünyaları var axı. Onlar mələklər məzarlığında uyuyurlar. Bir az da obrazlı desəm, onlar bu məzarlıqda öz dünyalarını gerçəkləşdirirlər, öz dünyalarını...

Hə, indi bu yazını yazdığım anda günorta azanı oxunur. Mənə elə gəlir ki, o azan səsinin dalğalarında mənim də mələyimin uçuşu var. Hər azan səsiylə o mənə gəlir və məndən də dönüb gedir. Çünki mənim qaldığım dünyada o özünə yer tapa bilmir. Və bu yer mələklər üçün deyil!

## Tarix açıqlandı: 100 milyon kiloqramlıq qalıq Yer kürəsinə düşəcək

**Dünya orbitində fırlanan və artıq istifadə olunmayan peyklər ilə raket hissələrindən ibarət olan təxminən 100 milyon kiloqramlıq "kosmik zibil" böyük təhlükə yaradır. Mütəxəssislər bu nəhəng dağıntının Yer atmosferinə daxil olaraq yerə düşəcəyi tarix barədə xəbərdarlıq edirlər.**

Adalet.az xəbər verir ki, orbitdə hazırda 100 milyon kiloqramdan (100 min ton) çox metal və plastik qalıq var. Bu qalıqlar saniyədə kilometrlərlə sürətlə hərəkət edir. Onların böyük bir hissəsi atmosferə daxil olarkən yanaraq yox olsa da, iri parçaların yerə çatması və yaşayış məntəqələrinə zərər verməsi ehtimalı getdikcə artır.

Tədqiqatçılar qeyd edirlər ki, günəş aktivliyinin artması və orbitin həddindən artıq dolması səbəbindən yaxın illərdə, xüsusən 2026-cı ildən başlayaraq bu qalıqların idarəolunmaz şəkildə Yerə düşməsi hadisələri daha tez-tez baş verəcək.

Orbitdəki zibillər bir-birinə çırpılaraq daha kiçik və daha çox sayda zibil yaradır. Bu zəncirvari reaksiya nəticəsində gələcəkdə kosmik səyahətlər və peyk rabitəsi tamamilə qeyri-mümkün ola bilər.

Dünya kosmik agentlikləri (NASA, ESA və s.) bu zibilləri təmizləmək üçün nəhəng torlar, maqnitlər və lazer texnologiyaları üzərində işləyirlər. Lakin hələlik bu milyonlarla kiloqramlıq yükü təmizləyəcək tam effektiv bir sistem mövcud deyil

## Şagirdlər üçün süni intellekt əsaslı köməkçi olacaq

**"Microsoft" şirkətinin və Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü ilə şagirdlərə dəstək üçün hazırlanmış süni intellekt əsaslı köməkçi onların öyrənmə səviyyəsinə və tədris proqramına uyğunlaşdırılmış alətdir.**

Adalet.az xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov "Təhsilin rəqəmsallaşması" mövzusunda keçirilən brifinqdə deyib.

O bildirib ki, "Rəqəmsal məktəb" platformasında təqdim edilən bu köməkçi fərdiləşdirilmiş öyrənməyə dəstəyi verir və yerli təhsil ehtiyacları nəzərə alınmaqla hazırlanıb.

Vüsal Xanlarov qeyd edib ki, bu texnologiya rəqəmsal təhsil mühitinin yaradılmasına, rəqəmsal bacarıqların inkişafına, rəqəmsal savadlılığa, adaptiv öyrənməyə və fərdiləşdirilmiş tədrisə imkan verir.

*Əbülfət Mədətoğlu*

# ANDIMIZ: TORPAQ HAQQI!

**İndi heç kimi təəccübləndirmək mümkün deyil..Ona görə ki, hər gün yollardayıq...Bütöv Vətənin yollarında.... Ağdama, Füzuliyə, Cəbrayıla, Xocavəndə, Zəngilana, Qubadlıya, Laçına Ağdərəyə, Kəlbəcərə, Xocalıya, Şuşaya, Xankəndinə getdiyimiz yoldu bu yol! Və biz bu yolu artıq qalib kimi gedirik... torpağın sahibi kimi gedirik. Və hələ neçə illər bundan öncə xalq şairi böyük Bəxtiyar Vahabzadə ilə söhbətlərimin birində mənə dediyi kimi, "Bu, böyük Qayıdışın yoludu". Bəxtiyar müəllim mənə ürək-dirək verirmiş kimi onu da dedi ki, "Darıxma, Türkün özünə dönüşü var. Bizim də böyük dönüşümüz olacaq. Bu, böyük Qayıdış kimi düşəcək tariximizə".**

**Xalq şairimizin bu fəhmi indi çin olur, indi gerçəkləşir. Və mən bu gerçəkləşən qayıdışın bir sıra nəfəri kimi özümü xoşbəxtlərin sırasında görürəm. Çünki "ölməyə vətən yaxşı" deyənlər elə-belə adamlar olmayıb. Onların istəyinin mahiyyəti indi bəlli olur mənə. Yadıma dünyasını dəyişmək ərəfəsində atamın dediyi söz də düşür. "Allah möhlət verə, gedib kəndimdə öləm!". Mən bu arzunun fərqinə indi daha çox**



**varıram. İndi anlayıram ki, atam Allahdan elə-belə ömür istəmirmiş, kəndini görmək üçün möhlət istəyirmiş. Təəssüf ki, bu günü görmək, qələbə xəbərlərini eşitmək dünyasını dəyişən insanlarımıza nəsib olmadı. Amma ruh ki, yaşayır. İnanıram ki, indi o ruhlar Qarabağdadı, səngərləri keçib gediblər. Orda qarşılayırlar əsgərlərimizi... orda qarşılayırlar igidlərimizi.**

**Bəli, bu gün daha "DQMV" yoxdu! Gedib cəhənnəmin dibinə!!! Oradan isə dönüş mümkünsüzdü! Bu gün AZAD QARABAĞ VAR!!! Bu gün XANKƏNDİNDƏ dalğalanan AZƏRBAYCAN BAYRAĞI VAR!!! o bayrağı qaldıran DƏMİR YUMRUQ VAR!!!**

**...Hə, şükür ki, yolum Tuğadı... Şükür ki, içimdə sıralanan ümidlər əsgərlərimizə qoşulub məndən öndə idilər.. Və bir də mən artıq dəfələrlə yazıb təkrarladığım bir nisgili indi içimdən qovmaq gücündəyəm. Çünki "Ehtiyacım elçi daşı" kitabımda yazmışdım ki:**

***Ana qucağından***
***isti yer***
***körpə qığıltısından***
***həzin musiqi***
***varmı dünyada ?!.***

***Ana - ana torpaq***
***övlad əsgər.***
***Başını söykədiyin***
***sinəyə***
***sevgini göstər...***

***Ağrısını***
***süd kimi əm***
***Və Allahın eşidə biləcəyi***
***səslə içində pıçılda -***

***Qəmin kəm, Ana,***
***Qəmin kəm***
***torpaq,***
***qəmin kəm...***

**İndi torpağımız da, analarımız da, övladlarımız da, özümüz də qəmdən qurtulmuşuq. Bu gün bir-birimizə gözaydınlığı veririk. Və bu gün biz həm də darıxdığımız torpağı çiynimizə qaldırmışıq. Çünki onun 30 il yad tapdağında qalmasına dözmüşük... Və qisasımızı qanımızla alıb onu çiynimizə qaldırmışıq ki, bir daha yad ayaq dəyməsin, yad nəfəs toxunmasın. İnşallah, belə də olacaq! Və biz bir-birimizə bundan sonra bir andla müraciət edəcəyik. Yəni sözümüzü, fikrimizi isbat üçün "TORPAQ HAQQI!" - deyib and içəcəyik.. Çünki bundan gözəl and yoxdu dünyada. Mən də o andla sizə deyirəm:**

**- Torpaq haqqı, sizi Tuğda gözləyəcəm!**

# Xocalı Soyqırımı - Unutmamaq, Anlamaq və İnsanlıq Borcu

**26 fevral - Yaddaşın sınağı olan tarixdir. Azərbaycan xalqının yaddaşında sadəcə bir tarix deyil - vicdanın, insanlığın və ədalət anlayışının sınağa çəkildiyi bir gündür. Xocalı soyqırımı bir şəhərin məhv edilməsi ilə məhdudlaşmayan, bütöv bir millətin ruhunda dərin iz buraxan faciədir. O gecə yalnız evlər deyil, talelər dağıldı; yalnız insanlar deyil, uşaqlıq xatirələri, arzular və gələcək ümidləri də güllə səsinə qarışdı. Bu hadisə tarix kitablarında qalan bir fakt deyil. Xocalı yaşayan yaddaşdır - hər il yenidən xatırlanan, lakin əslində heç vaxt unudulmayan bir ağrıdır.**

Hər il Xocalı soyqırımına həsr olunan minlərlə anım mərasimləri keçirilir. Belə mərasimlərdə görünən və duyulan həqiqətlər bəzən insanı vəcdə gətirir, qürur verir, bəzən ağrıdır, yandırır, bəzən də sarsıdır, utanclıq gətirir. Bu il keçirilən anım tədbirlərində iştirak edərkən müxtəlif duyğular yaşadım. İnsanların bir qisminin səmimi kədər və hörmət hissi ilə orada olması aydın hiss olunurdu. Sükutun içində danışan baxışlar, gözlərdə gizlənən ağrı və səssiz ehtiram həmin faciənin hələ də canlı olduğunu göstərirdi. Lakin eyni məkanlarda başqa mənzərələr də vardı - pafoslu çıxışlar, formal iştirak, kameralar qarşısında nümayiş etdirilən süni emosiyalar və faciəni anlamaqdan çox özünü göstərmək cəhdləri. Bu mənzərə insanı düşündürür: biz Xocalını həqiqətən xatırlayırıqmı, yoxsa sadəcə xatırladığımızı nümayiş etdiririk? Faciəni anmaq yalnız mərasimlərdə iştirak etmək vacib deyil. Xatirə formal davranış deyil; o, daxili məsuliyyət hissidir. Əgər anım yalnız sözlərdən ibarət qalırsa, onda yaddaş öz mahiyyətini itirməyə başlayır.

### *Tarixi xatırlamaqdan daha vacib olan*

Xocalını unutmamaq yalnız keçmişə baxmaq demək deyil. Əsl məsələ həmin faciədən mənəvi nəticə çıxarmaqdır. Millətə qayğı, insanlara sevgi və cəmiyyət daxilində ədalətli münasibət olmadan heç bir anım günü öz həqiqi mənasını tapa bilməz. Tarix bizə yalnız ağrı yaşatmaq üçün deyil, bizi dəyişdirmək üçün verilir. Əgər faciə bizi daha mərhəmətli, daha həssas və daha məsuliyyətli etmirsə, deməli biz onun dərsini tam anlamamışıq.

### *Nifrət və humanizm arasında tarazlıq*

Xocalı soyqırımını törədən ermənilərə qarşı nifrət hissi təbiidir. Bu, insanın ədalət duyğusundan doğan reaksiyadır. Lakin nifrət gələcək qurmaq üçün yetərli deyil. Nifrət yaddaşı qoruyar, amma cəmiyyəti inkişaf etdirən humanizmdir. Əsl güc qisas hissində deyil, insanlığı qorumaq bacarığındadır. Xocalının dərsi yalnız baş verənləri xatırlamaq deyil, gələcəkdə belə faciələrin təkrarlanmaması üçün ədalət və beynəlxalq humanizm prinsiplərinə sadiq qalmaqdır.

### *Qurbanların ailələri - yaddaşın canlı daşıyıcıları*

Xocalı qurbanlarının nəsilləri, ailələri və övladları üçün 26 fevral bir gün deyil - ömür boyu davam edən bir ağrılı-acılı xatirədir. Onlar üçün anım mərasimləri rəsmi tədbir deyil, həm də şəxsi həyatlarının açıq yarasıdır. Bu səbəbdən cəmiyyətin əsas borcu yalnız faciəni xatırlamaq deyil, ilk növbədə həmin insanların, ümumən cəmiyyətin həyatına real dəstək göstərməkdir. Humanizm tribunadan deyil, gündəlik davranışdan başlayır. Cəmiyyət üzvlərinə, vətəndaşlara, qaçqın-köçkünlərə, əlillərə, qazilərə, əsgərlərə sosial ədalət, diqqət, qayğı və hörmət - Xocalı qurbanlarının xatirəsinə göstərilə biləcək ən səmimi ehtiram formasıdır.

### *Unutmamaq - davranışa çevrilən yaddaş*




Unutmamaq sadəcə xatırlamaq deyil; bu, davranışdır. Əgər biz Xocalını unutmadığımızı deyiriksə, o zaman bir-birimizə qarşı daha ədalətli, daha anlayışlı və daha məsuliyyətli olmalıyıq. Çünki milli yaddaş yalnız tarixlə deyil, bugünkü münasibətlərlə yaşayır. Cəmiyyət öz ağrısını necə yaşadırsa, gələcəyini də elə qurur. Əgər yaddaş mərhəmətlə müşayiət olunursa, gələcək daha insanpərvər olur.

### *Ağrılı tarixi yaddaşımızdan xoş gələcəyə doğru*

Xocalı faciəsi Azərbaycan xalqının yaddaşında silinməz iz olaraq qalacaq. Lakin bu ağrı bizi yalnız keçmişə bağlamamalıdır. O, bizi daha ədalətli cəmiyyət qurmağa, insan həyatının dəyərini daha dərindən anlamağa və humanizmi gündəlik həyatın əsas prinsipinə çevirməyə çağırmalıdır. Şəhidlərin xatirəsinə ən böyük hörmət onların adını sadəcə anmaq deyil - onların arzuladığı kimi daha vicdanlı, daha mərhəmətli və daha ədalətli bir gələcək qurmaqdır. 26 Fevral Xocalı soyqırımını unutmaq mümkün deyil, amma onu düzgün xatırlamaq, ədalətli, məsuliyyətli, humanist, xeyirxah olmaq, vətəni, milləti, xalqı, dövləti sevmək, Azərbaycanın suverenliyinə, texnoloji inkişafına var qüvvə ilə çalışmaq hər birimizin mənəvi məsuliyyəti və vətəndaşlıq borcudur.

**ƏLÖVSƏT QARACA ƏLİYEV**
**Azərbaycan İnformasiya və Cəmiyyət İctimai Birliyinin rəhbəri, professor**

# "Berlinə atılan ilk bomba zooparkdakı yeganə fili öldürmüşdü..."

**"İnsanlıq tarixində son 5600 il ərzində tam sülh yalnız 292 il davam edib (yəni çox az vaxt). Bu rəqəm köhnə statistikalardan gəlir və müxtəlif mənbələrdə 268-292 arası dəyişir, amma ümumi fikir eynidir - müharibələr üstünlük təşkil edib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, bildirib ki, müasir müharibələrdə (xüsusilə şəhər döyüşlərində və partlayıcı silahlar istifadə olunan yerlərdə) ölənlərin və yaralananların 90%-dən çoxu mülki şəxslərdir (qadınlar və uşaqlar daxil):

"1990-cı illərdən bəri silahlı münaqişələrin sayı və şiddəti ümumilikdə azalıb, amma son illərdə bəzi regionlarda yenidən artıb. Müharibələrdən ölənlər 20-ci əsrin ortalarına nisbətən xeyli aşağı düşüb. İslandiya 2008-ci ildən bəri ardıcıl olaraq dünyanın ən sülhsever ölkəsidir (Global Peace Index-ə görə, 2025-ci ildə də 1-ci yerdədir). BMT sülhməramlı qüvvələrinin illik büdcəsi qlobal hərbi xərclərin 0.5%-dən az hissəsini təşkil edir (2024-2025 büdcəsi ~5.6 milyard dollar, qlobal hərbi xərclər isə trilyonlarla). Daha çox BMT sülhməramlısı olan zonalarda mülki itkilər əhəmiyyətli dərəcədə azalır və davamlı sülh şansı yüksəlir (araşdırmalar bunu təsdiqləyir). 1948-ci ildən bəri BMT sülhməramlı missiyalarında 2 milyondan çox insan xidmət edib, təxminən 4200-dən artıq sülhməramlı həlak olub. Sülh rəmzi olan göyərçin və zeytun budağı qədim yunan mifologiyasından gəlir (sülh tanrıçası Eirene ilə bağlı). Hazırda dünyada təxminən 30-50 arası aktiv silahlı münaqişə var, amma 1990-cı illərlə müqayisədə beynəlxalq müharibələr xeyli azalıb. Maraqlı tarixi detal: İkinci Dünya Müharibəsində Berlinə atılan ilk bomba Berlin Zooparkındakı yeganə fili öldürmüşdü. Dünyaya sülh gətirirık!!!".

**Vasif ƏLİHÜSEYN**

# *60 ildir yatmır - Alimlər şokda*



**Vyetnamda yaşayan 80 yaşlı Thai Ngocun təxminən 60 ildir heç yatmadan həyatını davam etdirdiyi iddiası tibb dünyasında maraq doğurub. Bildirilir ki, onun şüuru 1960-cı illərdən bəri oyaqdır.**

Adalet.az xəbər verir ki, bu barədə xarici KİV yazıb. Vyetnamın kiçik kəndlərindən birində yaşayan Ngoc deyir ki, gənclik illərində keçirdiyi ağır qızdırmalı xəstəlikdən sonra yuxu qabiliyyətini tam itirib. Onun sözlərinə görə, onilliklərdir nə gecə, nə də gündüz yata bilir. Mütəxəssislər bildirirlər ki, normalda insan orqanizmi bir neçə günlük yuxusuzluqdan sonra ciddi fiziki və zehni problemlər yaşamalıdır və uzunmüddətli yuxusuzluq həyati təhlükə yaradır. Buna baxmayaraq, Thai Ngocun gündəlik fəaliyyətlərini davam etdirməsi "tibbi sirr" kimi qiymətləndirilir. Məlumata görə, Ngoc gecələrini tarlada işləməklə və ağır fiziki işlərlə keçirir. Onun üzərində aparılan bəzi müşahidələrdə daxili orqanlarının sağlam olduğu və yuxusuzluğun tipik fəsadlarının görünmədiyi bildirilib. Bəzi alimlər isə ehtimal edir ki, o, fərqinə varmadan gün ərzində saniyəlik "mikroyuxular" yaşayır. Lakin Ngoc bu iddiaları qəbul etmir və hər an ayıq olduğunu deyir. Hazırda alimlər onun beyin quruluşu və maddələr mübadiləsinin yuxusuzluğa necə bu qədər davam gətirdiyini hələ də dəqiq izah edə bilməyib.

# *Nəzakət Məmmədli:* "Bəzən elə şeirləri redaktə edirdi ki..."

**Bu gün şairə, "Ulduz" jurnalının poeziya şöbəsinin rəhbəri Fərqanə Mehdiyevanın doğum günüdür. O, 1964-cü ildə Salyan rayonunun Ərəbqardaşbəyli kəndində anadan olub.**

Orta məktəbi bitirikdən sonra Bakı Mədəni-maarif texnikumunun Rejissorluq fakültəsini fərqlənmə diplomu ilə, daha sonra N.Tusi adına Pedaqoji Universitetin Filologiya fakültəsini bitirib.

Sözə olan sevgisi onun yolunu Azərbaycan Yazıçılar Birliyindən salıb. Orada işlədiyi müddət ərzində xalq şairlərinin, xalq yazıçılarının, gənc yazarların böyük sevgisini qazanıb.

Tale bu yolda ona vəfalı dostlar da qazandırıb.

Fərqanə Mehdiyeva ilə bağlı xatirələrini Adalet.az-a danışan "Yada düşdü" jurnalının baş redaktoru, şairə Nəzakət Məmmədli onunla birlikdə keçirdiyi günləri belə xatırlayır:

"Fərqanə söz adamı idi. Bundan əlavə də bir insan kimi , bir ana kimi mislsiz bir qadın idi. Yaşasaydı, 62 yaşını qeyd edəcəkdi. Onunla uzun illər dostluq etmişik. Bizi birləşdirən ən böyük dəyər qələmimiz idi. Daha dəqiq desək, bizi SÖZ birləşdirib. Deyirdi ki, Nəzakət, şeirə çox az vaxt ayırırsan.

Həmişə mənə deyirdi ki, gədəbəylilər arvada necə vaxt ayırırsa, sən də şeirə elə vaxt ayırırsan. Həyat yoldaşı gədəbəyli idi deyə, mənimlə belə bir zarafat edirdi. Onun bu zarafatına həmişə gülürdüm. Yəni ən axırda yada düşür ki, şeir də lazımdır. Mən də işlərimlə əlaqədar şeirə çox az vaxt ayırıram.

Onun itkisini çox ağır yaşadım. Səhhətinin ən ağır durumunda yanına getdim. Sonra çox pis oldum, kaş gedib onu elə görməzdim. Yaddaşımda son olaraq elə deyib-gülən, şən, qayğıkeş Fərqanə kimi qalardı.



Hər axşam telefonla danışardıq. Sanki işlərimizlə bağlı bir- birimizə hesabat verirdik. Bundan zövq alardıq.

Təəssüf ki, onu çox tez itirdik. Xəstəliyi ilə bağlı çox əziyyət çəkirdi.

Ancaq sevinirəm ki, ömür vəfa etdi, o, oğlunun toyunu gördü. Yeni ev almışdı. Orda az müddət də olsa yaşadı.

Həmişə təzə evindən danışırdı. Deyirdi ki, həyatim olmasa da, eyvanım var. Orda çoxlu gül-çiçək əkib, özüm üçün balaca bağça düzəldəcəm. Ailəsinə, evinə bağlı insan idi. Şeiri də balası kimi sevirdi".

N. Məmmədli illərin dostu, söz adamı Fərqanə Mehdiyevanın sağlığında layiqli dəyərini almadığı üçün təəssüf hissi keçirdiyini söyləyib:

"Çox qəribə idi, oğlu ilə arasındakı bağlı fövqəl hiss idi. Həmişə deyirdi ki, sanki övladlarımın yeri dəyişik düşüb. Oğlum qızımdan daha yanımcıl, daha mehribandır. Ülfətlə ana-bala olmaqla yanaşı, həm də bir dost idilər.

Bir dəfə onu Ülfətlə xəstəxanaya yerləşdirdik. Çox narahat idim ki, görəsən qızı gəlib yanında qala biləcəkmi? Bunu Ülfətə deyəndə mənə dedi ki, onun həm oğlu, həm də qızıyam. Yanında özüm qalacam. Ülfət anasına bu qədər mehriban davranırdı.

Qızından görmək istədiklərini, Ülfət ona yaşadırdı. Məni ən çox incidən məqamlardan biri də ona layiqincə dəyərin verilməməsi idi. O, sağlığında layiqli dəyərini almadı. Ona 50 illik yubiley tədbiri keçirilməsini mən onun özündən də çox gözləyirdim.

Ancaq bütün bunlara baxmayaraq Fərqanə neçə- neçə qəlblərdə yaşayır, sevilir, anılır. İnsan var ki, cild-cild kitablar yazır, amma heç bir cümləsi də yadda qalmır. Ancaq onun "Təndir" şeiri yaradıcılığının şah əsəridir. Fərqanə deyiləndə "Təndir"şeiri yada düşür.

Ruh dostum haqqında keçmiş zamanda danışmağını mənəvi ağrısı dözülməzdir.

Onun dəfni pandemiya vaxtına təsadüf etdi. O səbəbdən dəfninə çox az adam gəldi. Yazıçı və şairlərdən Elçin Hüseynbəylini orda gördüm.

Fərqanə gənc yazarların anası idi. Gənc yazarlar ona "Şeir anamız" deyirdilər.

Şeir Fərqanə üçün çox müqəddəs idi. Bəzən elə şeirləri redaktə edirdi ki, onun vaxtına heyfim gəlirdi. Kimsə bu haqda ona nəsə deyəndə də deyirdi ki, məzmunca zəif olsa da, şeirdi. Onu möhkəm- möhkəm əzizləyirdi.

**Fərqanə dünyasını dəyişəndən sonra gənc yazar Qabil Ədalət onun adına ədəbi məclis yaratdı - "Fərqanə ədəbi məclisi". Bu da Fərqanənin yaddaşlarda yaşaması üçün böyük addımdır".**

Əntiqə KƏRİMZADƏ

## *Hansı xroniki xəstələr oruc tutmamalıdır?*



**"Ramazan orucu zamanı uzunmüddətli aclıq və susuzluq bəzi xroniki xəstəliklər üçün ciddi risk yarada bilər".**

**Adalet.az xəbər verir ki. bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" efirində Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Nahid Məhərrəmov deyib.**

**Onun sözlərinə görə şəkərli diabetin, xüsusilə insulinlə müalicə olunan formaları risk qrupuna daxildir:**

**"Tez-tez hipoqlikemiya yaşayan diabet xəstələrində oruc təhlükəli ola bilər. Dərmanlarla çətin tənzimlənən arterial hipertenziya oruc zamanı ağırlaşa bilər. Ürək çatışmazlığı olan xəstələrdə maye balansının pozulması riski yüksəkdir. Bundan əlavə, yaxın zamanda infarkt keçirmiş şəxslərə oruc tövsiyə edilmir. Ürək ritm pozğunluğu olan xəstələrdə elektrolit dəyişiklikləri problem yarada bilər. Xroniki böyrək çatışmazlığı, xüsusilə irəliləmiş mərhələdə olan xəstələr üçün risklidir".**

**Mütəxəssis-ekspert bildirib ki, dializ alan xəstələr oruc tutmamalıdır:**

**"Həmçinin qaraciyər sirrozu olan xəstələrdə aclıq metabolik pozğunluqlara səbəb ola bilər. Aktiv hepatitlər zamanı oruc vəziyyəti ağırlaşdıra bilər, mədə və onikibarmaq bağırsaq xorasının aktiv dövrü risklidir. Xroniki qastrit və reflüks xəstələrində də bu zaman şikayətlər arta bilər. Bronxial astmanın ağır formalarında oruc tutmaq problem yarada bilər. Xroniki ağciyər xəstəliyi olan və oksigenə ehtiyacı olan xəstələr Ramazan ayında ehtiyatlı olmalıdır".**

**N.Məhərrəmov vurğulayıb ki, epilepsiya xəstələrində dərman qəbulunun gecikməsi tutmaları artıra bilər:**

**"Parkinson və digər nevroloji xəstəliklərdə dərman rejimi pozula bilər. Onkoloji xəstələrdə ümumi vəziyyətə görə fərdi qərar verilməlidir. Anemiyası olan insanlarda Oruc tutan zaman başgicəllənmə və ürəkbulanma ola bilər. Hamilələr, yanaşı xroniki xəstəliyi olan qadınlar risk altındadır. Bu səbəbdən hər bir xroniki xəstə üçün oruc tutmaq fərdi şəkildə qiymətləndirilməlidir".**

Sübhan

# Uzun iş saatları məhsuldarlığa mənfi təsir göstərir

**Kanadanın Toronto Universiteti alimləri insanların yüksək zehni aktivlik dövrlərinin məhsuldarlığa necə təsir etdiyini anlamağa imkan verən eksperiment aparıblar.**

Adalet.az xəbər verir ki, 12 həftə ərzində tədqiqatçılar hər gün düşüncə aydınlığını ölçən qısa tapşırıqlar yerinə yetirən tələbələri müşahidə ediblər. İştirakçılar məqsədləri, uğurları, əhval-ruhiyyələri, yuxu keyfiyyəti və iş yükü barədə müntəzəm hesabatlar təqdim ediblər.

Araşdırmanın məqsədi bəzi günlərdə niyə düşüncənin daha aydın, digər günlərdə isə diqqətin dağınıq və "zehni dumanlı" olduğunu müəyyənləşdirmək idi. Məlum olub ki, tələbələrin zehni daha kəskin olanda onlar yalnız planlaşdırılan işləri daha yaxşı yerinə yetirmir, həm də qarşılarına daha iddialı məqsədlər qoyurlar. Koqnitiv aydınlığın azaldığı dövrlərdə isə iştirakçılar əsasən sadə cari işlərlə kifayətlənir, böyük tapşırıqları təxirə salırlar.

Tədqiqat göstərib ki, yaxşı yuxudan sonra və günün birinci yarısında iştirakçıların koqnitiv göstəriciləri daha yüksək olur. Günortadan sonra isə aktivlik azalır. Motivasiya və diqqət zehni itiqliklə birbaşa əlaqəli olub, stress isə koqnitiv funksiyaların zəifləməsinə səbəb verib.

Alimlərin qənaətinə görə, "yüksəliş" dövrləri gündə əlavə 30-40 dəqiqə işləməyə bərabər məhsuldarlıq effekti yaradır.

Eyni zamanda müəyyən olunub ki, qısa müddətli (1-2 gün) iş yükünün və diqqətin artması məhsuldarlığı yüksəldə bilər, çünki insanlar qısamüddətli tapşırıqlar üçün səfərbər ola bilirlər. Lakin həftəboyu davam edən uzunmüddətli artıq işləmə əks effekt verir: diqqət zəifləyir və məqsədlərin icrası çətinləşir. Araşdırmanın nəticələri "Science Advances" jurnalında dərc olunub.

# "Azərbaycanın təxminən 1 ildən bir qədər artıq su ehtiyatı var"



**"Azərbaycanda hazırda su qıtlığı müşahidə olunmur, lakin mövcud ehtiyatlar uzunmüddətli dövr üçün yetərli hesab edilmir".**

Adalet.az "Report"a istinadən xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) Strategiya, beynəlxalq əməkdaşlıq və elm şöbəsinin rəisi Riad Axundzadə "Su təhlükəsizliyi Azərbaycanda: Tənzimləmə, risklər və biznesin məsuliyyəti hərəkətləri" mövzusunda keçirilən dəyirmi masada bildirib.

Onun sözlərinə görə, hazırda ölkənin su anbarlarında təxminən 16-17 milyard kubmetr su ehtiyatı mövcuddur, illik istehlak isə 11-12 milyard kubmetr təşkil edir: "Bu, təxminən bir ildən bir qədər artıq su ehtiyatı deməkdir. Lakin bu, kifayət deyil. Eyni zamanda, köhnəlmiş infrastruktur səbəbindən suyun paylanması zamanı ciddi itkilər yaranır.

Su ehtiyatlarının səmərəli idarə olunması və itkilərin azaldılması prioritet istiqamətlərdəndir".

## *"Qəlpə adamın başını qopardı, üç dostumu əsir götürdülər" - Xocalıda sonuncu toyun bəyi*

**Xocalıda sonuncu toyun bəyi Vasif Qafarovdur. V.Qafarov 1965-ci ildə Xocalıda anadan olub. O, 1992-ci ildən Xocalı Özünümüdafiə Batalyonunun döyüşçüsü olub. Müsahibimiz həmin gecəni belə nəql edib və Xocalıdan çıxanda 26 yaşı olduğunu bildirib:**

"Bizim postumuz aeroporta yaxın ərazidə yerləşirdi. Düşmən artilleriyadan iki saat postumuzu atəşə tutdu. Qarqar çayının Alma bağı deyilən ərazisindən müşahidə edirdik və 366-cı polkun iki BMP-si aeroport istiqamətində Xocalıya girdi. İnsanlar isə zirzəmilərə sığınmışdı. Biz insanları evlərdən çıxarıb xilas etmək üçün şəhərdən aparmağa çalışdıq. Kətik meşəsinin yanında Çayqovuşan deyilən yerdə guya ermənilər əhalinin çıxması üçün koridor qoymuşdular. Gecə saatlarında millət ora toplaşdı".



O, deyib ki, qarlı, şaxtalı gecədə insanlar Qarqar çayını keçməyə məcbur olublar:

"Çayı keçib meşəyə girdik. Ağdam istiqamətində getməyə başladıq. Səhərə yaxın Qaraqaya deyilən istiqamətə çatanda gördük ki, atışma səsləri gəlir. Sən demə bizdən irəlidə gedənlər ermənilərin mühasirəsinə düşübmüşlər. Biz ora çatanda Əsgəran istiqamətindən iki "BTR" və iki "ZİL 131" gəldi. Onların içində hərbçilər dolu idi. BTR yolun ortasında dayandı və kim Ağdam-Şelli istiqamətinə keçə bildisə, keçdi, keçə bilməyəni isə meşəyə doldurdular".

V.Qafarov həmin yerdə xeyli insanın ermənilər tərəfindən şəhid edildiyini bildirib:

"Qəlpə gözümün qabağında adamın başını qoparıb apardı. Adamların sağ qalanlarını isə əsir götürdülər. Mənim üç dostum əsir düşdü. Xocalıda mənim toyum sonuncu toy kimi xatırlanır. 1992-ci il yanvarın 18-də toyum oldu. Elə toyu da atışmaya görə yarımçıq kəsdik. Şəkildə gördüyünüz dostlarım əsir düşdülər və indiyə kimi onlardan xəbər yoxdur".

Qeyd edək ki, Xocalı işğaldan azad ediləndən sonra Vasif Qafarovun toy səhnəsi ilə bağlı sənədli film çəkilib.

Vasif ƏLİHÜSEYN

*Bakcell və Gənclər Fondu Qarabağ Universitetində tələbələrlə görüş keçirdi*

**İnnovasiya lideri Bakcell və Azərbaycan Respublikasının Gənclər Fondu Qarabağ Universitetində "İnnovasiya və Süni İntellekt" təqaüd proqramına dair məlumatlandırma görüşü keçirib.**

Adalet.az xəbər verir ki, görüşdə universitetin tələbələrinə proqramın məqsədi, seçim meyarları, təlim istiqamətləri və ümumi proses barədə ətraflı məlumat verilib, daha sonra isə onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, gənclərin proqram haqqında daha dolğun məlumat əldə etməsinə töhfə verən məlumatlandırma görüşləri növbəti günlərdə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan-Fransız Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetində keçiriləcək.

Təqaüd proqramı çərçivəsində seçilmiş iştirakçılar süni intellekt, data analitikası, proqramlaşdırma və UI/UX dizayn kimi gələcəyin peşələri üzrə praktiki təlimlərə cəlb olunacaqlar. Proqram müddətində ümumilikdə 150 gəncin bu imkanlardan yararlanması nəzərdə tutulur.

Bu təşəbbüs Bakcell və Gənclər Fondunun birgə tərəfdaşlığı çərçivəsində gənclərin potensialının üzə çıxarılmasına, innovasiya ekosisteminin gücləndirilməsinə və regionda gənc mütəxəssislərin formalaşmasına töhfə verməyi hədəfləyir.

Təqaüd proqramına müraciət etmək istəyən 18-29 yaş aralığında və İT sahəsi üzrə baza biliklərinə malik gənclər link vasitəsilə1 mart tarixinədək qeydiyyatdan keçə bilərlər. Proqrama indiyədək 1600-dən çox müraciət daxil olub.

**Bakcell haqqında**

**Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.**

**Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**

---

**Aysel KƏRİM**
**Azərbaycan Bəstəkarlar İttifaqının üzvü**



# Xocalı: Unudulmaz yaddaşın musiqi ilə danışdığı axşam

**23 fevral 2026-cı il tarixində, Kamera və Orqan Musiqisi Zalında keçirilən "Xocalı - Unudulmaz yaddaş" anım mərasimi yalnız bir konsert deyildi; bu, kollektiv yaddaşın estetik ifadəsi, tarixi həqiqətin musiqi dili ilə təcəssümü idi. Axşamın təşkilatçıları sırasında Azərbaycan Dövlət Akademik Filarmoniyası və Bakı Dövlət Kamera Orkestri yer alırdı. Baş dirijor Fuad İbrahimovun rəhbərliyi ilə səslənən proqram, faciənin ağrısını təkcə xatırlatmadı - onu düşüncə, sənət və mənəvi məsuliyyət müstəvisinə yüksəltdi.**

### *Tarix və yaddaşın estetikası*

Xocalı faciəsi Azərbaycan xalqının tarixi yaddaşında sağalmaz bir yara, eyni zamanda milli həmrəyliyin və dirənişin simvoludur. Anım mərasimləri çox vaxt rəsmi çərçivədə qapanır; lakin bu axşam sənət vasitəsilə yaddaşın dərin qatlarına enmək cəhdi idi. Musiqi burada informasiya ötürmürdü - o, hissin, sükutun və düşüncənin özünü danışdırırdı. Zalın yarıqaranlıq ab-havasında şam işığını xatırladan işıq effektləri, səssiz gözləyən auditoriya - bütün bunlar kollektiv sükutun ritmini yaradırdı. Bu sükut, əslində, danışırdı: o, tarixə yönəlmiş sualların, ədalət axtarışının və unutmamaq andının sükutu idi.

### *Aqşin Əlizadənin simfonik fəryadı*

Proqramın ilk əsəri görkəmli bəstəkar Aqşin Əlizadənin səs və simli orkestr üçün yazdığı IV Simfoniyası - "Muğamvari" idi. Əsər struktur baxımından muğam təfəkkürünün simfonik transformasiyası kimi səciyyələnir. Burada ənənə ilə modernizm qarşı-qarşıya deyil; əksinə, bir-birini tamamlayan iki estetik istiqamət kimi qovuşur. "Muğamvari"nin melodik xətti sanki milli yaddaşın genetik kodunu daşıyırdı. Orkestrin simli qruplarında eşidilən incə tremololar, qəfil dinamik yüksəlişlər və vokal partiyanın fəlsəfi intonasiyası - bütün bunlar faciənin emosional panoramasını qururdu. Vokal partiyanı ifa edən Ərəstun Quliyevin səsi təkcə musiqi materialını deyil, eyni zamanda tarixi ağrının metafizik yükünü daşıyırdı. Onun səsindəki titrəyiş sanki bir xalqın sarsılmış nəfəsi idi.

Dirijor Fuad İbrahimovun interpretasiyası xüsusi qeyd olunmalıdır. O, tempi yalnız texniki parametr kimi deyil, mənəvi gərginliyin ölçüsü kimi qururdu. Pauzalar - xüsusilə də kulminasiyadan əvvəlki sükut anları - auditoriyanı düşünməyə məcbur edən estetik fasilələr idi. Bu fasilələrdə zaman dayanır, yaddaş danışırdı.

### *Firəngiz Əlizadənin "Şüştər"i: Metamorfoz və kədərin fəlsəfəsi*

Axşamın ikinci monumental məqamı dünya şöhrətli bəstəkar Firəngiz Əlizadənin "Şüştər" ("Metamorphosis") əsəri oldu. "Şüştər" ladının özünəməxsus hüznlü intonasiyası burada yalnız milli koloriti ifadə etmir; o, kədərin fəlsəfi dərinliyini açır.

Əsər boyu musiqi motivləri transformasiyaya uğrayır, dəyişir, yenidən doğulur. Bu metamorfoz prosesi Xocalı yaddaşının zaman içində keçdiyi mərhələləri xatırladır: ilkin şok, dərin matəm, düşüncə, sonra isə qürur və dirəniş. Musiqidəki dissonanslar həyatın pozulmuş harmoniyasını simvolizə edir, lakin finala doğru yaranan nisbi sabitlik ümidin sönmədiyini göstərir.

Firəngiz Əlizadənin kompozisiya dili postmodern elementlərlə zəngin olsa da, onun emosional mərkəzi milli köklərə bağlıdır. Bu bağlılıq əsəri lokal çərçivədən çıxararaq universal humanist manifestə çevirir. Çünki faciənin dili millət tanımır; ağrı ümumbəşəridir.

### *Musiqi və kollektiv katarsis*

Bu anım gecəsi, əslində, kollektiv katarsis aktı idi. Sənət qorxu və mərhəmət hissləri vasitəsilə ruhu saflaşdırır. Burada da musiqi auditoriyanı emosional sarsıntıya uğratdı, lakin bu sarsıntı dağıdıcı deyil, təmizləyici idi. Zalda əyləşən insanların üz ifadələrində fərqli talelər, fərqli xatirələr vardı. Kimi gözlərini yumub dinləyir, kimi səhnəyə zillənmiş baxışlarla donub qalırdı. Amma hamını birləşdirən ortaq cəhət vardı: unutmamaq iradəsi.

Xocalı artıq təkcə tarix dərsliyindəki fakt deyil; o, musiqidə yaşayan, sənətdə nəfəs alan, hər yeni nəslə ötürülən mənəvi yaddaşdır. Bu yaddaşın qorunması isə yalnız siyasi və hüquqi müstəvidə deyil, estetik müstəvidə də vacibdir. Çünki sənət yaddaşı duyğuya çevirir, duyğu isə insanı hərəkətə gətirir.

### *Sənətin məsuliyyəti və gələcəyə baxış*

"Xocalı - Unudulmaz yaddaş" anım mərasimi göstərdi ki, musiqi sadəcə estetik zövq vasitəsi deyil; o, tarixi şüurun formalaşmasında mühüm rola malikdir. Bu cür konsertlər gənc nəslə tarixlə emosional bağ qurma imkanı verir.

Akademik baxımdan yanaşdıqda, proqramın seçimi təsadüfi deyildi. Hər iki bəstəkarın əsərlərində milli intonasiya sistemi ilə müasir kompozisiya texnikalarının sintezi müşahidə olunur. Bu sintez Azərbaycan musiqi mədəniyyətinin inkişaf trayektoriyasını nümayiş etdirir: kökə bağlılıq və yeniliyə açıq olmaq. Poetik müstəvidə isə bu tədbir bir and idi. Sözsüz bir and. Simli alətlərin titrəyən səsləri, dirijor çubuğunun havada çəkdiyi görünməz xətlər, vokalın yüksəlib səmaya qarışan fəryadı - hamısı bir cümlə qururdu: "Unutmayacağıq."

Sonda zalı tərk edərkən hiss olunurdu ki, hər kəs daxilində bir az daha ağır, amma bir o qədər də aydınlanmışdır. Ağır - çünki yaddaşın yükü yüngül deyil. Aydın - çünki həqiqət musiqinin işığında bir daha görünür olmuşdu.

Xocalı faciəsi zaman keçdikcə tarixə çevrilir, lakin o, heç vaxt keçmişdə qalmır. O, hər fevralda yenidən doğulur, hər musiqi frazasında yenidən səslənir. Və bu səsləniş bizə xatırladır: yaddaş yalnız xatırlamaq deyil, həm də məsuliyyətdir.

Bu axşam musiqi danışdı. Və biz dinlədik. Bu anım gecəsi bir daha sübut etdi ki, tarix yalnız arxivlərin tozlu səhifələrində yaşamır; tarix musiqidə nəfəs alır, sükutda danışır və insanın daxilində mənəvi məsuliyyət kimi boy göstərir. Xocalı yalnız bir faciənin adı deyil, o, milli yaddaşın etik imperatividir. Bu yaddaş bizi intiqama deyil, həqiqətə; nifrətə deyil, ədalətə; unutqanlığa deyil, şüurlu xatırlamaya səsləyir.

Konsert zalında səslənən hər bir akkord, hər bir pauza əslində kollektiv travmanın estetik sublimasiyası idi. Musiqi burada sadəcə incəsənət hadisəsi deyildi - o, milli özünüdərk aktına çevrilmişdi. Simfonik dilin dərin qatlarında kədərin fəlsəfəsi, insan ləyaqətinin sınmazlığı və zamanın qarşısında əyilməyən həqiqət duyulurdu. Çünki Xocalı haqqında danışmaq - yalnız keçmişi xatırlamaq deyil, həm də gələcək qarşısında mənəvi məsuliyyət daşımaqdır.

Faciə insanın varlıq sualını sərtləşdirir: insan nə qədər qəddar ola bilər və insan nə qədər uca qala bilər? Xocalı bu iki qütbün ən ağrılı toqquşma nöqtəsidir. Lakin həmin gecə millətimiz bir daha gördü ki, şərin səsi nə qədər gur olsa da, xatirənin və həqiqətin səsi ondan daha davamlıdır. Çünki həqiqət zamanla zəifləməz; əksinə, zaman onu daha da saflaşdırar.

Musiqi bizə pıçıldayırdı ki, unutmaq ikinci bir itkidir. Yaddaş isə dirənişdir. Xatırlamaq isə mənəvi dirilmədir. Gözlərdəki yaş zəifliyin deyil, mənəvi oyanışın əlaməti idi. Çünki ağlamaq - insanın içindəki mərhəmətin hələ də yaşadığını göstərir. Və mərhəmət yaşadıqca, ümid də yaşayır.

Xocalı şəhidlərinin ruhu qarşısında baş əyərkən anlayırıq ki, tarix bizim yaddaşımızda yaşadığı qədər gələcəyimizdə də yaşayacaq. Əgər biz xatırlayırıqsa, deməli onlar unudulmayıb. Əgər biz danışırıqsa, deməli həqiqət susmayıb. Və sonda zalı bürüyən o dərin sükut - bəlkə də ən böyük nitq idi. Çünki bəzi həqiqətlər sözlə deyil, vicdanla anlaşılır.

**Xocalı - bir şəhərin adı olmaqdan çox, bir millətin vicdan möhürüdür. O möhür silinməz. O yaddaş sönməz. O acı zamanın içində donub qalmadı - o, bizi daha həssas, daha ayıq, daha insan olmağa çağıran əbədi bir çağırışa çevrildi.**

---

# "Bir çox regionda ilkin tibbi-sanitariya yardımı vətəndaşın real ehtiyacını qarşılamır"

**"Bu gün bir çox regionda ilkin tibbi-sanitariya yardımı infrastrukturu, kadr təminatı və xidmət spektri vətəndaşın real ehtiyacını tam qarşılamır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Müşfiq Məmmədli "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı deyib.

"Biz indiki mərhələdə müştərək maliyyələşmə mexanizmini sərt şəkildə tətbiq etsək, vətəndaş faktiki olaraq keyfiyyətli alternativ xidmət olmadan əlavə maliyyə yükü ilə üz-üzə qalacaq. Bu isə sosial baxımdan həssas qruplar üçün əlavə çətinliklər yaradır. İkinci səbəb odur ki, göndəriş sistemi hələ institusional olaraq formalaşmayıb.Qanunvericilikdə göndəriş mexanizmi nəzərdə tutulsa da, praktikada ailə həkiminin xəstənin marşrutunu müəyyən edən əsas fiqur kimi rolu hələ tam formalaşmayıb. Həmçinin, informasiya sistemləri və vahid elektron göndəriş mexanizmi bütün ölkə üzrə stabil fəaliyyət göstərmir. Belə şəraitdə birbaşa ixtisaslaşdırılmış həkimə müraciətə görə vətəndaşa maliyyə sanksiyası tətbiq etmək, mexanizmi möhkəmləndirmir, əksinə sosial dövlət prinsipləri ilə uzlaşmır. Məqsəd müştərək maliyyələşmə tətbiq etmək yox, davranışı dəyişməkdir. Bu normanın əsas fəlsəfəsi vətəndaşı ailə həkiminə yönləndirməkdir. Amma bu yalnız o halda mümkündür ki, ilkin səhiyyədə qəbul imkanları real olsun, laborator və diaqnostik minimum paket yerində təmin edilsin və ailə həkiminin verdiyi göndəriş sürətli şəkildə icra olunsun. Əks halda vətəndaş üçün ilkin mərhələ əlavə maneəyə çevrilir", - deyə deputat bildirib.

M.Məmmədli qeyd edib ki, icbari tibbi sığortanın maliyyə dayanıqlığı ilkin səhiyyədən başlayır: "Bütün beynəlxalq təcrübə göstərir ki, xəstəxana və ixtisaslaşmış xidmətlər üzərində qurulan sistemlər uzunmüddətli perspektivdə daha baha başa gəlir.

Əgər biz doğrudan da icbari tibbi sığortanın davamlı olmasını istəyiriksə, ilkin mərhələdə erkən diaqnostika, xroniki xəstəliklərin nəzarəti, profilaktika real maliyyə və təşkilati mexanizmlərlə gücləndirilməlidir. Bu başa çatmadan, müştərək maliyyələşmə mexanizminin tam tətbiqi düzgün ardıcıllıq deyil. Ona görə də hesab edirəm ki, bu uzadılma icbari tibbi sığorta sisteminin mahiyyətinə zidd deyil, əksinə onun sağlam şəkildə qurulması üçün zəruri keçid mərhələsidir və dövlətimizin vətəndaşı ön planda tutmasının bir nümunəsidir. Bu dəyişiklik faktiki olaraq ilkin səhiyyəni aparılan sistemli islahatlar yolu ilə gücləndirərək səhiyyə modelinin mərkəzinə gətirməyə xidmət etməlidir".

Qeyd edək ki, icbari tibbi sığorta çərçivəsində müştərək maliyyələşmə məbləği gələn il yanvarın 1-dən ödəniləcək.

# Əlişir Nəvai və Akif Azalp

## (Dahi özbək şairinin Azərbaycan poeziyasına təsiri barəsində düşüncələr)



*Yaşar Qasımbəyli,*
*filologiya elmləri doktoru, professor, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institutunun baş elmi işçisi*

**Türk xalqlarının dahi şairi və mütəfəkkiri Əlişir Nəvainin yaradıcılığı orta əsrlərdən başlayaraq dünya və Şərq alimlərinin diqqətini özünə cəlb etmişdir. XV əsrdən üzü bəri, hələ böyük şairin sağlığında onun əsərlərini təbliğ və təşviq edənlər, ustad sənətkara nəzirə yazanlar, onun əsərlərini müxtəlif təzkirələrə, cünglərə və bəyazlara daxil edənlər çox olmuşdur. Şərq ədəbi ənənəsinə uyğun olaraq orta əsrlərdə hətta dahi sənətkarlar, o cümlədən Ə.Nəvai haqqında da ayrıca elmi tədqiqatlar və əsərlər yaradılmamışdır.**

Yalnız XIX əsrdən başlayaraq Avropa və Rusiya şərqşünaslığında Ə.Nəvai yaradıcılığına münasibət bildirilmiş, xüsusən, onun "Xəmsə"si yüksək dəyərləndirilmişdir. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Rusiya şərqşünasları, türkoloqları və başqa Şərq ədəbiyyatı mütəxəssisləri Ə.Nəvai əsərlərinə müntəzəm olaraq müraciət etmiş, onun "Xəmsə"sinə, əsasən, müqayisəli ədəbiyyatşünaslıq kontekstində yanaşmışlar. Dünya şöhrətli alimlərin və türkoloqların elmi-nəzəri tədqiqatlarında Əbülqasim Firdovsi, Ömər Xəyyam, Xaqani Şirvani, Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi, Cəlaləddin Rumi, Sədi Şirazi, Hafiz Şirazi, Şah İsmayıl Xətai, Zahirəddin Məhəmməd Babur və Məhəmməd Füzuli kimi dahi klassiklərin sırasında Əlişir Nəvai yaradıcılığına da geniş yer ayrılmış və onun möhtəşəm Şərq poetik panteonunun ən parlaq ulduzlarından biri olması əlahiddə vurğulanmışdır. Böyük alimlərin ədəbi-nəzəri təhlil və tədqiqlərində Nəvai yaradıcılığının bir çox xüsusiyyətləri, məziyyətləri ayrıca qeyd olunmuş və qabardılmışdır. Dahi özbək şairinin türk ədəbi dilinin təşəkkülündə və şəkillənməsindəki ardıcıl, son dərəcə gərgin ədəbi zəhmətləri ilə yanaşı bu dilin fars dili səviyyəsindəki yüksək və inkişaf etmiş bir ədəbi dil dərəcəsinə yüksəlməsində Ə.Nəvainin bədii-estetik təcrübəsinin müqayisəedilməz-liyi bir çox alimlər tərəfindən vurğulannmışdır. Dahi sənətkarın Şərq ədəbiyyatı miqyasındakı hamı tərəfindən etiraf olunmuş möhtəşəm yeniliklərindən biri isə türk dilində "Xəmsə"nin meydana gəlməsi ilə bağlı idi. Daha doğrusu, Ə.Nəvai "Xəmsə"sinin Şərq ədəbiyyatı və mədəniyyətindəki növbəti mənəvi-mədəni yüksəlişin - İkinci renessansın bariz və tipik nümunəsi olması dünya şərqşünaslığının həmişə diqqət mərkəzində olmuşdur.

Görkəmli türkoloq və nəvaişünas alim Akif Azalp hələ keçən əsrin 80-ci illərində dahi özbək şairi və mütəfəkkiri Ə.Nəvai yaradıcılığına məhz bu mövqedən yanaşmağın zəruriliyini vurğulayırdı. Həmin illərdə gənc bir mütəxəssis olan və Nəvai irsinin cahan mədəniyyəti kontekstində araşdırılmasını israrla irəli sürən Akif Azalp böyük rus alimlərinin fikirlərinə əsaslanaraq yazırdı ki, Şərq reneassansının möhtəşəm və özünəməxsus hadisəsi kimi Ə.Nəvainin yaradıcılığına diqqəti hələ sovet dönəmində tanınmış ədəbiyyatşünaslardan N.İ.Konrad və Y.E. Bertels kimi nəzəriyyəçilər yönəltmişdilər.

İntibah mədəniyyətinin özünəməxsus estetikasına və mənəvi-mədəni prinsiplərinə əsaslanaraq gənc tədqiqatçı bu nöqteyi-nəzərdən Ə.Nəvai əsərlərinin əsas tələblərə və normativlərə yüksək dərəcədə cavab verdiyini ayrıca qeyd edirdi. İnibahşnünas alim və nəzəriyyəçilərin mülahizələrinə istinad edərək Akif Azalp yazırdı ki, intibah estetikasının mühüm amillərindən biri məhz dil təfəkkürü və milli mədəniyyət uğrunda mübarizə idealı ilə bağlı olduğundan (Avropa renessansının görkəmli simaları tərəfindən italyan və fransız dillərinin inkişafı və çiçəklənməsi üçün yazılan əsərləri yada salaq) hər şeydən əvvəl türk əruzunun və türk dilinin müdafiəsinə qalxan "Mizan ül-övzan" (1492-"Vəznlərin ölçüsü") və "Mühakimət ül-lüğəteyn" (1499-"İki dilin döşləşməsi") kimi əsərlərin müəllifinin yaradıcılığına ümumtürk intibahı baxımından yanaşmanın daha ciddi elmi nəzəri nəticələrə gətirəcəyi şübhəsizdir. Məsələyə daha geniş və müqayisəli-tipoloji müstəvidə yanaşdıqda isə cəsarətlə söyləmək mümkündür ki, dahi Ə.Nəvainin yaradıcılığı məhz ümumtürk intibahı miqyasında türk xalqları söz sənətinin bütün əhəmiyyətli inkişaf mərhələlərini özündə əhatə edən hardasa min illik (XI-XX əsrlər!) cahanşümül bir ədəbiyyat deməkdir.

Avropa və dünya nəvaişünaslığında dahi özbək şairi və mütəfəkkirinin renessans mədəniyyəti ilə qırılmaz surətdə bağlılığı haqqında xeyli sanballı fikilər və mühüm mülahizələr irəli sürülmüşdür. Tanınmış Azərbaycan və Özbəkistan aliminin elmi-nəzəri düşüncələri isə nəinki öz zamandaşlarının, hətta məşhur sələflərinin elmi-nəzəri arqumentlərindən ciddi surətdə fərqlənir. Məsələ bundadır ki, müəllif Ə.Nəvainin Şərq mədəniyyəti tarixindəki İkinci Renessansın təbii və tipik nümayəndəsi olması məsələsinə bir çoxları kimi statik deyil, dialektik və dinamik mənəvi-mədəni proseslər müstəvisində yanaşmağa çalışır. Başqa sözlə, XV əsr Türküstanındakı özünəməxsus renessans hadisəsinin mahiyyətini açarkən onun yalnız müəyyən bir dövrün və hətta bir əsrin deyil, özünəqədərki az qala 500 illik mənəvi-mədəni mübarizələrin hasili olduğunu əsaslandırır. Məhz bu söylədiklərimizi nəzrdə tutaraq müəllif xüsusi qeyd edir ki, Əlişir Nəvaiyə qədərki beş əsrlik (XI-XV əsrlər!) türkdilli söz sənəti dünya ədəbiyyatına və mədəniyyətinə Ə.Nəvai kimi bir intibah hadisəsini bəxş etmək üçün bədii zirvələr və zəfərlərlə zəngin böyük bir hazırlıq mərhələsi keçməli olmuşdur. Həm də bu hazırlıq mərhələsi Turanın və Türküstanın müəyyən bir hissəsində, ölkəsində və ya regionunda deyil, ümumən, çox böyük inzibati-coğrafi məkanlarda və mühitlərdə keçmişdir. Bir tərəfdən Şərqi Turanda (Şərqi Türküstan!) Mahmud Kaşğarlıdan tutmuş Əhməd Yügnəkiyə qədər, başqa bir tərəfdən Mərkəzi Turanda (Mərkəzi Türküstan!) Əhməd Yəsəvidən tutmuş Mövlana Lütfiyə qədər, yenə üçüncü bir tərəfdən isə Qərbi Turanda (Qərbi Türküstan!) İzzəddin Həsənoğludan, Qazi Bürhanəddindən tutmuş Seyyid İmadəddin Nəsimiyə qədər onlarla azman və nəhəng sənərkarlar məhz vurğuladığımız həmin hazırlıq mərhələlərinin dahi yaradıcıları və baniləri idilər. Əlişir Nəvai dühasını məhz elə bu fövqəl xüsusiyyətlərinə və bənzərsiz əlamətlərinə görə tam, dolğun şəkildə, əsl həqiqətə uyğun dərəcələrdə təsəvvür etmək və dəyərləndirmək mümkün olmur; bu bənzərsiz dahi özünə qədərki onlarla bədii möcüzələr yaratmış, ana dilimizi yenidən və yenidən cilalamış, oxşamış və süsləmiş sənətkarların misilsiz zəhmətlərinin, arzularının bəhrəsi kimi zühur etmişdir!

Böyük bir etnosun və onun sonuncu əzəmətli imperiyalarından birinin mədəniyyət mərkəzində yetişmiş renessans dahisi Əlişir Nəvai yaradıcılığının təkrarsız xüsusiyyətlərindən biri də bu zirvənin yalnız şəkillənməsi, yüksəlməsi ilə sona çatmır. Bu böyük hadisənin davamlılığı, özündən sonrakı əsrlərə və dövrlərə işıq saçması və bir-birini əvz edən, yetişdirən, yaşadan ədəbi nəsillərin mənəvi həyatında və yaradıcılığında yaşamasıdır. Görkəmli nəvaişünas haqlı olaraq vurğulayır ki, Əlişir Nəvaidən sonrakı beş əsrlik (XVI-XX əsrlər!) türk dilli ədəbiyyat isə nə qədər yüksək poetik zirvələr və sonsuz bədii üfüqlər fəth edir-etsin, hətta Məhəmməd Füzuli dühası kimi müəyyən janrlar və əsərlər üzrə öz ustadlarından nə qədər irəli gedir-getsin, hər şeydən öncə intibah estetikası, dil və təfəkkürü və milli-etnik özündərk baxımından Əlişir Nəvai ənənələrinin özünəməxsus davamı kimi intibah dahisinin ideyalar və obrazlar aləminin yeni bədii vüsəti kimi heyrətamizdir. Yuxarıda xüsusi qeyd etdiyimiz birinci tezisdən qaynanqlanan və hardasa onun məntiqi davamı olan ikinci tezis isə ondan ibarətdir ki, Əlişir Nəvai yaradıcılığı özündən sonrakı türkdilli ədəbiyyatlar üçün özündən əvvəlki türkdilli (və nəinki türkdilli!) mədəniyyətlərin ən yüksək dəyərlərini və dərin ənənələrini özündə təmərküzləşdirən bir bədii güc mənbəyi və poetik enerji ötürücüsü rolunu oynamışdır. Bu enerji mərkəzinin Azərbaycanın söz sənəti ilə birbaşa və qarşılıqlı münasibətlərinə gəlsək, bir tərəfdən intibah dahisinin öz böyük üstadı şərəfinə "Emas asan bu meydan içrə durmaq, Nizami Gəncəvi pəncəsinə pəncə vurmaq!" kimi mərdanə etirafı ucalırdısa, ikinci tərəfdən bu nida böyük Füzulinin aşağıdakı son dərəcə təsirli və səmimi izharında əks-səda verirdi: "Türkü ərəbü əcəmdə əyyam, Vermiş idi hər şairə bir kam: Olmuşdu Nəvai süxəndan Mənzuri-şəhanşahi-Xorasan!". Və bu da qətiyyən təsadüfi deyildir ki, nəinki Şah İsmayıl Xətayi və Məhəmməd Füzuli kimi yaxın ədəbi xələfləri, XVII, XVIII və XIX əsrlərin poetik zirvələri, hətta yeni dövr Azərbaycan ədəbiyyatının banisi və klassik poetik irsimizi orijinal surətdə dəyərləndirən Mirzə Fətəli Axundzadə, XX əsr poeziyamızın və poeziya haqqındakı elmlərimizin ən parlaq nümayəndələri də Əlişir Nəvai adını sonsuz heyrət və böyük məhəbbətlə tələffüz etmişlər. XX əsrin möcüzələr yaradan sənətkarlarından biri məşhur xalq şairimiz Səməd Vurğunun Nəvai ruhuna sonsuz ehtiramı və onun "Fərhad və Şirin" dastanı motivləri əsasında özünü məşhur "Fərhad və Şirin" pyesini yazması da istedadlı nəvaişünasın dahi sənətkarın poetik konsepti və taleyi ilə bağlı dərin düşüncələrini isbat etməkdədir.

Əlişir Nəvai və Renessans problemi Akif Azalpın elmi əsərlərində mərkəzi mövqeyə malik olduğu kimi, onun bədii yaradıcılığında da mühüm və nəzərəçarpan yer tutmaqdadır. Hələ 70-ci illərdə gənc şairin erkən lirikasında Azərbaycan və Özbəkistanın böyük söz ustalarının sırasında biz dahi şair və mütəfəkkir Əlişir Nəvainin də adına və obarazlarına rast gəlirik. Gənc şairin ilk qələm təcrübələri arasında ustad Əlişir Nəvainin məşhur qəzəllərinə yazılmış nəzirələr, cavanlıq ilhamı və ehtirası ilə yaradılmış özünəməxsus təxmislər də mövcuddur. Onların arasında Əlişir Nəvaiyə bütün Türküstanda şöhrət qazandırmış, bugün də bütün müğənnilərin və Nəvaisevərlərin dilindən düşməyən "Gəlmədi" rədifli qəzəlinə yazılmış və Azərbaycan türkcəsində də son dərəcə gözəl və ahəngdar səslənən cazibədar təxmisi burada ayrıca qeyd etmək yerinə düşər. Müəllifin hələ bu şeirində də öz misilsiz ustadına bakirə sevgisi, məhrəmanə və şairanə duyğuları diqqəti cəlb etməkdədir:

*Seçdiyi oylağına bir ürkək ahu gəlmədi,*
*Könülümü gizlin aparmış tənha dilcu gəlmədi,*
*Hey xəyalımda coşub sellənən arzu gəlmədi,*
*"Gecə gəlmək istəyən ol" sərvi-gülru gəlmədi,*
*Gözlərimə gecə dan atınca uygu gəlmədi".*

Akif Azalpın "Gəlmədi" qəzəlinə yazdığı təxmisin nəinki hər bir bəndində, hətta hər bir misrasında da ustad sənətkarla ruhən yaxınlıq, mənəvi cəhətdən həmrəylik və özünəməxsus bir poetik həmahənglik bariz surətdə hər bir oxucunun və şeirsevərin nəzərinə çarpmaqdadır:

*Bəlkə təkrar imtahan etmək üçün vermiş qərar,*
*Yoxsa, kim istəklisin sübhə qədər qoymuş bidar?!*
*Allah-Allah nə müsibət mehr imiş mehri-didar:*
*"Ləhzə-ləhzə gözlədim, oldum yolunda intizar,*
*Gəldi can ağzıma, amma şuxi-bədxu gəlmədi!"*

Akif Azalpın ötən əsrin 90-cı illərində qələmə aldığı "Ümman" (1991) şeir-portretində isə renessans dahisinin poetik tərümeyi-halına, əzəmətli şəxsiyyətinə və əfsanəvi şeiriyyətinə təkrarsız bir yanaşmanın şahidi oluruq. Məhz bu nöqteyi-nəzərdən öz ədəbi-tarixi əhəmiyyətinə görə "Ümman" mədhiyyəsini Azərbaycan ədəbiyyatında dahi milli söz sənətkarlarımıza ithaf edilmiş ən məşhur sənət nümunələri ilə müqayisə etmək olar. Qeyri-ixtiyari olaraq XX əsr poeziyamızda yazılan və onun ən görkəmli nümayəndələrinin dahi mütəfəkkrimiz Nizami Gəncəviyə həsr etdikləri emosional sənət əsərləri yadımıza düşür. Elə buradaca XX əsr şeirimizin qızıl fondundan özünə yer alan, milli söz sənətimizin çoxdan şedevrinə çevrilmiş Bəxtiyar Vahabzadənin "Məhəmməd Füzuli", Xəlil Rza Ulutürkün "Seyid İmadəddin Nəsimi", Məmməd Arazın "Füzuli", Əli Kərimin "Şəhidləyin zirvəsi", "Füzuli" və başqa sözün əsl mənasındakı bədii möcüzələr yadımıza düşür. XX yüzil Özbək şeirində də milli poeziyanın ulu babasına ithaf olunmuş sənət nümunələri heç də bizdəkindən az deyil. XX əsr özbək şeirinin klassikləri Aybəkin, Qafur Qulamın, Maqsud Şeyxzadənin, Mirtemirin, Uyğunun, Zülifyyə xanımın, Əsəd Muxtarın, Şöhrətin, Şükrullanın məşhur mədhiyyələri ilə bir sırada ən parlaq özbək altmışıncılarından Erkin Vahidovun, Abdulla Aripovun, Aman Mətcanın, Çolpan Erqaşın, Camal Kamalın, Rauf Pərfinin, Abdulla Şirin, Süleyman Rəhmanın və bir çox başqalarının bu mövzudakı şeirləri diqqətəlayiqdir. Akif Azalpın "Ümman"ında Özbəkistan və Azərbaycan poeziyasının bu yöndəki qiymətli və zəngin estetik təcrübəsi məharətlə ümumiləşdirilib. Bu gözəl şeirin elə başlanğıc misralarından ulu sənətkara ünvanlanmış Nizami Gəncəvi nəfəsli, Seyid İmadəddin Nəsimi havalı, Məhəmməd Füzuli ehtiraslı qədim və doğma bir sevginin ətrini, dadını duyuruq: "Kom istab to'rt ummon ihotasida Zamin ko'z tukkanda cheksizlik tomon, So'nggi mingyillikning qoq o'rtasida Guvillay boshladi boshqa bir ummon. Sarkash to'lqinlari ko'klarga tutash, Cho'ng xazinalari so'zda namoyon, Qit'alar quchganc-ha ulg'aydi yakkash, To'rt ummon bir yon-u u o'zi bir yon".

Şeirin 8 misralıq birinci hissəsində yeni bədii ümmanın doğuluş və yaranış zərurətindən, ehtiyaclarından söz açılır. Dünyamızda yeni ümmanın doğuluşu, təbii ki, aləmşümül hadisədir. Müəllif bu hadisənin baş verdiyi məkanını və zamanını dəqiq təyin etməyi məqsədə uyğun sayır; dörd ümman əhatəsində və mühasirəsində nəfəs alan ana zəmin beşinci ümmanı arzulayaraq göylərə üz tutur. Həmişə səxavətli göylər isə bizim zəminimizin bu iltimasını cavabsız qoymur. Tarix: ikinci minilliyin düz ortasında, yəni 1441-ci ildə bəşəriyyətin beşinci ümmanı dünyaya təşrif buyurur. Birdən birə uğuldamağa, dalğalanmağa başlayan bu ümmanın öz gücünə və qüdrətinə məftun coşğun suları, ləpələri göylərə can atır. Bu ümmanın cazibəsi və xəzinəsi sözdür. İlahi nəfəs, ilahi qüdrət və ilhamla yoğrulmuş Söz! Anamız Yer və onun mehriban qitələri bu yeni ümmanı - əzəli dörd ümmandan sonra ərsəyə gəlmiş gənc ümmanı hamıdan çox sevməyə və dəyərləndirməyə can atır. Sanki həmin dörd ümman bir yandır, yeni - söz və sənət ümmanı isə bir yan! Şair bu sehrli söz ümmanının yaranış səbəbləri və mənşəyi barəsində aşağıdakı misralarda bizə daha geniş məlumat və bilgilər təqdim edir:

*Bashar zor qolganda nurga, ziyoga,*
*Asov daryolari qo'ynida suron,*
*Uni berish uchun bir kam dunyoga*
*Besh asr to'lg'andi dard tutgan Turon.*

Orta əsrlərin zülmətləri bağrını dələn, nur və işıq həsrətində yanıb-yaxılan insanlığın qəlbini işıqlandıran bu ümmanın var olması üçün Turan elləri beş yüz il iztirab çəkdilər. Düz beş əsr ilahi ənginliklərə və sonsuzluqlara öz arzularını dayanmadan bildirdilər. Və türkləri ürəkdən sevən Allah beşinci ümmanı - Əlişir Nəvai ümmanını onlara ərməğan göndərdi. Şeirin bu misralarındakı əsas mətləb Turan ellərinin beş yüz il fasiləsiz olaraq Əlişir Nəvai dühasını yaratmasında öz əksini tapıb. Türk xalqlarının öncə daş üstü, qaya üstü və qəbr üstü yazılarında əbədiləşmiş yazılı ədəbiyyatı sonradan - eramızın VIII əsrindən sonra taleyin və qəzavü-qədərin hökmü ilə ərəb və fars dillərində gerçəkləşdi. Türk dilindəki ilk böyük ədəbi-bədii abidələrimiz "Dədəm Qorqud kitabı", "Divani-lüğətit-türk" və "Qudatğu-bilik" (XI əsr)dən başlayaraq, XV əsrə qədər gərgin çalışma və mübarizələrdə keçən zamanı müəllif "Uni berish uchun bir kam dunyoga Besh asr to'lg'andi dard tutgan Turon" - deyə çox gözəl və lakonik mənalandırıb. Maraqlıdır, həm də qətiyyən təsadüfi deyil ki, müəllif Əlişir Nəvaini yaradan beş əsrlik zamanla onu yetərincə dərk etməyə və dəyərləndirməyə sərf olunan sonrakı beş yüz illik zamanı məharətlə qarşılaşdırır. Onları müqayisə edərək bütün türk dünyasını düşündürən əsas nəticə və xülasələri ifadə edir: "So'ng besh yuz yil uning noyob durlarin Kuylab yuksalsa da tengsiz ovozlar, Oqibat yecholmay o'tdi sirlarin Qancha sayyohlar-u ne-ne g'avvoslar. Shu bo'yi bilmasdan makon va zamon, Yangi ufqlarga solgancha tug'yon Mangulik yog'dusin taratar hamon Alisher Navoiy atalgan ummon!". Əlişir Nəvai və ümumtürk renassansı problemini Akif Azalp öz elmi tədqiqatlarında hansı ideya-estetik və bədii-fəlsəfi konsepsiyalar əsasında araşdırırsa, bədii yaradıcılğında da həmin mənəvi-estetik mövqeyə və hədəflərə sadiqdir. Məhz bu nöqteyi-nəzərdən görkəmli şairin və alimin həm elmi, həm də bədii yaradıcılığında biz ulu babamızın tarixən son dərəcə həyati, dolğun və bütöv obrazı ilə qarşılaşırıq. Eyni zamanda, Əlişir Nəvai şəxsiyyəti və obrazı özünəməxsus inikas yolu seçmiş müəllifə ümumtürk tarixinin azından min illik təkrarsız və bütöv mərhələsini uğurla canlandırmaq və əks etdirmək imkanı bəxş edir.

**Yuxarıda söylədiklərimizdən çıxış edərək aşağıdakı mühüm nəticələrə gələ bilərik; Özbək və Azərbaycan dillərində yazıb-yaradan Akif Azalpın yaradıcılığında dahi şair və mütəfəkkir Əlişir Nəvai yaradıcılığına tamamilə yeni bir yanaşmanın şahidi oluruq. Dahi sənətkarın həyat və sənət yolunu həm elmi-nəzəri müstəvidə, həm də bədii-estetik inikas müstəvisində nəzərdən keçirməyi və dəyərləndirməyi bacaran müəllif ulu babamızın obrazını daha uğurlu yaratmağa müvəffəq olur. İkinci bir tərəfdən isə onun öz elmi və bədii əsərlərini həri iki qardaş dildə - Özbəkistan və Azərbaycan türkcələrində ifadə edə bilmək istedadı Əlişir Nəvainin ədəbi-tarixi simasını daha obyektiv canlandırmaq üstünlüyünə nail olmağa kömək edir. Sanki Əlişir Nəvai dünyasına məftun olan Akif Azalp da bugünkü və gələcək nəsillərə üz tutub öz ulu babası kimi fəxrlə və qürurla söyləyir: "Bütün türk elləri xud mənimdir!..".**

## *Telli Pənahqızı: "Bağlayın, bu proqramları, cənab TV sahibləri..."*



**"Muğənnicikləri niyə qınıyırsınız ki, onları "müzakirə mövzusuna " çevirib biabır edən "hər şeyə qadir olan" aparıcılardı. Qadağanı onlara qoymaq, cəzanı da onlara vermək lazımdır".**

Adalet.az xəbər verir ki, bunu telejurnalist Telli Pənahqızı deyib.

"Çalıb-oxuyanlara ətökən suallar verən, onların həyatını eşələyən, gic-gici məsləhətlər verib insanlıqdan çıxaran da elə ""aparıcılar!"""dı. Efiri 2-3 saat dayandırmaq qadağası belə onlara kar eləmir! Bağlayın, bu proqramları, cənab TV sahibləri, caamatın əsəbi ilə bu qədər oynamaq olmaz! Pulu da halallıqla qazanın, övladlarınıza haram yedirtməyin! Dili söz tutmayan, dünyanın gərdişini bilməyənləri həyatın girdabına sürükləyib reytinq dalınca düşməyin! Bu televiziyaçılıq, heç şou-biznes də deyil, bu göz görəsi milləti təhqirdir!".

**Vasif ƏLİHÜSEYN**

## *"Xocalı soyqırımı təsviri sənətdə" adlı mühazirə dinlənilib*

**Fevralın 25-də Azərbaycan Milli İncəsənət Muzeyində Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı təsviri sənətdə" adlı mühazirə dinlənilib.**

Muzeydən bildirilib ki, tədbirdə Dövlət Himni səsləndirilib, ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin Sərgi və tərtibat şöbəsinin müdiri, sənətşünas Əsəd Quliyev tərəfindən təqdim olunan mühazirədə Xocalı soyqırımının Azərbaycan təsviri sənətində əks olunmasından, mövzuya fərqli bədii yanaşmalardan geniş danışılıb. Qeyd olunub ki, muzeyin kolleksiyasında qorunan çoxsaylı rəngkarlıq və qrafika nümunələri tarixi faciənin bədii salnaməsi kimi xüsusi əhəmiyyət daşıyır.

Tədbirdə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Yasamal rayon təşkilatının sədri, ehtiyatda olan polkovnik Bəhram Şeydayev çıxış edərək Xocalı həqiqətlərinin təbliğinin vacibliyini vurğulayıb, faciə qurbanlarının xatirəsinin yaşadılmasının hər bir vətəndaşın mənəvi borcu olduğunu bildirib.

**Mühazirə iştirakçılar tərəfindən maraqla qarşılanıb, Xocalı soyqırımının təsviri sənətdə əksinin tarixi yaddaşın formalaşmasında mühüm rol oynadığı xüsusi qeyd olunub.**




**Vaqif Yusifli**
**Filologiya elmləri doktoru**


# Sazın köynəyindən keçən şair - İbrahim İlyaslı

**Müasir Azərbaycan poeziyasında öz dəsti-xəttini yaratmış, artıq oxucular və ədəbi ictimaiyyət tərəfindən etiraf olunmuş bir çair haqqında söz açmaq istəyirəm. İbrahim İlyaslı 1980-ci ildə Qazax rayonunun Aslanbəyli kəndindən çıxıb Sumqayıta gələndə və ömrünü bu şəhərə bağlayanda bəlkə də heç ağlına gətirməzdi Azərbaycanda tanınmış şairlərdən biri olacaq.Nəinki doğulduğu İncədərəsi bölgəsi, nəinki yaşadığı Sumqayıt, bütün Azərbaycan ədəbi mühiti onu istedadlı bir şair kimi tanıyacaq, etiraf edəcəklər. Mən də həmçinin...**

2011-ci ildə İbrahimin "Yuxuma söykənmiş ada" şeirlər kitabı haqqında elə bu qəzetdə bir məqalə ilə çıxış etmişdim. İndi onun "Salam Sahibi haqqdı" adlı yeni şeirlər kitabı da çapdan çıxıb. Tənqidçi həmkarım Rüstəm Kamal kitabda çox maraqlı, məzmunlu bir ön sözlə çıxış edir. Elə ön sözdə söylədiyi fikirlərlə başlamaq istəyirəm: "Rəhmətlik Akif Səməd deyirdi ki, saz su kimidir, murdar götürməz. Akif Səmədin sözünün qüvvəti, saz su daşı kimi sözü duruldur. Yad kəlmələri, dilə yatmaz sözləri öz ahəngində - avazında əridir və könüləyatımlı şəklə salır".

Daha sonra: "İbrahim İlyaslı aşığın dilini - lüğətini, qoşma, gəraylı qanunları ilə fonetik düzənini gözəl bilir. Aşıq şeirinin forma-şəkil tərəflərini, dilini və üslubunu, aşıq şeirinin fəlsəfəsini dərindən mənimsəməsi də bu üzdəndir".

Təbii ki, Rüstəm Kamalın bu fikirləriylə tam razıyam. Amma mən İbrahim İlyaslını bir başa səpgidə sizə tanıtmaq istəyirəm. İbrahim İlyaslı müasir Azərbaycan poeziyasında SEÇİLƏN şairdir.Bunu necə izah etmək olar? Mən onu Rüstəm Kamal kimi təkcə "aşıq şeirinin əsas nəzm şəkillərində və janrlarında" gözəl şeirlər yaradan bir şair kimi yox, həm də müasir aşıq-xalq şeirinin cavan ustadı kimi səciyyələndirirəm.

Bu gün onlarla, bəlkə lap yüzlərlə şairimiz aşıq-xalq şeirinin müxtəlif şəkillərində şeirlər yazır. Elə İbrahimin mənsub olduğu bölgənin şairləri də. Amma İbrahim İlyaslı bütün bu yazılanları öz yaradıcılığında bir sistem halına gətirir. Ustadnamə, divani, təcnis, qoşma, gözəlləmə, gəraylı, qıfılbənd, müxəmməs.

İbrahim İlyaslı ənənəvi aşıq şeirinə müasir poetik təfəkkürlə yanaşır, daha doğrusu, Aşıq Ələsgərdən, Xəstə Qasımdan, Aşıq Alıdan, Aşıq Hüseyn Bozalqanlıdan, Aşıq Şəmşirdən gələn o ab-havaya XXI əsrin şairi kimi yeni bir nəfəs gətirir.

Baxıb görürsən ki, istənilən bir qoşma və gəraylısında məhz o klassiklərin işlətdikləri sözlər, ifadələr, bədii təsvir vasitələri diqqəti cəlb edir, amma bütün bunlar yeni əsrin aşıq şeirinin forma-məzmun xüsusiyyətlərini ehtiva edir.

*Səni bəndə vəsf eləməz,*
*Sən Yerdə mələk kimisən.*
*Gül dalında düymələnmiş*
*Qönçədə bəbək kimisən.*

*Şəfəqsən - göydən şaxıyan,*
*Nəğməsən - sular oxuyan...*
*Üstü müşk-ənbər qoxuyan*
*Çəməndə külək kimisən.*

*İbrahim bir qara qulsa,*
*Şahənşahdı səni bulsa.*
*Bu dünya bir naşı rəssam,*
*Sən çərxi-fələk kimisən.*

Diqqət edin, bu şeirdə klassik aşıq şeirinə məxsus sözlər, ifadələr var, amma heç bir klassik aşığımız deməzdi "Bu dünya bir naşı rəssam, Sən çərxi-fələk kimisən". "Sular oxuyan nəğmə", "Göydən şaxıyan şəfəq" və s. ifadələr də həmçinin.

İbrahimim gözəlləmələrində təsvir olunan sevgili qızlar da keçmiş gözəllər deyil, amma dəxli yoxdur, gözəl gözəldir. Onları istəyirsən klassiklərimizin vəsf elədiyi tərzdə tərənnüm



edəsən, istərsə də indiki şeirimizin ifadə tərzləriylə. Amma hiss edəcən ki, İbrahim bu çağımızın gözəllərindən söz açır.

*O sevdalı çağlar yadındadımı? -*
*Bir mən igidiydim, bir də sən gözəl*
*Dünyada mənə tay dəli yoxuydu,*
*Yoxuydu dünyada sənə tən gözəl.*

*Və heç demirsənmi hardadı görən*
*İpək tellərinə nərgizlər hörən?...*
*Səniydin onlara yaraşıq verən,*
*Nə çiçək gözəldi, nə çəmən gözəl.*

*Sevgi bir yol gələr adama haqdan, -*
*Sənin divanənəm elə o vaxtdan.*
*Gözümə ağ gəlib yola baxmaqdan,*
*Ürəyə xal düşüb, saça dən, gözəl.*

*Gör mən nə saymışam, fələk nə sayıb, -*
*Dönüb sənə baxmaq sayılar ayıb...*
*Aradan qırx igid ömrü adlayıb, -*
*Mən həmin dəliyəm, sən həmən gözəl!*

Klassik aşıq şeirimizdə bir Açıq obrazı var - bu obrazla Dədə Ələsgər də, Xəstə Qasım da içərilərində qayım-qayım qaynayan pünhan dərdlərini izah ediblər. İbrahim də qoşma və gəraylılarında duyğusal bir Aşiq kimi ərşi-fəryada qalxır:

*Səni görən divanədi,*
*Bilmirəm, səndən ötəri.*
*Göz yaşımla dağı-daşı,*
*Dəlirəm səndən ötəri.*

*Uydurmadım daha nələr?...*
*Tükənibdi bəhanələr.*
*Qonşumuza axşam-səhər*
*Gəlirəm səndən ötəri.*

*İbrahiməm, için-için*
*Göynəyirəm, gedir köçün.*
*Ölmürəm yaşamaq üçün,*
*Ölürəm səndən ötəri!*

Mən İbrahim İlyaslını bağlandığı,qopub gəldiyi aşıq şeirləri ənənələrindən qətiyyən ayırmaq fikrində deyiləm İbrahim bütün varlığı o ənənəyə bağlı şairdir, amma o ənənənin müasir dövrdə yeniləndirən şairdir. Məsələn, onun təcnislərinə diqqət yetirəndə özünü XXI əsrdə deyil, sanki XVIII-XIX əsrdə hiss edirsən.

*Nazınnan oynayar hərə bir gülün,*
*Könül, sənin meylin yasəməndədi.*
*Yasəməni tərpən, yasəməni din,*
*Yasəməni ağla - yasəmən də di.*

*İrmağa su gələr, dolar arxa da,*
*Xəlq eləyən Xaliq olar arxa da.*
*Atişləməz yollar qalar arxada,-*
*Ya köhlənə yalvar, ya səməndə di.*

*Təbib, yaram çoxdu, bir di dərməni-*
*Bir doğrayar məni, bir didər məni.*
*İbrahim, dərdiyin birdi dərməni,-*
*Yasəmən misallın Yasəməndədi.*

Mən ötən məqalədə yazmışdım ki, İbrahimin şeirlərində urfan, təsəvvüf qığılcımlarını görürəm. O da haqqa gedən yolun yolçusudur.

*İbrahim İlyaslı, budurmu danmaq?*
*İşin-peşən oldu tutuşub yanmaq.*
*Haqqı bulunsaymış fələyi danmaq,-*
*Buldim nahaq nəsi, haqq nədi, bildim.*

Təbii ki, bu irfani meyil Akif Səməddə, Məmməd Dəmirçioğlunda, Məmməd İlqarda da ötəri deyil, aparıcıdır. Və İbrahimdə də get-gedə şaxələnməyə gedir. İbrahim İlyaslı mənim fikrimcə, müasir Azərbaycan poeziyasında Məstan Günərdən sonra ən gözəl qoşma yazan şairlərimizdən biridir. O, qoşmanı məhz QOŞMA kimi yazır və sübut eliyir ki, bu şeir formasının gözəlliyini indi də saxlamaq olar. Öz kəndinə həsr etdiyi qoşmaya diqqət yetirin:

*Yenə səni andım, sinəm göynədi,*
*Başıma hərləndi Yer, Aslanbəyli.*
*Hər daşın, hər qayan bir kitabdi,*
*Təpədən dımağa sirr, Aslanbəyli.*

*Sən donan heyrətim, yanan ahımsan,*
*Üzümə açılan hər sabahımsan.*
*Andımsan, qibləmsən, qibləgahımsan,*
*Ocaq Aslanbəyli, Pir Aslanbəyli.*

*Sözümün şəhdidi yalın, yamacın,*
*Mən sənin tamarzın, mən sənin acın.*
*Dilimin əzbəri, başımın tacı,-*
*Bir İncə dərəsi, bir Aslanbəyli.*

Bu fikri mən onun gəraylıları haqqında da söyləyə bilərəm. 20 Yanvar gecəsinə deyilmiş bir gəraylısını o ağı adlandırır:

*Obam, çağlayan çayların,*
*Axar ikən, axmaz oldu.*
*Bir mənzilə dolayların,*
*Çıxar ikən, çıxmaz oldu.*

*Tövlə-tövlə şahbaz atlar...*
*Yalmanına yatdı yadlar.*
*Baş-başa gələn buludlar,*
*Çaxar ikən, çaxmaz oldu.*

*Kül əlendi gözümüzə,*
*Su səpildi közümüzə.*
*Göydən Tanrı üzümüzə,*
*Baxar ikən, baxmaz oldu.*

Mən İbrahim İlyaslının yeni şeirlər kitabını onun yaradıcılığında yeni bir hadisə hesab edirəm. Bu istedadlı şairə yeni poetik uğurlar arzulayıram. Amma sözüm hələ bitməyir. Qalsın sonraya...


***Adilə Səfərova***
***Azərbaycanın əməkdar mədəniyyət işçisi***




# Ana Təbiətin Dan Üzü - Bahar

**DAN ÜZÜ doğuluşdu; qaranlığın, zülmətin bağrını yaran İşığın, Nurun doğuluşu. Mavi səmada boy göstərən Günəşin zərrin şəfəq təbəssümündə aydınlığın zühurudu. Dumduru mavilik paklığı ilə yer üzü əsrarəngizliyi harmoniyasında şəffaf gündüzün yaranışıdır...**

DAN ÜZÜnün doğuluşu SƏMA Nur selinə boyanar, al şəfəqlər YER ÜZÜnü işıq selinə qərq edər. Aləm sıyrılar toranlıqdan, arınar qaranlıqdan; durular, paklanar, saflaşar... Yer onu aydınlığa qovuşduran mavi ənginliyə məmnun-məmnun gülümsər, ecazkar hüsnüylə Günəşə işvəli təbəssüm edər.

Deyirlər, DAN ÜZÜnün al şəfəqlərində süslənən, füsünar görkəmiylə nazlanan, qəmzələnən yaşıl adamız YERin gözəlliyinə GÖY ÜZÜ də biganə qalmaz. Bu əlvan rəng çalarlı, işvəli, nazlı ecazkarlığa sevdalı olar...

İllah da, qışın ayazı, şaxtası sovuşan vaxtı, yazın iliq nəfəsinin duyulan vədəsi. Novruzgülünün boy göstərən, yaşıl dona bürünən çəmənlərdə, yal- yamacda lalənin, nərgizin, bənövşənin, süsənin üzə gülən çağında. Ağacların budaqbudaq boy atıb yarpaq köynəyi geyinən, kolların çiçəyi çırtlayan zamanda...

Belə zamanlarda Göy üzünün vurğunluğu, aşiqliyi də artar Yerə. Odlu baxışlarla oxşar onu, köksündə çaxan şimşəyi, bulud- bulud yağışıyla sevgi etirafları edər gözəlliyi göz oxşayan Yer üzünə...

Yerlə- Göyün sevdalı dönəmindən fəsillərin şah tacı Yaz boylanar, Bahar təravəti duyular yurdun ab-havasından, Təbiətin nazlı- qəmzəli Baharının işvəsindən aləmi xoş rayihə bürüyər. Bu xoş növraq insan ruhuna təravət, fikrə, duyğuya cəsarət gətirər. Könüllər riqqətlə coşar, ürəklərdə qurmaq-yaratmaq əzmi oyadar...

Ana təbiətin oyanışı, dirilişi ilə yeni dönəmi belə başlar; torpağın yaz yağışlarından canlanar, barı, bəhəriylə yaşıl dünyamızı əsrarəngizliyə qovuşdurar...

Əslində, fəsillərin şah tacı BAHAR da təbiətin DAN ÜZÜdü

Həyatın yaranış təməli olan müqəddəs ünsürlərin qovuşağında açılar təbiətin dan üzü, Baharın yaranışı. İlk olaraq yaşam qaynağı, həyat rəmzi Su paklığı, aydınlığı, şəffaflığıyla duyular Bahar nəfəsi, bulaqların artan çağlarlığı həzin nəğmələr diliylə, , çayların coşğunluğu, qaynarlığı , gur şaqraqlığıyla, göy üzü yağışıyla müjdə verər yaz gəlişini. Su coşğusuna Od sönməz hay verər. Dünyamızın əbədi məşəli Günəş odlu nəfəsiylə, iliq hərarətiylə təmas edər Su coşqusuna. Su və Od müqəddəsliyinə Külək də biganə qalmaz. Sığal çəkər, nəvaziş edər, meh diliylə oxşayıb Su , Od ünsürünə güc verər. Və nəhayət bu güc, qüdrət ünsürləri torpağa nüfuz edib onu qış mürgüsündən oyadar... Beləcə, ilaxır torpaq ünsürünün digər ünsürlərlə vəhdəti sonucunda doğular ana təbiətin əsrarəngiz dan üzü-Bahar.

... Baharın doğuluşu, yaranışıyla aləm nura bələnər, ala, yaşıla bürünər olar. Müqəddəs ünsür vəhdətinin doğurduğu xoş rayihə nəfəsi, torpağa sirayət etdikcə torpaq qoynunda qayğıyla qışın ayazından, saxtaşından, hifz etdiyi, qoruduğu nəsnələriylə üzə gülər; əlvan rəng çalarlarıya ecazkarlıq yaradar...

Çəmənlər otu, kollar çiçəyilə boy göstərir, ağaclar pöhrələyər, budaqları puçur-puçur yarpaq tumurcuqlarıyla bəzənər, minçaları ala, yaşıla əsrarəngiz dona bürüyər torpağı.

... Həyat rəmzi yaşıla qərq olar dağ yamacları, sanki əzəməti artar ucalıq timsalı şiş qayaların. Dərələrdən su şaqraqlığı, bulaq zümzüməsi quş çığırtılarından həzin nəğmə sədaları yaradar. Bağ- baxçalar, ormanlar, hüsnü gül-çiçəklə süslənən düzlər, bərəkət, ruzi rəmzi zəmilər, tarlalar əsrarəngiz rəng çalarlarıyla yeni dövranı salamlar. Bu füsünkarlıqda quşlar, böcəklər belə cuşa gələr, ağacdan- ağaca, koldankola uçar, budaqdan- budağa qonar öz dillərində Bahara- "xoş gəldin"- deyərlər. Güldən- gülə, çiçəkdən- çiçəyə uçuşan kəpənəklər sükut piçıltısında ləçəklərlə dodaq-dodağa bir- birlərinə sevgi etirafları edərlər.

Bu əsrarəngizlikdən, ecazkarlıqdan daha çox feyziyab olansa torpağı üz ağlığına, ruzi, bərəkət mənbəyinə çevirən, yurdu abad edib xoş rifahlı cənnətməkana çevirən insanlar olar.

Təbiət nə qədər gözəllik libasında olsa da insan ağlının, zəkasının, yaradıcı təxəyyülünün süzgəcindən keçərək daha cazibədar görkəmə bürünər. Yurd, torpaq qurub yaratmaq əzmli insan əllərinin hərarətindən daha abad formaya düşər.

Ən ümdə olansa Baharın gəlişinin hər yerdə- yurdlarda, obalarda elliklə sevinclə, coşquyla bayram ovqatında qarşılanması, şənliklər, mərasimlərlə uğurlanmasıdır.

Beləcə, Adəm övladı yaranışdan belə qarşılayıb Baharın gəlişini. Onu inanc sisteminə, inam kultuna çevirib müqəddəsləşdirib. Yurda, torpağa qədəm qoyduğu anları həsrətlə gözləyib, adına Bahar rəmzi səməni göyərdib. Şəninə nəğmələr qoşulub, xalq oyunları yaradıb, şənliklər qurub. Sevinc içində şadyanalıqla keçirib. Novruz - yeni gün, təzə dövran başlanğıcı kimi ilin ruzi, bərəkət, rifah, əmin-amanlıq içində keçməsinə ümid bağlayıb.

Bax, vaxt o vaxt, zaman o zamandır ki, yurdumuza Bahar yenidən qədəm qoyur. O, xoş müjdəli sədasıyla, ürək açan, könül oxşayan rayihəsiylə yer üzünə təbəssüm edir.

Yurdumuza xoş gəlmisən ana təbiətin dan üzü- Bahar !

**QƏDƏMLƏRİN MÜBARƏK!**



# BAYAT



№ 74 (934)



*Vaqif BƏHMƏNLİ*

## Üzük

O vüsal günləri hayana düşdü,
Var imiş könlümü qırmağın sənin.
Nə vaxtdan bu üzük payına düşdü: -
Alışıb yanaydı barmağın sənin...

Səni bəxş etdilər nə bilim kimə,
Mənim sevməyim də bir günah imiş.
Həsrətin zəhərli gülləymiş demə,
Bu kövrək ürəyim nişangah imiş.

Nəfəsim alışıb gör necə yandı.
Yalvarram, o qızdan aralan, üzük!
Bəxtimə dolanan qızıl ilandır,
Sənin barmağında saralan üzük.

Tutub ürəyimi qərib bir giley,
Kədəri quzeyin daşı boydadır.
Gözümdə sozalıb, kiçilib hər şey,
Dünya da üzüyün qaşı boydadır.

Köçdüm gözlərinə günün birində,
Varlığım qəlbində durmadımı bəs?
Sənin o nişanlın bəbəklərində
Mənim nişanəmi görmədimi bəs?

Daş yerə çırpılıb əzilmişəm mən,
Ağrı qatar-qatar əzikdən keçər.
Yaman incəlmişəm, nazilmişəm mən
Varlığım sap kimi üzükdən keçər.

Bir haray bənd olub könülə, gözə,
Təmiz məhəbbəti günah sayıblar.
Səni bir oğlana, bir könülsüzə
Məni də kədərə nişanlayıblar...

## Belə yaxşıdı

Bir yol da saymayıb qohum-qardaşı
nə qədər pərdə var, vurub yıxasan,
Alıb qoltuğuna sevdalı başı
çıxanda aradan elə çıxasan
boş yaxan keçməyə elə, yaxşıdı! -
Qardaş, qadan alım, belə yaxşıdı.

Gözlərin dikilə guman yerinə,
daha atmayasan oxu heç kimə.
Qaşını çatanda kaman yerinə,
çölləri gəzəndə ceyran eşqinə
toruna düşdüyün tələ yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Hər gün ayaqlasın, iz də qocalır,
bəsdi dirədiyin küncə qəlbini!
Oğlan da qocalır, qız da qocalır...
Qərib bir quş olub qönçə qəlbini
açasan bir qərib gülə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

İstə, ya istəmə, gecələr bitər,
Anbaan azalar canında odun.
Bu qəribə qismət tamama yetər -
Bir qərib dünyada bir qərib adın
dərdindən can verib ölə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Tanrının nə qədər gizlinləri var;
Qoy bu da ehmalca bəxtə yazılsın.
"Biz kimsə görmədik" -
söyləsin yollar,
Başına gələnlər yuxu yozulsun,
düşməsin dillərdən dilə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Bu da ildə bir yol bərk aclığındı -
Dönəsən doymayan, ya doyan kimi.
Görəsən darvaza sən açdığındı,
qapın aralıdı...
sən qoyan kimi,
adlayan olmayıb hələ, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Kürkünü asasan sivri qarmağa
Getməmiş qürbətin ətri canından,
Arvadın yüyürə qaz yandırmağa,
Deyə: - Nə durmusan xoruz banından?
Sonra da üzünə gülə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

## Eşq

Başımı xəyalın qatır birtəhər
Yoxdu qaynamağım daha heç kimlə.
Mən sənin eşqinlə qalxıb hər səhər,
Axşam da...yatmıram sənin eşqinlə.

Nə bilim küçədə, yolda, yuxuda,
Yenə görərəmmi? Ürək yeyirəm!
Sənin eşqinlədi içdiyim su da,
Mən sənin eşqinlə çörək yeyirəm!

Unudub dost doğma qardaşlarımı
Bu eşqin qəminə qardaş oluram.
Çəkirəm başıma göz yaşlarımı
Mən sənin eşqinlə sərxoş oluram.

Eşqində gücə bax, bilsə də yoxdu
Öləni diriltmək hökmü Allahda
Çağa tək güldürür qəhr olan bəxti,
Məni gah öldürür,diriltdir gah da.

İndi billəm nəymiş eşq odu canda
Ona kim baxırmış, nəfə baxırmış.
Məcnun çöl gəzəndə, Kərəm yananda
İsa da çarmıxda kefə baxırmış!

Allah, sən bilirsən nələrə dözdüm
Bu sevda yolunu tutana kimi.
Dəli dalğalara baş vurum, üzdür
Eşqin dəryasında batana kimi.

## Sevdanın çətin yolu

Göstərdi hökmünü boranlar, qarlar,
Sitəm sipər çəkdi, qəm sıra tutdu.
Dikindən təkinə buzladı dağlar,
Şüşə könlümüzü sırsıra tutdu.

Baxmadı şaxtaya...
uçdu cüt ürək,
keçdi ayrılığın uzun içindən.
Buz buza çırpıldı çaxmaq daşı tək,
qığılcım ayrıldı buzun içindən!

Dar günün sahibi Allahdı yenə
Bir qarlı yol verdi bizə də, şükür!
Yaralar sarıyan qar tənzifinə,
Cana can calayan buza da, şükür!

... Sonra tonqal odu dağladı qarı,
Odumuz buzların bağrını yardı.
Əriyib sel oldu dağların qarı,
bu dəfə də bizi daşqın apardı!

## Varlı adam

Sərvət, dövlət deyib canı üzmədim,
yeridim yolumu sədaqət ilə.
Könül divarıma mərmər düzmədim,
üzlədim silinməz məhəbbət ilə.
Qocaya zamanın fəryadı dedim,
körpə çöhrələrə, duadı, dedim...
sirli bir damlaya dəryadı, dedim -
heç işim olmadı kəmiyyət ilə.

Rəsmini çəkənim şirəli çəkdi;
qayıdıb üstündən nur əli çəkdi...
Tanrımı hamıdan irəli çəkdim -
tül pərdə saxladım cəmiyyət ilə.

Məkrə, paxıllığa ilan söylədim,
kələyə ən qorxunc dalan söylədim...
Kim mənə qurama, yalan söylədi
ağzını qapadım həqiqət ilə.

Sözümdən söz çəkib demə kəmsərəm -
başımın daşıdı zalım, qansoran...
Xain süfrəsində tikə kəsmərəm,
nəsil qanlısıyam xəyanət ilə.

Başmaqçı odur ki, başına gələ,
sanma ki, söz dedim xoşuna gələ.
Üstümə fillərin qoşunu gələ
mənə bata bilməz bu qüvvət ilə.

Əlləri var olsun körpü cızanın -
altında qaynayır məhşər qazanı.
Sözümdə puç varsa, Tanrı cəzamı
versin özü bilən bir qiymət ilə.

## Belə

Ömür ki od aldı, əriyir şam-şam -
yağı yalavaca paylanır cam-cam,
Fələyin qolunda səhəngdi adam -
sonda qopur qulpu, lüləyi belə...

Qafil o kəsdi ki, çörəkdən qaçır,
Eşqin yeri dardı, ürəkdən qaçır...
Mehdə hünər hanı? -
Kürəkdən qaçır,
Şələmə belinə küləyi beləəə...

Fələk pəsdah açır sınıq təkərlə,
Novdanda dən yoxsa, hərlə, ha hərlə...
Un olub ələnir can zərrə-zərrə
Kafər, fırlatmazlar ələyi belə!

Ürəyi at verdi... Allah, min, dedi -
Çapırsan...
görmürsən tər içindədi? -
Allahın verdiyi yaman gündədi;
Adam əldən salmaz ürəyi belə!

Sözün şövqü dəysə qızıl qanayar,
Kəlməni ləldən çək, qızıldan ayır!
Mürəkkəb ayrı şey, qızıl qan ayrı
Qandı şax saxlayan lələyi belə...

Can ona sadağa, baş ona peşkəş,
Xas aşiq qul olmaz ötərgi eşqə!
Kimsəyə dil vermə Tanrıdan başqa,
Buraxma evinə mələyi belə!

## Yuxuda yuxu

Bürünüb üşüyən qoca yaşıma,
İşlək öküz kimi düşsəm də yorğun,
Güc tapıb dişimi sıxdım dişimə,
Bu gecə
mən səni yuxuda gördüm.

Gördüm doqqazdayam,
sən də gəlirsən,
Üstündən ötməyib elə bil çovğun.
Yenə o müəmma, yenə o sirsən,
Aytək ziyalısan,
namxuda,
gördüm...

O gözlər,
o gülüş...
yerindədi tam,
həmən o cığada, qaşda qalmısan.
Nə təhər olur ki,
mən altmışdayam,
Sən elə onaltı yaşda qalmısan?
Ay Allah, dilimin ucundadı lap,
Pozulub yaddaşım...
nə idi adın?
Adın muncuq-muncuq -
qırıqlanıb sap,
nə illah elədim xatırlamadım.

Adı neyləyirəm,
sən həmən sənsən,
bu huşsuz, bu başsız mənəmmi, əsla!
Ocaq alışarmı külləcən sönsə,
yuxuma gəlmisən hansı əsasla?

Qalın illər altda titrəyirəm mən,
Həsrət yorğanının şəriki sinəm...
İstədim üzündən,
əlindən öpəm,
Dedin,
haqqın çatmır hər ikisinə.

Eşq ötür bülbültək yuxu dilində,
Elə bil anladır nə imiş qüdrət.
Belə tər qalmağın hicran çölündə,
nə olar, sirrini mənə də öyrət!

## Şair

Tanrıdan savayı anlamaz heç kim
sevgi göylərindi...
yer eşqi olmur.
Yerə, göyə sığmır şairin eşqi,
Eşqdən yarananın bir eşqi olmur!

Yerə, göyə sığmır şairin eşqi,
Şairin
dünyaya dəyən eşqi var,
yaxası bərq vuran cilvəli püşkü
Bir də ki...
qapqara geyən eşqi var!

...Təki yar dilinin qılıncı dəyə,
təbibə yollanmaz çaradan ötrü.
İlan tək atılar qızıl gülləyə,
Canı qurban verər yaradan ötrü.

Şairin dünyada bir eşqi olmur,
Payız eşqini say, yaz eşqini say.
Baxıb sonalamaq, ya seçki olmur,
Atəş eşqini say, buz eşqini say.

...Şairdə qanad var;
yüksəlir, enir
dərin dərəyə də,
qəlbi dağa da.
Şair adam vursa,
Allah bəyənir,
Şair
sevgi qatır əclaflığa da!

## Azərbaycansayağı ayrılıq

Uşaq da bilir ki, "yek"dir tək təməl,
bölünən rəqəmdi -
"dü", ayrılıqdı.
Hər kəsin sonuncu nəğməsi əməl,
Göl üstdə can verən qu...
ayrılıqdı!

Ha ula, harayın qurda da yetmir -
o taylı-bu taylı yurd dada yetmir...
Niskilin ləkəsi gorda da getmir -
durum necə deyim, yu, ayrılıqdı?

Tarix sürgün çəkir sarı kağızda -
zalımdı, saxlayır yaranı duzda!
Bir dil çürüyürsə iki ağızda
ayrı nə adı var? -
bu, ayrılıqdı!

Bədəndə baş deyil... sualdı, durur!
Həsrət aysberqdi, sualtı durur!
Hamını uğura su qovuşdurur,
Biz Araz nəsliyik -
su, ayrılıqdı...

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 8 (2480) 27 fevral 2026-cı il

**Əlbəttə, elə bir ölkə, elə bir məmləkət tapmaq olmaz ki, onun gəncləri bacarıqlı, savadlı, istedadlı və vətənpərvər olmasın. Buna heç bir sözümüz yoxdur. Sözümüz onadır ki, bu gün Azərbaycan gəncliyi bəlkə də dünyanın ən güclü, ən istedadlı və ən vətənpərvər gəncləridir. Bunu heç də elə-belə havadan demirik, konkret faktlara, hadisələrə söykənərək fikrimizi səsləndiririk. Ən azından ona görə ki, bizim son 30 ildəki gəncliyimiz çox çətin, ağır və əzablı bir yol keçib.**

Bir milyondan çox qaçqın və məcburi köçkünlərin arasında təbii ki, xeyli sayda məcburi köçkün və qaçqınlarla, eləcə də gənclərlə görüşündə onlara güvəndiyini və böyük ümid bəslədiyini səsləndirdi. Aydındır ki, bu fikirlərin Ulu Öndər Heydər Əliyev tərəfindən səsləndirilməsi hər bir gəncin ürəyində həyat eşqini, mübarizə və yaşamaq ümidini bir qədər də şölələndirdi. Çünki heç kimə sirr deyil ki, ölkəmizin ən çətin vəziyyətində nəinki yaşlı nəsil, hətta gənclərimiz belə sıxıntılar içində yaşayır, bəzən ümidsizliyə qapılır və sabaha inamları azalırdı. Amma Ümummilli Lider Heydər Əliyevin bu yanaşmasından və onlara böyük ümid bəsləməsindən sonra heç şübhəsiz,



# AZƏRBAYCAN GƏNCLƏRİ DÜNYANIN ƏN İSTEDADLISIDIR



gənclərimiz də olub. O gənclərin uşaqlığı, yeniyetməliyi, bayaq dediyimiz kimi elə də rahat, qayğısız olmayıb. İndi siz təsəvvür edin, həmin gənclər müxtəlif rayonlara səpələniblər, ailələrini və özlərini dolandırmaq üçün hər cür əziyyətə və məşəqqətə qatlaşıblar. İş yox, güc yox, eşik yox. Təbii ki, belə bir məqamda gənclik həm düz yol tutmalıdır, həm oxumalıdır, həm də işləməlidir. Bunun üçün təkcə istedad və işgüzarlıq bəs eləmir. Bunun üçün həmin insanda bir səbir, təmkin, daxili güc və ən nəhayət, ilahi bir qüvvə lazımdır.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə xalqın istəyi ilə hakimiyyətə gələndən sonra Azərbaycan gəncliyinə, onların zəhmətkeşliyinə və eləcə də mübarizəsinə çox böyük qiymətlər verdi. Dəfələrlə gənclərimiz bir qədər də enerji topladılar, gücləndilər və özlərini hər şeyə tam hazır hiss etdilər.

Ev də olar, maşın da almaq mümkündür, amma itirilmiş gəncliyi heç vaxt geri qaytarmaq mümkün deyil. Ona görə mümkün deyil ki, hər il, hər ay, hər gün insan ömründən bir yarpaq aparır. Amma Azərbaycan gəncliyi həmişə babalarının, atalarının getdiyi mərdlik yolundan, qəhrəmanlıqdan və döyüşkənlikdən çox şey öyrəndi. Onlar Şah İsmayıl Xətaini, Babəki, Koroğlunu, Qaçaq Nəbini, Mehdi Hüseynzadəni və ən nəhayət, Birinci Qarabağ savaşının qəhrəmanlarının həyat yolunu öyrəndilər və onlara oxşamaq istədilər, onlara bənzəməyə çalışdılar.

Hər bir gəncin tərbiyəsi öncəsi evdə, bağçada və məktəbdə qoyulur. Və sonradan cəmiyyətdə o, daha da formalaşır, yetkinləşir və kamilləşir. Çox sevindirici haldır ki, Azərbaycan gəncliyi son 35 ildə çox böyük bir məktəb keçib, dərs alıb. Onlar həm elm sahəsində, həm mədəniyyət sahəsində, həm də idman sahəsində demək olar ki, Azərbaycanın başını həmişə uca ediblər. Bizim gənclərimiz bəlkə də dünyanın, bayaq dediyimiz kimi, ən zəhmətkeş, ən istedadlı gəncləridir. Onlar tək qəhrəmanlarımızın yolları ilə getməklə kifayətlənmədilər, onlar həm də dünyada baş verən prosesləri, siyasi və iqtisadi təlatümləri və ən nəhayət, ən çətin məqamları belə izlədilər, gördülər və yaşadılar. Daha doğrusu, dünyanın imtahanından da bir şey öyrənməyi bacardılar. Onların ən böyük qəhrəmanlığı Vətənimizi, torpağımızı sevmələridir.

Bu gənclər elə-belə yetişmədilər, bu gənclər zamanın məngənəsində, çətinliyində sıxıldılar, yıxıldılar, amma yenə özlərində güc-qüvvə toplayıb ayağa qalxdılar. Düzdür, birinci onları ayağa qaldıran Allah oldu, ikincisi isə ürəklərində və qəlblərində gəzdirdikləri Vətən eşqi. Dünyada vətən eşqindən güclü, qüvvətli heç bir silah ola bilməz. Əgər vətəni sevirsənsə, deməli, onun hər qarış torpağı uğrunda döyüşəcəksən, vuruşacaqsan və axırda da qalib olacaqsan.

Biz Azərbaycan gəncliyinin ən böyük möcüzəsini İkinci Qarabağ savaşında, 44 günlük Vətən müharibəsində gördük. Heç də təsadüfi deyil ki, bu 44 günlük müharibədə bu sətirlərin müəllifi də Qarabağda - Füzulidə, Cəbrayılda, Qubadlıda olmuş və orda döyüşən gənc əsgərlərimizlə söhbətlər etmiş, müsahibələr almış və operativ yazılar hazırlayaraq qəzetimizdə çap etdirmişdi.

Mən həmin uşaqların, həmin gənclərin çöhrəsini görəndə düşündüm ki, mütləq bu gənclər torpaqlarımızın hamısını azad edəcək. Çünki onlarla söhbətlərim zamanı bir gənc belə demədi ki, mən döyüşdən, müharibədən, ölümdən qorxuram.

Şəmkirdən Cəbrayıla döyüşə gəlmiş Namiq Həsənov dedi ki, müəllim, tək mən yox ey, bizim uşaqların hamısı bura ölməyə yox, düşməni öldürməyə gəlib. Biz döyüşə girəndə elə bil ki, toya gedirik. Çünki bu yerlərdə bir vaxtlar gələcək toy olacaq, şəhid olanlarımızı xatırlayacaq, qazilərimizi və qaliblərimizə dualar edəcəklər. Amma biz qalib gələcəyik. Həmin oğlanın çöhrəsində mən ancaq mərdlik, döyüşkənlik və mübarizlik gördüm. Artıq Cəbrayılın və Füzulinin onlarla kəndini bu gənclər azad etmişdilər.

Döyüşlərin birində də yaralı əsgərlərin bir neçəsini çiyninə alıb bu gənc döyüş mövqeyindən çıxarmışdı. Dördüncü gənci çıxaranda şəhid olmuşdu. Amma ömrüm boyu o gəncin çöhrəsindəki təbəssümü, sevinci və qalibiyyət nişanını heç vaxt unutmayacağam.

Bax, Azərbaycan gəncliyi budur. Torpağımızın bir qarışını belə düşmənə vermədi.

**Bir dəfə Füzulidə olanda rayon təhsil şöbəsinin müdiri Ramella xanım Məmmədovaya dedim ki, siz gənclərlə tez-tez vətənpərvərlik mövzusunda söhbətlər aparın. Ramella xanım dedi ki, müəllim, hər səhər dərs başlayanda biz Azərbaycanın müstəqilliyi yolunda döyüşüb qalib gələn şəhidlərimizi, qazilərimizi və qaliblərimizi gənclərimizə sevdiririk. Elə bir gün olmaz ki, onlar barəsində məktəblərdə söhbətlər aparılmasın. Bax bu söhbətin bəhrəsidir ki, Azərbaycan gəncliyi İkinci Qarabağ savaşında, 44 günlük Vətən müharibəsində qızıl tarix yazdı və bu tarixə öz imzalarını atdı.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Burda ildə 258 gün yağış yağır - Ən çox yağıntı düşən yerlər

**Yağış dünyanın müxtəlif yerlərində milyonlarla insanın həyatına təsir edir. Ancaq bəzi şəhərlərdə yağış demək olar ki, ilboyu davam edir.**

Adalet.az yeni iqlim məlumatlarına əsasən xəbər verir ki, il ərzində yağıntılı günlərin sayına görə ən yüksək göstəriciyə malik 10 şəhər müəyyən edilib.

Reytinq göstərir ki, siyahıda əsasən ekvatorial və tropik zonalarda yerləşən şəhərlər yerləşib. Bu ərazilərdə coğrafi mövqe və atmosfer sirkulyasiyası demək olar ki, hər gün yağıntı yaradır. Məlumatlar dünyanın minlərlə nöqtəsində yağıntıların paylanmasını izləyən müstəqil iqlim göstəriciləri ilə də uyğunluq təşkil edir.

***Buenaventura, Kolumbiya - 258 yağıntılı gün***

Siyahıya Kolumbiyanın Sakit okean sahilində yerləşən liman şəhəri Buenaventura başçılıq edir. Burada il ərzində təxminən 258 gün yağış yağır. Bu, Sakit okeandan gələn rütubətli hava və yaxınlıqdakı dağların havanı yuxarı qaldıraraq kondensasiyaya səbəb olması ilə bağlıdır. Kolumbiya ekvatorial ərazidə olması və mürəkkəb relyefi səbəbindən dünyada ən çox yağıntı düşən ölkələrdən biri hesab olunur.

***Manisales, Kolumbiya - 257 yağıntılı gün***

Siyahıda növbəti yerdə Manisales şəhəri gəlir. Şəhər qəhvəsi və sərin dağ havası ilə tanınır. And dağlarının yamacında yerləşdiyi üçün burada tez-tez buludlu hava və yağıntı müşahidə olunur. İl ərzində təxminən 257 gün yağış yağır.



***San Vito və Kito - hər biri 253 gün***

Kosta-Rikanın cənubundakı San Vito və Ekvadorun paytaxtı Kitoda ildə orta hesabla 253 yağıntılı gün müşahidə olunur. Hər iki şəhər And dağlarının yüksəkliklərində yerləşir. Bu bölgələrdə tropiklərarası konvergensiya zonası və dağ mikroiqlimi yağıntıların ilboyu davam etməsinə səbəb olur.

***Sanqolki, Ekvador - 245 yağıntılı gün***

Kitonun yaxınlığında yerləşən Sanqolki şəhərində də rütubətli hava üstünlük təşkil edir. Burada ildə təxminən 245 gün yağış yağır. Bu göstərici ekvatorial dağlıq ərazilər üçün xarakterikdir.

Niefanq və Mikomesenq (Ekvatorial Qvineya), Banyos (Ekvador), Timiku (İndoneziya) - hər biri 244 gün

Bu şəhərlərin hər birində ildə 244 yağıntılı gün qeydə alınır. Onlar ekvator yaxınlığında, tropik yağış meşələri zonasında yerləşir. İsti hava və yüksək rütubət demək olar ki, hər gün leysan və göy gurultulu yağış yaradır.

***Duala, Kamerun - 243 yağıntılı gün***

Onluğu Kamerunun Qvineya körfəzi sahilində yerləşən Duala liman şəhəri tamamlayır. Şəhərdə il ərzində orta hesabla 243 gün yağış yağır. Yağıntılar əsasən Atlantik okeanından gələn rütubətli hava və mövsümi musson küləkləri ilə bağlıdır. Ümumilikdə, yağıntılar Yer kürəsində qeyri-bərabər paylanır. Cənubi Amerika, Afrika və Cənub-Şərqi Asiyadan keçən ekvatorial qurşaq ən çox yağıntı düşən bölgə hesab olunur.

**Ömər**

# Nura onları yıxıb-sürüdü: «Çağrılsam da, getmirəm...»

**”Televiziyalardakı verilişlərin hansı səviyyədə olması göz önündədir. Bunu təkcə müğənnilər yox, hər kəs deyir. Mən reytinqlərlə bağlı araşdırma aparmışdım. Hansı şirkətdir, bu qurum hara tabedir, reytinq aparatları kimlərin evindədir, ümumiyyətlə reytinq yerləşdirilirmi və s.? Hətta şirkətin kim tərəfindən maliyyələşməsini də sual etmişdim. Bunlarla bağlı heç bir məlumat əldə etmək mümkün olmadı”.**

Bu sözləri Adalet.az-a açıqlamasında müğənni Nura Suri söyləyib:

”Artıq tənqid etməkdən yorulmuşam. Həmişə bu mövzularda aktiv oluram. Danışıram, yazıram, problemlərlə bağlı fikir bildirirəm. Buna görə nə pul qazanıram, nə reytinq qazanıram. Ancaq düşmən qazanıram.

Yeni mahnılar, kliplər təqdim edəndə də görürəm ki, işlərim bir kənarda qalır, dediyim sözlər daha çox müzakirə olunur. Əgər bir etiraz varsa, bu normaldır və bu etiraza mütləq ki, bir səbəb vardır. Ancaq bu etirazlara məhəl qoyan varmı? Etdiyim tənqidi fikirlərə görə telekanallar tərəfindən ara-sıra hətta mənə efir qadağası da qoyulur. Amma bu hal



məni qətiyyən narahat etmir. Çünki mən həmin proqramlara çağrılsam da, getmirəm. Bayram konsertlərinə və bəzi verilişlərə ”ARB”, ”Xəzər TV”, ”İctimai TV” dəvətini qəbul edib, proqramlarda qonaq oluram.

”ATV”-dən ümumiyyətlə dəvət almıram. Çox güman ki, mənə efir qadağası var. Ancaq radioda heç bir qadağa yoxdur, çünki 106 FM və 106.3 FM-də mahnılarım səslənir.

Efir qadağaları ilə bağlı ciddi maraqlanmıram, hərdən bu haqda mənə məlumat çatır. Ola bilsin ki, AzTV, Mədəniyyət TV kanallarında qadağalar var. Amma bu necə olur, onu bilmirəm”.

N.Suri bayağı müğənnilərin efirdə görünməsini kütlənin tələbatı hesab etməyib:

”Deməzdim ki, kütlənin tələbatı bayağı müğənnilərdir. Əslə belə deyil. Bu, insanlarda zövqün formalaşdırılmasının nəticəsidir. Cəmiyyətə nə verirsənsə, onu da seyr edir. Bəzi televiziyalar cəmiyyətə alternativ təklif etmir. Cəmiyyəti necə istəyirlərsə, elə də formalaşdırırlar. Əslində İctimai TV-də çox maraqlı, baxımlı proqramlar və layihələr var, amma nədənsə reytinq aşağı göstərilir. Bütün kanallar daha səviyyəli proqramlar hazırlasalar, insanlar onsuz da ona baxacaqlar. Ancaq TikTok kimi sosial şəbəkələri efirə gətirmək efir mədəniyyətinə zidd addımdır. Hər bir aparıcı cəmiyyətdə zövq və fikir formalaşdırmaq üçün çalışmalıdır. Aparıcının danışıq qabiliyyəti yoxdursa, bir cümlədə 5-10 səhv edirsə, dediyi fikirlərin heç bir mənası yoxdursa, maarifləndirmirsə, etdiyi müzakirələr cəmiyyətdə tərbiyə forması deyilsə, o nəyə xidmət edir, mən bilmirəm”.

**Əntiqə KƏRİMZADƏ**

# Şəbnəm Tovuzlu: “Onun dəstəyinə ehtiyacım yoxdur”

**Bir müddət öncə həmkarı Şəbnəm Tovuzlu ilə qalmaqal yaşayan Nüşabə Musayeva onunla artıq dost olmadığını söyləyib.**

Mövzu ilə bağlı Adalet.az-a danışan Şəbnəm Tovuzlu ona qarşı heç bir səhv etmədiyini bildirib:

”Bilmirəm o xanım niyə belə deyir. Axı ona qarşı səhv addım atmamışam. Əgər işlərimin çoxluğundan kiməsə vaxt ayıra bilmirəmsə, o deməkdir ki, pis adamam?

Bu nə düşüncədir? Birdə hər münasibətim olan adamla hər gün danışmalıyam? Mənim sənətim var, mən sənətimlə yüksəlmişəm. Mənim onun dəstəyinə heç vaxt ehtiyacım olmayıb. Onun bu mənasız danışıqlarına cavab verməm. Düşünürəm ki, heç buna gərək də yoxdur”.



**Əntiqə**

## *Şeyx Əbdül “od püskürdü”: “Sən şoumen yox, meymunsan”*



**”Televiziya nəzarətə götürülməlidir. Yenidən seçilib, formalaşmalıdır. Konkret olaraq televiziyaların qarşısına məqsəd qoyulmalıdır. Kim hansı mövzuda işləməlidir, kim hansı problemləri işıqlandırmalıdır, efirlərə kimlər dəvət olunmalıdır- bütün bunlar ciddi şəkildə müzakirə olunmalıdır. Gülməli kinolar, əxlaqsızlığı təbliğ edən proqramlar, əttökən oxuyanlar- hamısı televiziyadadır. Aləm qarışıb bir-birinə”.**

Bu sözləri Adalet.az-a açıqlamasında Xalq artisti Şeyx Əbdül Mahmudov deyib:

”Bu gün efirlər dözülməz haldadır. Əndamlı, əndamsız, əxlaqlı, əxlaqsız, səsi olan, səsi olmayan -hamısı efirlərdədir. Bu mövzuda ən çox danışan, bu vəziyyətə ən çox mıxdalxilə edən mənəm. Demişdim ki, studiyaya piano gətirəcəm. Oxuyanların musiqi duyumunu yoxlayacam. Əgər xaric oxumurlarsa, buyursunlar. İndi başlayıblar canlı ifa etməyə, hamısı qışqırır. Daha başa düşmürlər ki, oxumaq həzin, lirik səsi olan insanlar üçündür. Onsuzda kim ağzın açıb- gözün yumsa, ondan bir səs çıxır. İndi oxuyanların böyük əksəriyyəti muğmatı şikəst edirlər. Çoxu nə oxuduğunu da anlamır. Ritmə, mahının avazına qəribə müdaxilələr edirlər. Bunların əsas səbəbi isə televiziyaya nəzarətin olmamasıdır.Belə bir misal var, ”Dərə yiyəsiz olanda donuz təpəyə çıxar”. Elə bil televiziyanın bu günü üçün deyilib.

Televiziya sistemi Azərbaycanın ən möhtəşəm, ən təhlükəli və ən lazımlı ideoloji kütləvi təbliğat vasitəsidir. Çox ciddi surətdə nəzarətə götürülməlidir. Senzura mütləq olmalıdır. Niyə olmasın senzura?! Dərəbəylikdir ki, kim nə istədi danışsın?!Aparıcılar, proqramlara dəvət olunanlar yoxlanılmalıdır, sonra efirə buraxılmalıdır. Proqramda danışılacaq mövzular əvvəldən müəyyən olunub, müzakirə olunmalıdır.Bu gün Azərbaycan televiziyası manısların toy tutmaq məkanına çevrilib. Kim toya gedib pul qazanmaq istəyirsə, orasın- burasın düzəldib 2-3 fonoqram ilə, mənasız rəqslərlə efirləri ”bəzəyir”.Bunlar hamısı xalqı aldatmaq üçün təşkil olunmuş şoulardır. Dindirsən, deyəcək şoumenəm. Sən şoumen yox, meymunsan.Hamısı özülərinə şoumen deyirlər. Amma heç bilmirlər ki, şoumen nə deməkdir.Şoumenlik böyük mədəniyyət sahəsidir, bir elmdir. Michael Jackson isə ən böyük nümayəndələrindən biridir. Şoumenliyin nə olduğun anlamayanlar Azərbaycanın efir məkanlarını bərbad hala gətirirlər”.

## *Saleh Bağırov: “Əxlaqsızlıq və mənəviyyatsızlığı təbliğ etməkdə məqsəd nədir?”*



**”Televiziya böyük təbliğat maşınıdır. Təəssüf ki, bu gün bu maşının sükanı naşıların, təsadüfi adamların, efirin müqəddəsliyinin, təsir gücünün nə olduğunu anlamayanların, dəyərlərimizi pul qazanmaq üçün ayaq altına atanların, aparıcılıq sənətinə xələl gətirənlərin əllərindədir”. Bu sözləri Adalet.az-a açıqlamasında aparıcı Saleh Bağırov söyləyib:**

”Bütün bu yaşananlar ədəbsiz, nalayiq, tərbiyəsiz adamların müğənni statusunda efirlərdə meydan sulamasının, onlara qadağa qoyulmamasının, TV qapılarının hərəkətini, özünü bilməyən bu cür ünsürlərə, ”müğənnilərə” açıq olmasının nəticəsidir. Ona görə mövcud durum bu haldadır! TV kanallarlna rəhbərlik edənlər, aidiyyatı qurumlar hamı gördüyünü, bildiyini görən həqiqətənmi görmür və ya görməzdən gəlirsiniz?! Bu laqeydliyiniz apardıqca aparır bizi uçuruma. Nədir məqsəd bu dərəcədə əxlaqsızlıq və mənəviyyatsızlığı təbliğ etməkdə?

Niyə bütün imkanlar əlinizdə ola ola almırsınız bu tərbiyəsizliyin qarşısını? Niyə qadağalar tətbiq olunmur”?

**Əntiqə**

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə Trabzonda yaşayan ürək dostu **Ahmet Varola** anası

**Hamiyə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Sevinc Qəribə** atası

**Qərib kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 268
Çapa imzalanmışdır: 26.02.2026